# *QƏMƏRİ BƏNİ HAŞİM HƏZRƏT ƏBULFƏZL ABBASIN (Ə) NURLU ÇÖHRƏSİ*

## *(KƏRAMƏTLƏR VƏ MƏRSİYƏLƏR)*

***Höccətül-İslam Əli Rəbbani Xalxali***

بِسْمِ اللَّهِ الرَّحْمنِ الرَّحِيمِ

Bismillahir rəhmanir rəhim!

Rəbbani Xalxali, Əli, -1315

Qəməri bəni Haşim, həzrət Əbulfəzl Abbasın (əleyhissalam) nurlu çöhrəsi. (Kəramətlər, mərsiyələr)\ Müəllif: Əli Xalxali Rəbbani; Mütərcim: Faiq Vəlioğlu. – Qum. Ənsaryan,

1382=1424.

240 səh.

**ISBN: 964-438-496-2**

1. Abbas ibn Əli (ə) 26? – 61 q. (Əhvalatlar 2. Abbas ibn Əli (ə) 26? - 61q) Kəramətlər. a) Vəlioğlu Faiq, mütərcim. b) Ünvan.

***QƏMƏRİ BƏNİ HAŞİM HƏZRƏT ƏBULFƏZL ABBASIN (ƏLEYHİSSALAM) NURLU ÇÖHRƏSİ***

***(KƏRAMƏTLƏR VƏ MƏRSİYƏLƏR)***

Müəllif: Əli rəbbani Xalxali

Mütərcim: Faiq Vəlioğlu

Naşir: Ənsaryan nəşriyyatı – Qum

Birinci çap 1382=2003=1424

Çapxana: Üfüq – Qum

Tiraj: 2000

Səhifələrin sayı: 240

## *ÖN SÖZ*

Pərvərdigari-aləm Qur`ani-məcidin «Maidə» surəsinin 35-ci ayəsində buyurur:

***«Ey iman gətirənlər! Allahdan qorxun! Ona [Onun rəhmət və lütfünə qovuşmaq üçün] yol axtarın......»***

Dünyanın yaradılışından indiyə qədər yer üzünə peyğəmbərlər gəlmiş və hər birinin Allah tərəfindən verilmiş özünəməxsus mö`cüzələri olmuşdur. Mö`cüzə, yalnız peyğəmbərə verilir. İmamlar və Allaha yaxın olan digər övliyaların gördükləri xarüqüladə işlərə isə «kəramətlər» deyilir. Allah yanında xüsusi məqama malik olanlar, xüsusən də Mə`sum İmamlar (əleyhimussalam) bu cəhətdən daha üstündürlər.

Qarşınızdakı bu kitabda Həzrət Əli (əleyhissalam)-ın oğlu, Kərbəla qəhrəmanı, imam Hüseyn (əleyhissalam)-ın ələmdarı həzrət Əbülfəzl Abbas (əleyhissalam)-ın «kəramətləri» və insanlara verdiyi şəfaətlərdən söz açılır. Onu da qeyd edək ki, bütün bu kəramətlər yalnız, Allahın izni ilə yerinə yetirilir. Kitabın müəllifi (höccətül İslam Əli Rəbbani Xəlxali) bu «kəramətləri» məktbular vasitəsi ilə dünyanın müxtəlif yerlərindən cəm etmiş və əziz müsəlman qardaş və bacılardan ötrü qələmə almışdır.

Həzrət Əbülfəzl Abbas (əleyhissalam)-ın kəramətlərindən yazmaq istəsək cilidlərlə kitablar yazmaq olar. Azərbaycanın xalis mö`minləri bunu daha gözəl başa düşürlər. Mənim çoxdan zehnimdə bu barədə bir şey yazmaq fikri dolanırdı. Kitabın müəllifi bu kitabın tərcüməsini təklif etdikdə bunu öz istəyim kimi qəbul etdim. Azərbaycanda çox az şəxs tapılar ki, həzrət Əbülfəzl Abbas (əleyhissalam)-ın kəramətindən eşitməsin. Mən özüm lap uşaq vaxtından Azərbaycanın səfalı guşələrindən biri sayılan muğan məntəqəsində, yə`ni, İmişli şəhərinin Qaravəlli kəndində həzrət Əbülfəzl Abbas (əleyhissalam)-a olan ehtiramı müşahidə etmişəm. Həzrət Əbülfəzl Abbas (əleyhissalam)-ın adı gələndə ağsaqqal və ağbirçək müsəlman qardaş və bacıların ixtiyarsız olaraq göz yaşları axır. Bütün bunlar, Azərbaycan müsəlmanlarının on dörd Mə`sumlarla (əleyhimussalam) yanaşı bu şərəfli şəxsiyyətə də böyük ehtiramından xəbər verir.

Bu kitabda deyilənlərin həqiqətinə söz yoxdur və belə kəramətləri, yalnız qəlbləri pak olanlar anlaya bilərlər.

Kitabda həzrət Əbülfəzl Abbas (əleyhissalam)-ın kəramətləri arasında, Əhli-Beyt (əleyhimussalam)-ın aşiqlərindən ötrü Əbülfəzl Abbas (əleyhissalam) və Kərbəla şəhidləri barəsində yazılan ***"mərsiyələr"*** də yazılmışdır. Bu mərsiyələri Əbülfəzl aşiqi, ömür-gününü İslam dininin xidmətinə həsr etmiş, mərhum atam Məşədi molla Vəli bir yerə yığmış və bizlərin əlinə yetirmişdir. Ümidvaram

ki, bu işlərin müqabilində həzrət Əbülfəzl Abbas (əleyhissalam) öz şəfaətini onadan əsirgəməsin!

Onu da qeyd etmək istəyirəm ki, bə`zən Həzrət Əbülfəzl Abbas (əleyhissalam)-ın adından şəxsi mənafelərindən ötrü istifadə edib, mə`nasız işlər görənlər də tapılır. Belə şəxslər üçün də bu kitab bir ibrət dərsi olmalıdır. Biz müsəlmanlar Həzrət Əbülfəzl Abbas (əleyhissalam)-ın hansı məqsədlə və nə uğrunda şəhadətə yetməsini fikirləşməli və əməllərimizi onun getdiyi yol və etdiyi hərəkətlərlə uyğunlaşdırmalıyıq. Yalnız belə olan halda, Allah bizim dualarımızı tez qəbul edər və Qiyamətin günündə o Həzrətin şəfaətini bizdən əsirgəməz.

***Pərvərdigara! Sən Özün bizim günahlarımızdan keç və bizim nəfsimizi ağlımıza tabe et!***

***Amin! Ya Rəbbəl aləmin!***

İmişli
Payız
2000-ci il. Faiq Vəlioğlu.

## *HƏZRƏT ƏBÜLFƏZLİN (Ə) BABASI VƏ NƏNƏSİ İLƏ TANIŞLIQ*

Həzrət Əbülfəzl Abbas (əleyhissalam)-ın cəddinin adı Əbu Talibdir. «Əbu Talib» əslində onu əsl adı deyil, bəlkə də ləqəbidir. Onun əsl adı barəsində tarixçilər arasında ixtilaf vardır. Məşhur budur ki, Əbu Talibin əsl adı «Əbdül Mənar»dır.

Əbu Talibin dörd oğlu olmuşdur. Onların adları: Talib, Əqil, Cə`fər və Əli (əleyhissalam) olmuşdur. Onların hər birisi digərindən on yaş böyük idi. Talib Əli(əleyhissalam)-dan 30 yaş böyük olub. Onun nəslinin kökü olmayıb. Qureyş tayfası «Bədr» döyüşünə gələndə onu da özü ilə zorla aparıblar Lakin yolda itgin düşdüyünə görə döyüşdə iştirak etməmişdir. Bə`ziləri nəql edir ki, dənizdə qərq olmuşdur.

Əbu Talibin özü böyük şəxsiyyətlərdən olmuşdur. O, Peyğəmbərə (səlləllahu əleyhi və alihi və səlləm) ilk iman gətirənlərdən olub və bu yolda əlindən gələn köməklikləri göstərmişdir. İmam Sadiq (əleyhissalam)-dan nəql olunan rəvayətlərin birində Əbu Talibin iman gətirməsi barəsində belə deyilir:

***«Əgər Əbu Talibin imanını tərəzinin bir gözünə və insanların imanlarını başqa gözünə qoysaq Əbu Talibin imanı ağır gələr».***

Nəhayət, be`sətin 10-cu ilində Əbu Talib öz dünyasını dəyişir. İslam Peyğəmbərinə (səlləllahu əleyhi və alihi və səlləm) hədsiz dərəcədə köməklik göstərən bu şəxsiyyətdən sonra müşriklər cür`ət tapıb Peyğəmbərə (səlləllahu əleyhi və alihi və səlləm) tərəf hücuma keçirlər. Əbu Talibin vəfatından 30 və yaxud 45 gün sonra Peyğəmbərin (səlləllahu əleyhi və alihi və səlləm) zövcəsi mö`minə xanım Xədicə də dünyasını

dəyişir. İslam Peyğəmbəri (səlləllahu əleyhi və alihi və səlləm) həmin ili «hüzn ili» adlandırır.

## *HƏZRƏT ƏBULFƏZL ABBASIN NƏNƏSİ FATİMƏ ƏSƏD QIZIDIR!*

Əsəd qızı Fatimə islam Peyğəmbərinə (səlləllahu əleyhi və alihi və səlləm)-ə iman gətirdikdən sonra bütpərəstliklə mübarizəyə başlayır. Bu mö`minə qadın Xədicədən sonra ilk qadın idi ki, Peyğəmbərə (səlləllahu əleyhi və alihi və səlləm) iman gətirmişdi. Onun islam Peyğəmbərinin (səlləllahu əleyhi və alihi və səlləm) yanında çox böyük hörməti var idi. Belə ki, vəfat edərkən Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) öz köynəyini ona geyindirib dəfn edir.

## *ƏLİ (Ə) ƏBULFƏZL ABBASIN ATASI!*

Həzrət Əli (əleyhissalam)-ın barəsində danışmaqdan ötrü xüsusi kitaba ehtiyac vardır. Lakin qısa da olsa Həzrətin həyatına nəzər sala bilərik.

Əli (əleyhissalam) be`sətdən on il qabaq müqəddəs Kə`bədə doğulmuşdur. Otuz il imamətlik dövründə cəmi dörd il doqquz ay xilafətdə olmuşdur. Hicrətin 40-cı ili Ramazan ayının 19-da (Allahın lə`nətinə gəlmiş) ibni Mülcəm adlı həyasız bir varlıq tərəfindən qılınclanmış və nəhayət 21-də şəhadətə yetmişdir.

Əli (əleyhissalam) Mə`sum imam olmaqla yanaşı özünün şücaəti və qəhrəmanlığı ilə tanınmışdır. Ədalət naminə həyatından belə keçməyə hər an hazır olan İmam (əleyhissalam), özünün əxlaqi xüsusiyyətləri ilə bəşərə nümunə idi. Tarix səhifələrində çoxlu kəramətlərinin olduğu göstərilir. İmamın kəramətlərindən, əli kəsilmiş şəxsə əl bağışlaması, anadan gəlmə kor yetimin gözlərinin açılması, ölünün kəllə sümüklərinin İmamla danışması, Əshabı Kəhfin

dirilməsi və onunla söhbət etməsi, o cümlədən onlarla belə kəramətləri tarix kitablarında qeydə alınmışdır.

## *ÜMMÜL BƏNİN HƏZRƏT ƏBÜLFƏZLİN(Ə) ANASI!*

Həzrət Əbülfəzl (ə)-ın anası Ümmül Bəninin xüsusiyyətləri aşağıdakılardan ibarətdir:

Əsl adı ———— Fatimə

Künyəsi ———— Ümmül Bənin

Anası ———— Səamə

Həyat yoldaşı—— Əli (əleyhissalam)

Dörd şəhid anası olub — Abbas, Əbdüllah, Cə`fər və Osman.

Qəbri şərifi — Mədinə, «Bəqi» qəbiristanlığında.

Tarixdə bu qadının özünün anadan olduğu vaxt qeyd olunmayıb. Lakin onun böyük oğlu Həzrət Əbülfəzl Abbas (əleyhissalam) hicrətin 26-cı ilində dünyaya gəldiyi göstərilir. Bu qadın özünün əxlaqı, şücaəti, kəramətləri və isməti ilə tarix kitablarında tanınır. Tarix nişan verir ki, Ümmül Bənin Kərbəlada olmamışdır, lakin imam Hüseyn (əleyhissalam) Kərbəla səfərinə yola düşərkən o, dörd oğlunu öz əlləri ilə kömək üçün kömək üçün İmamla(əleyhissalam) göndərir. Onların qətl xəbərini eşitdikdə hamıdan çox imam Hüseynə (əleyhissalam) ağlayır və öz oğullarının ona fəda olmasını arzulayır. Bu da onun imanının nə dərəcədə yüksək olmasına işarədir.

## *HƏZRƏT ƏBÜLFƏZL ABBASIN(Ə) ŞİYƏLƏRƏ OLAN KƏRAMƏTLƏRİ (135 DƏFƏ)*

# *GİRİŞ*

Əvvəlcədən qeyd etdiyimiz kimi bütün bu kəramətlər dünyanın müxtəlif şəhərlərindən kitabın müəllifinə məktub vasitəsi ilə göndərilmişdir.

Qısa da olsa bəri başdan qeyd etməliyik ki, Allah yanında uca məqamı olanlara müstəqil şəkildə təvəssül etmək şəriətdə haram və günah sayılır. Bizim Allah yanında uca məqamlı insanlara müraciət etməkdən məqsədimiz əsl niyyətimizi Allahdan istədiyimizə görədir. Başqa sözlə desək, biz özümüzün Allah dərgahında layiqincə məqamımız olmadığına görə Qur`ani-Kərimin Maidə surəsinin 35-ci ayəsinə əsasən:

***«Ey iman gətirənlər! Allahdan qorxun. Ona [Onun rəhmətinə və lütfünə qovuşmaq üçün] yol axtarın...»*** *(Maidə–35).*

Allah yanında uca məqamı olanları, Allahla özümüz arasında vasitə (yol) qərar veririk. Bu iş şəriətdə heç də qadağan deyil, bəlkə də ən çox xoşagələn işlərdəndir və günahkar şəxsin duasının daha tez qəbul olmasına səbəb olur. Ümidvarıq ki, Allah-taala qiyamətin günündə oğul-uşağın və mal-dövlətin fayda verməyəcəyi bir gündə bizləri belə uca məqamlı övliyaların şəfaətindən uzaq etməsin! İlahi! Amin!

## BİRİNCİ KƏRAMƏT

### *BU BƏRƏKƏT HƏZRƏT ƏBÜLFƏZL ABBASA (Ə) XATİR OLDU!*

***Hörmətli alim Fazil Fərzanə və höccətül islam vəl-müslimin hacı seyyid Məhəmməd Cəlam yazırlar:***

Hicri qəməri tarixi ilə 1356-cı ildə Rəcəb ayının 14-də İraqda «Bə`s» partiyasının nümayəndələri Nəcəfül-əşrəf elmi mərkəzinə hücum etdilər. Bir dəstə tələbələri tutdular. Bir neçə ay əziyyətdən və əzabdan sonra bizi Nəcəfdə və Bağdadda bu partiya ilə müxalifət etməyimiz ünvanı ilə ölüm hökmünə mə`ruz qoydular. Biz hökm e`lan olunan gecə mən və şeyx Hüseyn Həlimi (Səudiyyə Ərəbistanından idi) Fatimeyi Zəhra (s.ə) və həzrət Əbülfəzl Abbası (ə) Allah dərgahına and verirdik və o gecə həzrət Əbülfəzl Abbas (ə) barəsində roza oxuduq. Bizdən (iki nəfərdən) başqa heç kəsin ağlına belə iş gəlməmişdi. O gecənin səhəri sübh tezdən mö`cüzə olaraq əmr gəldi ki, mən və şeyx Hüseyn Həlimi azad olunurlar. Bu iş həzrət Fatimeyi Zəhra (s.ə) və Babul həvaic Əbülfəzl Abbasın bərəkətindən idi.

Bizimlə həbs edilmiş digər tələbələri isə həmin il zil qə`də ayının 18-də e`dam etdilər. Allah onların hamısına rəhmət eləsin və cinayətkarlardan onların qisasını alsın!

## *GET ƏBÜLFƏZ BU HÜSEYNƏ SƏNİ QURBAN ELƏDİM,*

**Get Əbülfəz bu Hüseynə səni qurban elədim,**
**Bəslədim sərvi qəddün azimi meydan elədim!**

* * * * * * * * *

**BuHüseyn sifdi Nəbidir sən ona rəsmi qulam**
**Sənə rayət budu şahən şahi dövranı imam**
**Budur aləmlər içində səbəbi nəzmi-nizam**
**Bu Hüseynə səni mən xadimi dövran elədim.**

* * * * * * * * * *

**Mümkün olduqca gətir abi sərin xeymələrə**
**Ta ola bəlkə təsəlli hərəmi teşnələrə**
**Xidmət eylə nə qədər vardı canun nəcmlərə**
**Səni səqqayi Hüseyn höccəti Sübhan elədin.**

* * * * * * * * * * * *

**Əkbər üstə qənədün sərginən ey sərvi rəvan**
**Cəddünə oxşari var Hüsnüdə çox vardı nişan**
**Cən sənin can bu dilarami Hüsen teşnə ləban**
**Səni bu nəsli Əbul-Qasimə qurban elədim.**

* * * * * * * * * * * *

**Nadima eylə təvəccöh zübdeyi nasə müdam**
**Yazginən qisseyi dil sözünü qıl tasə müdam**
**Müşkül əmründə yapış daməni Əbbasə müdam**
**Ta şikayət eləmə ömrümü viran elədim.**

## İKİNCİ KƏRAMƏT

### *HƏZRƏT FATİMEYİ-MƏ`SUMƏYƏ(S) TƏVƏSSÜL VƏ ONUN MÜŞKÜLÜNÜ HƏZRƏT ƏBÜLFƏZL ABBAS (Ə)-A HƏVALƏ ETMƏSİ!*

***Höccətül-islam vəl-müslimin Hacı şeyx Abbas Şeyxür-rəis Kermani 1376-cı il \4\31\ mənim xahişimə cavab olaraq aşağıdakı məzmundabelə bir məktub yazmışdır:***

«Təxminən hicri qəməri ili ilə 1332-ci ildə öz atamın və möhtərəm ustadlarımın yanında dini elmləri oxuyan tələbə idim. İranın Kerman şəhərində təhsil almaqla məşğul idim. Birdən «sinəmin sağ tərəfində döş qəfəsimin altında» şiddətli ağrı hiss etdim. Müalicədən ötrü bir neçə həkimə müraciət etdim. Amma bütün təcrübələr, yoxlamalar və müalicələrin heç birisi xəstəliyimin əsl dərmanını və narahatçılığımı tapa bilmədi.

Bətnimdə «tumur» və ya «on iki barmaq» xəstəliyinin olması ehtimalı ilə həkimlər az bir gümanla zəmanət verməklə cərrahiyyə əməliyyatını başlamağı təklif edirdilər. Hərə bir nəzəriyyə verirdi, ağrının şiddəti və narahatçılıq o qədər çox idi ki, arzu edirdim ki, bir saatda olsa məni rahat buraxsınlar. O vaxtlar 24 yaşım olardı. Təhsilimi təkmilləşdirməkdən ötrü Məhəmməd Peyğəmbərin (səlləllahu əleyhi və alihi və səlləm) övladlarından olub orada dəfn olunan müqəddəs «Qum» şəhərinə gəldim. Bu şəhərdə özümə ev kirayə etdim. Təbii olaraq xəstəliyimin müalicəsi davam edirdi. Bütün bunlarla yanaşı dua və təvəssüldən qafil deyildim. O vaxta qədər ki, günlərin birində həzrəti Fatimeyi-Mə`sumənin (s.ə) dua edib, Allah dərgahından onun məqamına xatir şəfa tapmağımı dilədim. Həmin gecə yuxu aləmində gördüm ki, bir nəfər qırmızı tüklü qoyunu mənə göstərib buyurdu:

***Həzrət Əbülfəzl Abbasa (ə) qurban kəsməkdən ötrü nəzr elə ki, tezliklə şəfa tapasan!.***

Sonra mənə xitabən buyurdu:

***«Demə ki, yuxu görürəm».*** -Bu cümləni üç dəfə təkrar etdi. (İşarə olunurdu ki, e`tinasızlıq etmə.)

Ayılan kimi necə ki, yuxuda əmr olunmuşdu o cür də nəzr etdim. Bu vaxta qədər belə yuxu görməməyimlə bərabər heç nəzr etməyin və onun tə`sirindən də xəbərim yox idi. Çünki bu hadisədən az bir vaxt sonra bütün narahatçılığım aradan getdi.

Təsadüfən həmin günlərdə o il məhərrəm ayında imam Hüseyn (əleyhissalam) məclisində istifadə etməkdən ötrü Tikdər kəndində az qoyun var idi. Etdiyim nəzirə əsasən, xahiş etdim ki, nəzr etdiyim nişanədə qoyun tapsınlar. Əgər qırmızı tüklü olsa daha yaxşı olardı. Maraqlıdır ki, yuxumda gördüyüm həmin rəngdə qoyunu mənim üçün aldılar. 35 tümənə həmin qoyunu alıb həzrət Əbulfəzl Abbas (əleyhissalam)-ın niyyəti ilə qurban kəsdim. Doğrudur ki, nəzr etmək əmri yalnız o illə bağlı idi, amma həzrət Fatimeyi Mə`sumənin (s.ə) və Əbülfəzl Abbas (əleyhissalam) bərəkətindən hər il Babul-həvaic» adına «rövzə» məclisi qurur, 40 ilə yaxındır ki, onların hörmətini saxlayıram. Bununla da Allah dərgahında onlara yaxın olmağa çalışıram.

## ÜÇÜNCÜ KƏRAMƏT

### *HİNDİSTANLI UŞAQ ŞƏFA TAPDI!*

***Bu məktubu höccətül islam vəl-müslümin Ayətullah hacı seyyid Təyyib Cəzairi bizim ünvana göndərib:***

«Bu hadisə təxminən günəş ili ilə 1325-ci ildə baş vermişdir. Hindistanda (Loknhov şəhərində) olan vaxt gənclik illərinə təzəcə qədəm qoymuşdum. Amma elə bir bahar cavanlığı idi ki, məndən ötrü qışın xəzan yelindən də çətin idi.

Çünki, o vaxtlar müxtəlif növ müsibət və xəstəliklər mənim vücuduma üz gətirmişdi. Onlardan biri də bu idi ki, mənə elə bir xəstəlik üz vermişdi ki, həkimlər müalicə etməkdə aciz idilər. Mən həyatdan bezmişdim. O vaxtlar öz-özümə belə fikirləşirdim: Əgər bütün bu giriftarçılıq və xəstəliklərin əlacını bir dəfəlik istəyirsənsə Kərbəlaya get. Özünü o nurlu ziyarətgaha çatdır. Allah Özü və`də verib ki, bu məkanda olunan bütün duaları qəbul edərəm.

Beləliklə, bir müddət sonra bütün müşkülatlara baxmayaraq özümü Allah yanında uca məqamı olan Kərbəla ziyarətgahına çatdırdım.

Ah! Necə deyim ki, Kərbəlaya yetişəndə məndə hansı halət üz verdi?!

Elə ki, o qızıl günbəzi gördüm, öz-özümə belə zəmzəmə etdim:

***«Axı mən ədəbsiz kiməm? Bura əcib bir dərgahdır! Bəşərin, cinlərin və mələklərin səcdəgahı burdadır!»***

Sonra özümü pak zirehə atdım. Ağlar gözlə və həyacanlı halda belə dua etdim:

***Ey qibleyi aləm və Peyğəmbərin övladı! Ey həyat mənbəyi və nicat gəmisi! Ey nuri səqəleyn və iki dünyanın ağası! Ey imam Hüseyn! Ey şəfa çeşməsi! Ey Fatimeyi Zəhranın qəlbinin əzizi! Mən miskin, bu qəmli qəlbimlə uzaq ölkədən sizə tərəf üz gətirmişəm. Dağ ağırlıqda müsibətim və dəryalar qədər müşkülüm var. Amma əgər siz istəsəniz dağ təpə olar və dərya kuzəyə dönər. Sizin bir baxışınız gülü gülaba və zərrəni günəşə döndərər!***

Nə isə bir müddət özümü pak zirehə bağladım və bir neçə gün orada qaldım. İşim-gücüm ah-nalə və ağlamaq idi. Amma nə qədər ah-nalə etdim və nə qədər ümid bağladımsa məqsədimə yetə bilmirdim. Az qalmışdı ki, imanım zəifləsin və ruhi cəhətdən əqidəm korlansın. Şeytan qəlbimə vəsvəsə salmışdı ki, axı nəyə görə imam Hüseyn (əleyhissalam) mənə cavab vermir? Nəyə görə yuxuma girmir? Mən ki, Harunun xəzinəsin və Harunun qüdrətin istəmirdim!

Bir tərəfdən ahu-zarda, bir tərəfdən də səhlənkarlıq edirəm. Gecə-gündüz xahiş və yalvarışdayam. Amma, ağa mənə heç diqqət etmir. İlahi! Yə`ni, bütün bu şayələr əsassızdır. Əgər imam Hüseyn (əleyhissalam) həmin dillərdə deyilən şövkət və qüdrət sahibidirsə, axı nəyə görə mənim muradımı vermir? Nəyə görə mö`cüzə göstərmir?

Belə «suallardan» zehnimdən çox keçirtdim. Ağlım çaşmış, əqidəmdə çaşqınlıq əmələ gəlmişdi. Ondan qafil idim ki, Əhli-beyt (əleyhimussalam)-ın işləri bə`zi məsləhətlər üzündəndir. Bəşərin ağlı onu dərk etməkdə acizdir. Bə`zən insanın bir şeyi tezliklə istəməsi onu müxtəlif xətərli bəlalara mübtəla edə bilər.

Bu, o uşağa bənzəyir ki, əli taxçanın üstünə çatmır və əlinin qısa olmasından inciməyə başlayır. Amma, uşaq bir şeydən qafildir ki, əgər əlləri taxçaya çatsaydı onun üstündə kəsici şüşələr ola bilərdi və o şüşələr onun başına düşə bilərdi. Yaxud ,taxçada isti su ola bilərdi və uşağın əli ora çatardısa onu başına töküb özünü yandıra bilərdi. Lakin, ağlı çoxaldıqca əlləri də taxçaya çatar və onun üstündəkilərdən lazımınca istifadə edə bilərdi.

Mənim üçün də həmin vəziyyət qarşıma çıxmışdı. Çünki, o vaxtlar (yaşımın azlığından və təcrübəm olmadığına görə) məqsədimə çata bilmədim. Lakin sonralar imam Hüseyn (əleyhissalam)-dan hər nə istədimsə ondan daha çoxunu mənə qismət etdi.

«Qaranlıqda yanan məş`əl gördüm». Təbiidir ki, imam Hüseyn (əleyhissalam)-dan muradımı almayan anda şiddətli heyranda qaldım. Az qaldı ki, zəlalət quyusuna düşəm. Həmin arada Allah köməyim oldu və mənim üçün hidayət çırağını göndərdi. Elə ki, zirehə yaxınlaşdım sağ tərəfimə baxdım. Gördüm ki, başqa birisi də özünü zirəhə sürtüb raz-niyaz edir. Yadımda deyil nə vaxta qədər hər ikimiz özümüzü zirəhə bağlamışdıq. Nəhayət, dəstəmazımı təzələməkdən ötrü hərəmdən çölə çıxdım. Yolüstü həmən şəxsə salam verdim.

Soruşdum: Siz hansı diyardansınız? Cavab verdi: Hindistanın «Loknhov» şəhərindən.» Yə`ni, həmin şəhər ki, mən də oradan idim. Mən də özümü təqdim etdim. O, məni tamamilə tanıdı və böyük ehtiram göstərdi.O məndən yaşlı idi. Ona görə də mənimlə böyük qardaş kimi rəftar edirdi. Məni böyük mehribançılıqla öz otağına gətirdi. Ac idim. Məndən ötrü nahar hazırladı. Bu münasibətə görə onunla çox yaxından dostlaşdım. Nəhayət, cür`ət tapıb ondan soruşdum ki, ay qardaş sizə nə oldu ki, buraya gəldiniz və özünüzü müqəddəs ziyarətgaha saldınız?

Cavab verdi: Xəstəyəm və şəfa tapmaqdan ötrü gəlmişəm. Dedim: Əgər muradınızı imam Hüseyndən (əleyhissalam)-dan ala bilməsəniz onda nə edəcəksiniz?

Dedi: Nə etməliyəm? Dedim: Məgər qəlbinizdə şəkk-şübhə yaranmayacaq?

Dedi: Heç vaxt!

Dedim: Nəyə görə?

Cavab verdi: Bir kəs ki, günün günorta çağı həzrət Əbülfəzl Abbası (əleyhissalam)-ı görə və onunla söhbət edib hacətini ala, necə ola bilər ki, qəlbində onlara qarşı şəkk-şübhə yaransın?

Dedim: Xahiş edirəm əhvalatı mənə ətraflı nəql edin.

Buyurdu: Bu hadisə mənim uşaqlıq illərimə təsadüf edir. Lakin o qədər də balaca deyildim ki, hadisə yadımdan çıxmış olsun. Bəlkə də yaşım elə idi ki, bu hadisəni bütün xırdalıqlarına qədər zehnimdə saxlamışam.

Sözünə davam etdi: Uşaqlıqda qarınağrı xəstəliyinə tutulmuşdum. Nə qədər həkimlərə getdimsə faydası olmadı. O belə ki, valideynlərim mənim yaşamağımdan ümidlərini üzmüşdülər. Elə ki, ölüm halına gəldim, anam məni qucağına alıb «Həzrət Əbülfəzl Abbasın» zirehinin yanına apardı. Bədənim nəcis olduğuna görə məni qapının ağzında yerə qoyub özü içəri girdi və zar-zar ağlamağa başladı. Hindistanın «Loknhov» şəhərində «Həzrət Əbülfəzl Abbas dərgahı» adlı

ziyarətgah var.Hər millətdən ora ziyarətə gəlir və çoxlu kəramət görürlər.

Mən ,o müqəddəs məqamda böyük qapının qırağında torpaq üstündə qalmışdım. Hər tərəfimdən sinə vuranlar və əzadarlıq edənlər keçirdilər. O səhnəni müşahidə etdikcə gah imam Hüseyn (ə)-a, gah da öz halıma ağlayırdım. Həzrət Əbülfəzl Abbas (ə) zahir oldu. Həmin arada bir atlı gördüm ki, mənə tərəf gəlirdi. Atlı mənim yanıma gəldi və məni adımla çağıraraq dedi: Sən burada neynirsən? Nəyə görə torpağın üstündə qalmısan? Niyə görə ağlayırsan?

Dedim: Ağa! Mən xəstəyəm, durmağa qüdrətim yoxdur.

Dedi: Anan hardadır?

Dedim: Zirehin yanına gedib ki, məndən ötrü dua etsin.

Dedi: Dur otur!

Dedim: Ağa, mənim qüdrətim yoxdur, xəstəyəm!

Dedi: Mən deyirəm dur! Sən yaxşı olmusan.

O vaxt mən onun sözü ilə ayağa durdum. Gördüm ki, ayaqlarıma qüvvət gəlib. O qüdrətsizlikdən məndə heç bir əsər əlamət yox idi. Xoşhal oldum və soruşdum: Ağa! Siz kimsiniz?

Dedi: Bu hərəm kimindir?

Dedim: Bu həzrət Əbülfəzl Abbasındır.

Dedi: **Mən Əbülfəzl Abbasam! Anan zirehin yanında fəryad edir. Get onu çağır.Artıq sən yaxşı olmusan və xəstə deyilsən**.

Bunu dedi və mənim gözlərimdən yoxa çıxdı.

## DÖRDÜNCÜ KƏRAMƏT

### *HƏZRƏT ƏBÜLFƏZL ABBASIN(Ə) ƏLƏMİNİN BƏRƏKƏTİNDƏN BOMBALAR NEFT ANBARLARINA TƏ`SİR ETMƏDİ!*

Günəş ili ilə 1352-ci ildə Pakistanla Hindistanın ikinci müharibəsi dövrü idi. Pakistanın Kəraçi şəhəri yaxınlığında müxtəlif şirkətlərə aid çoxlu neft anbarları yerləşirdi. Hindistan təyyarələri bu neft mənbələrini bombardman edirdilər. Nəticədə, anbarlara elə od düşmüşdü ki, heç bir vasitə ilə söndürmək mümkün deyildi. Təxminən, bir həftə bu anbarlar və ətrafda olanlar yandı. O vaxta qədər ki, İranın yanğınsöndürən təyyarələri kimyəvi maddələr vasitəsilə bu atəşi söndürdülər.

## *NEFT MƏ`DƏNİ BONBARDIMANDAN OD TUTMAMIŞDI!*

Bir müddətdən sonra təbliğdən ötrü Kəraçi şəhərinə getdim. Bir nəfər mənə dedi ki, bütün bu neft anbarlarının arasında bir neçə neft anbarı «Hacı dusa» adlı mö`min bir şəxsindir. O, özünün anbarlarının üstünə «Həzrət Əbülfəzlin» ələmini asmışdı. Bu ələmlərin bərəkətindən onun anbarlarına atəş düşməmişdi.

Mən dedim: Eşitmək görməyə çata bilməz. Gəlin bu neft anbarlarını mənə nişan verin. Tez maşınlara minib Hind dənizinin sahilinə yetişdik. Həzrət Əbülfəzl Abbasın(əleyhissalam)kəramətindən belə bir mənzərəni müşahidə etdim.

Böyük bir meydanda neft anbarlarından ibarət meşə var idi. Sayını Allah bilirdi. Bütün anbarlar yanmışdı. Onların bə`ziləri yarı əyilmiş, bə`ziləri isə tam çökmüşdülər. Hətta, oranın torpağı da daş kimi yanmışdı. Lakin onların arasında bir neçə neft anbarı var idi. Əbülfəzl Abbasın (əleyhissalam)-ın bərəkətindən onlar atəş tutmamışdı. Həzrət Əbülfəzl Abbasın (əleyhissalam)adına olan bayraq da bu neft anbarlarının birinin üstündə dalğalanırdı. Onun üstünə bu söz yazılmışdı: «Ya Abbas!».

Təəccüblü burasıdır ki, salamat qalan bu dörd-beş neft anbarında hələ də neft ağzına kimi dolu idi. Bunların hamısı bütün bu yanğınların içində tamamilə zərərsiz qalmışdılar.

İndi özünüz təsəvvürünüzə gətirin, iki yüz ədədə yaxın neft anbarına ot düşə, orda hansı cəhənnəm əmələ gələr. Elə bir vaziyyət ki, hətta quş da onların üstündən uça bilmirdi, heç bir canlı yüz metrdən artıq o məntəqəyə yaxınlaşa bilməzdi. Lakin, onların ortasında bir neçə neft anbarı salamat qalsın. Görəsən bu mö`cüzə deyilmi? Elə bir mö`cüzə ki, Qur`ani-Kərimin «Ənbiya» surəsinin 69-cu ayəsində olan bu mö`cüzəni – **«Ey atəş! İbrahimə qarşı soyuq və sağlam ol»** – təsdiq edir.

## *HƏZRƏT ƏBÜLFƏZLİN ƏLƏMİ EVLƏRİN ÜSTÜNDƏ*

Mən Pakistanda xüsusilə «Pəncah» şəhərində Əhli-Beyt (əleyhimussalam)-ı sevənlərin evlərinin üstündə Həzrət Abbasın (əleyhissalam)-ın ələminin dalğalandığını müşahidə edirdim. Lakin, mənim ürəyim hələ də arxayın olmadığına görə özüm bu cür şeydən istifadə etmirdim. Amma bu mö`cüzəni müşahidə etdikdən sonra qəlbimin pərdəsi açıldı. Ona görə də Nəcəf-Əşrəfə qayıdanda öz evimin yuxarısından Həzrət Əbülfəzl Abbasın (əleyhissalam)-ın ələmini asdım və möhkəm e`tiqad bəslədim. O ildən bu vaxta qədər təxminən otuz beş il keçir və mən də Qum şəhərində həzrət Mə`sum (s.ə) hərəminin yanında yaşayıram. Mən bu bayraqdan bu vaxta qədər çoxlu mö`cüzələr görmüşəm.

**İmdadə yet, Əbülfəzlim amandı!**

***Hüseynimin Kərbəlası burdadı***

*Zeynəbimin ney-nəvası burdadı*
*Hər bir zülmün ibtidası burdadı*
*Əldən gedən həm vətənim həm imandı*
*İmdadə yet, Əbülfəzlim amandı!*
* * * * * * * * * *
*Gülüstanda gəşt eyləyir uşaqlar*
*Güllə səsi tutubdu çox qulaqlar*
*Bu günümüzə dərə ağlar, dağ ağlar*
*Dağlarımın başı çəndi, dumandı*
*İmdadə yet, Əbülfəzlim amandı!*
* * * * * * * * * *
*Axı atan olub, Əli şahi din*
*Qalxıb göyə fəqani din, ahi din*
*Cəbhələrdə ölən min-min şəhidin*
*Qan çuxuru dəniz deyil, ümmandı*
*İmdadə yet, Əbülfəzlim amandı!*
* * * * * * * * * *
*Əsir olub şəhidlərin balası*
*Qızarıbdır gözlərinin alası*
*Bax gör kimdir bu günlərə qalası*
*Şücaətin doğru, yoxsa yalandı*
*İmdadə yet, Əbülfəzlim amandı!*
* * * * * * * * * *
*Neçə gəlin başsız qalıb ocaqda*
*Neçə körpə başsız qalıb bucaqda*
*Kimsəsizik neyləyək biz bu çağda*
*Ümidimiz bir sənsən, bir Qur`andı*
*İmdadə yet, Əbülfəzlim amandı!*
* * * * * * * * * *
*Çoxları var hərbi paltar geyərlər*
*Dillərində vətən, vətən deyərlər*
*Amma yetim əmlakını yeyərlər*
*Bu haqsızlıq sənə yaxşı bəyandı*
*İmdadə yet, Əbülfəzlim amandı!*
* * * * * * * * * *

***Dəstəli şəb həmdəki* ruz *ağlar***
***Dərdlərini ürəyində* saxlayar**
***Ürək* odun *qələmimi dağlayar***
***Haqsızlıqlar məmləkəti dağladı***
***İmdadə* yet, *Əbülfəzlim amandı!***
***       *       *       *       *       *       *       *       *       ***
***Şəhid Məşədi* molla *Dəstəli.(İmişli)***

## BEŞİNCİ KƏRAMƏT

### *YALNIZ YADIMDA QALAN BUDUR Kİ, «YA ƏBÜLFƏZL!» DEDİM.*

***Cənab höccətül-islam vəl-müslimin yazıçı hacı seyyid Əbul Fəth Də`vəti bizim ünvana belə bir məzmunda məktub göndərir:***

Təxminən 45-46-cı illər olardı ki, iş yoldaşım Nikpəndar və Rövşənlə tanış olmuşdum. Mərhum Nikpəndar «İslam cəmiyyətinin tə`limatı» adlı ordusunun rəhbərliyini Kərəc şəhərində öz öhdəsinə almışdı. Mərhum Rövmən də bu ordunun sənətçilik bölməsinə nəzarət edirdi. Bu ordu Kərəcin böyük və tanınmış ağacı çox olan bir bağda qərar tutmuşdu.

Bu bağ yay fəslində müxtəlif dəstələrin və müxtəlif əqidəli şəxslərin ixtiyarında olurdu. Çox vaxtı «İslam cəmiyyətinin tə`limatı» adlı dəstə bu bağda istirahət edirdi. Mən də bu dəstədə olan dostlarımla birlikdə bu bağda istirahət edirdim. Bütün yayı bu bağda keçirirdik.

Günlərin birində zəlzələ olması münasibəti ilə Nikpəndar və Rövşənə belə dedim: Bütün zəlzələlər müəyyən bir vaxtda baş verir və qabaqcadan ehtimal vermək olar. Dağıdıcı zəlzələlər adətən, ya ayın əvvəlində və axırında olar, ya da ayın ortasında olar. Əgər ayın ortasında baş verərsə zəlzələ gündüz olar, yox əgər ayın əvvəlində və ya axırında dağıdıcı zəlzələ baş verərsə gecə yarılarında olar. Sonra bir xəritə çəkib dedim: Biz indi güclü bir zəlzələyə tərəf gedirik. Bu ayın əvvəlində zəlzələyə şahid olacağıq.

Bu sözlərdən bir müddət keçmişdi. Cənab Nikpəndar və Rövşən hər gün sübh tezdən saat altıda Tehrandan hərəkət edir və təxminən səhər saat yeddidə düşərgəyə çatırdılar. Bir gün sübh namazından sonra yatmışdım. Düşərgəyə yaxın olan otağımın qapısı möhkəm döyülməyə başladı. Ayıldım və

gördüm Nikpəndar özünün şad və açıq üzü ilə deyir: Hörmətli seyyid Əbul Fəth, nə qədər yatacaqsan? Bu gecə ayın əvvəli idi. Məgər eşitmədin ki, radioda e`lan olundu ki, filan yerdə (dəqiq yadımda deyil hansı məntəqə idi, amma Xorasanın ətrafı idi) zəlzələ olub?. Sən verdiyin xəritə düz çıxdı.

Çox söhbətləşdik.......

Sonra münasib bir vaxtda cənab Rövşənin yanına getdim (bəlkə də nahardan sonra idi). Düşərgədə onunla da zəlzələ barəsində söhbətlərimiz oldu. Sonra buyurdu ki, mənim də zəlzələ barəsində bir əhvalatım var, onu deyim yazın, siz ki, qələm əhlisiniz. Buyurdu:

Filan cənab ruhani (o şəxsin adı yadımadan çıxıb) keçmiş zamanlarda Məşhəddən Günabad məntəqəsində olan kiçik bir kəndə tərəf hərəkətə gəlir. Kəndin adı «Sərvdaşt» idi. İstəyirmiş ki, məhərrəmin on gününü bu kənddə rövzəxanlıq etsin. O vaxtlar maşın az olduğuna görə yolu yarı-yarı getməli olur.

Bəli, bu şəxs azuqəsini götürüb Günabad kəndi tərəfə yola düşür. Yolun yarısında maşın xarab olur Bu zaman at-arabası görür. Arabada iki-üç nəfər oturubmış. Həmin ruhani onlardan xahiş edir ki, onlarla birlikdə kəndə qədər getsin.

Yol arasında müxtəlif söhbətlər qarşıya çıxır. Bu ruhani bə`zi məsələlərdən xəbərdar olmadan birinci və ikinci xəlifə barəsində söhbətə başlayır. Onların barəsində xoşagəlməz tarixi hadisələri nəql edir. Xəbəri olmur ki, ətrafındakılar müxalif məzhəbdən imişlər. Özləri də çox təəssübkeş şəxslər imiş. Beləliklə, arabaçı öz dostlarına işarə edir ki, bu ruhanini öz kəndlərinə aparıb dediyi sözlərə görə cəzalandırsınlar.

Bu təhlükəli niyyətin ardınca onlar tələ qururlar ki, araba xarab olub, atın da istirahətə ehtiyacı var. Təklif edirlər ki, bu ruhani gecəni onlara qonağ olsun və kənddə qalsınlar. Beləliklə, ruhanini öz evlərinə aparırlar. Gecə şam yeməyi gətirirlər. Seyyid ruhani, naçar qalıb gecəni orada qalmalı olur ki, sübh tezdən yola düşsün. Gecə dostlar cəm olurlar. Qoca ruhaniyə hər tərəfdən söz atırlar. Kişi qəflətdə olub onlarla

söhbətə girişir. Gecədən bir miqdar keçir. Kişiyə deyirlər ki, sənin yataq otağın yan otaqda hazırdır. İxtiyarınız var ki, yatmaqdan ötrü öz otağınıza gedəsiniz.

Sonra üç nəfər araba sahibləri (sünnülər) ayağa dururlar və seyyidi başqa otağa keçirirlər. Seyyid otağa daxil olur. Birdən görür ki, otağda bir qəbir qazıblar. Onlar seyyidə deyirlər:

Bu gecə sənin yerin bu qəbirin içindədir. Ey kafir! Ey mürtəd! Ey şeyxlərin düşməni!!!........! Sonra ona bir neçə yumruq vurub, əl-ayağını bağlayıb qəbirin içinə atırlar.
Bəli, əhvalatın qalanını seyyidin özündən eşidək. Seyyid can buyurun. Seyyid buyurur: Elə ki, məni otağa apardılar və qəbirin müqabilində dayandılar və əl-ayağımı tutdular ki, qəbirə atsınlar, doğrusu gözlərim yaşla doldu. Öz-özümə həzrət Əbulfəzl Abbasa (əleyhissalam)-a xitab etdim və buyurdum:

Ya Əbulfəzl Abbas! Öz kəreminə və fəzilətinə sığışdırırsan ki, mən qoca kişi, yorğun halda, arvad-uşağı atıb sənin müsibətindən rövzə deməkdən ötrü gələm və o vaxt sən razı olarsan və imkan verərsən ki, bu camaat məni bu cür qarşılasın və məni diri-diri qəbrə atsınlar! Xeyr! Bu iş sizin kəramətinzdən uzaqdır! Ya Əbülfəzl Abbas! Ya Qəməri Bəni Haşim! Özün bilərsən və Allahın bilər!

Seyyid buyurur: Onlar mənim əl-ayağımı bağladılar və ağzıma bir-iki yumruq vurub məni möhkəmcəsinə qəbrin içinə atdılar. Daha sonrasın bilmirəm necə oldu?

O vaxta qədər ki, gözlərim açıldı. (İlahi) bir taxtın üstündə uzanmışdım. Əynimdə göy və ya yaşıl paltarım var idi. Başımın üstündə bir-iki tibb bacısı durmuşdu. Bu vəziyyətdən çox-çox təəccübləndim. Bilmirdim diriyəm, ya ölü?

Tibb bacılarının birindən soruşdum: Bura haradır? Niyə görə məni bura gətiriblər?

Tibb bacısı dedi: Seyyid, siz o kənddə nə iş görürdünüz? O kənddə zəlzələ olub və kəndin bütün əhalisi qırılıb. Təkcə siz mö`cüzə şəklində sağ-salamat qalmısınız! Sonra yavaş-yavaş araba sahiblərinin əhvalatını yadıma salıb onlara nəql etdim.

Onlara dedim ki, ev sahibləri məni qazdıqları qəbrə atdılar. Sonrasını bilmədim necə oldu. Təkcə yadımda qalan odur ki, dedim: Ya Əbülfəzl Abbas!

Həmin anda, həmin anda zəlzələ olmuşdu. Otağın tavanı aşağı düşmüşdü. Bütün ev əhli və bütün kənd əhalisi həlak olmuşdular. Yalnız sən sağ qalmısan ki, bu da çox təəccüblüdür. Sözsüz ki, həzrət Əbülfəzl Abbas (əleyhissalam) sənə nicat verib və bütün kənd əhalisi yerlə-yeksan olublar.

Ruhani nəql edir ki, bütün xəstəxana əhli bu işə təəccübləndilər. Əhvalatı eşidib ağlamağa başladılar.

Sonra Rövşən dedi: Fulani, de görüm bu əhvalat da ayın əvvəlində olmuşdu? Bəs bu özü bir dəlildir ki, mənim nəzərim haqqdir.

Mən özüm bu dastanı çoxdan yadımdan çaxartmışdım. Amma cənab höccətül-islam Xəlxali məndən xahiş etdi və mən də əhvalatı yadıma salıb qələmə aldım. Allah ona Özü mükafat versin!

***Seyyid Əbul Fəth Də`vəti. 1995-ci il.***

## ALTINCI KƏRAMƏT

### *«MƏN TƏKCƏ HƏZRƏT ƏBUL FƏZL ABBASIN HƏRƏMİNƏ GEDİRƏM!»*

Mərhum ayətullah hacı şeyx Hadi Hairi Şirazi, mərhum Molla Əmin Şirazinin oğlu, Kərbəla şəhərinin təqvalı və bilikli alimlərindən biri olub. 1308-ci hicri-qəməri ilində dünyaya gəlib. Bir neçə müddət Nəcəf-Əşrəfdə və Kərbəlada təhsil almışdır. Sonradan yüksək səviyyədə tədrislə məşğul olmuş, Ayətullah üzma Mirzə Mehdi Şirazi, hacı şeyx Məhəmməd Rza İsfahani və başqa alimlərlə birlikdə mərhum ayətullah üzma hacı Hüseyn Təbatəbai Quminin müşavirələrində olub. Onun övladı Hacı Məhəmməd Həsən aşağıdakı əhvalatı anasının dilindən belə nəql edir:

«Mərhum atamın mənzili əvvəlcə «Xədicətul Kubra» məktəbinin arxasındakı xiyabanda idi. Günlərin birində adı şər işlərlə məşhur ailənin uşaqlarından və alimin hörmətini saxlamayan bir dəstə qafil cavanlar yol üstündə mərhum atama qarşı cəsarət edib hörmətsizlik və ədəbsizlik edirlər. İş o yerə çatır ki, atamın mübarək «Əmmaməsi» başından yerə düşür. O, narahatçılıqla mənzilə gedib əmmaməni təzədən büküb mənzilindən xaric olur. Atama sataşanlar belə güman edirlər ki, onlardan polisə şikayətə gedir, ona görə də ikinci dəfə onun qarşısını kəsib məqsədini soruşurlar. O, buyurur: Yox! Mən təkcə həzrət Əbül Fəzl Abbasın (əleyhissalam) hərəminə gedirəm.» O, mə`rifətsizlər hadisəni yüngül güman edib yolu açırlar. Atam pak hərəmə tərəf üz tutur. Hərəmə dəydikdən sonra mənzilinə qayıdır.

Həmin gecə atama sataşan cavanlardan biri heç bir xəstəliyi olmadan qəflətən ölümə düçar olur. Səhəri gün onun dəfn-kəfəni qurtarmamış cavanların ikincisi ölür, daha sonra üçüncü cavan ölümə düçar olur, bu minvalla .......

Nəhayət, cavanların qohum-əqrəbası hadisədən xəbərdar olub birlikdə cəm olub mərhum Şeyx Hadiinin mənzilinə gəlirlər. Ağlaya-ağlaya əl-ayağına düşüb yalvarıb, razılıq və halallıq almağa başlayırlar. Soruşurlar ki, siz nə etmisiniz, istəyirsiniz bütün cavanlarımız əlimizdən getsin. Alim cavab verir ki, mən yalnız olan hadisəni Ağam həzrət Əbül Fəzl Abbasa (əleyhissalam) ərz etmişəm. Vəssəlam! Ondan başqa ağadan heç bir iş görməsini tələb etmədim. İşi onun özünə tapşırdım.

Çoxlu üzürxahlıqlardan sonra ölüm hadisələri sona yetir.

O böyük alim, ruhani 1364-cü hicri ilində öz dünyasını dəyişib və həzrət Əba Əbdillahil-Hüseyn (əleyhissalam)-ın qəbrinin yanında dəfn olunub. Mərhum Şeyx Məhəmməd Rza Təbərsi Nəcəfi onun kürəkəni olub».

## *BİLİN ƏBBASİ ƏLİ ÇUN O VƏFADAR MƏNƏM*

**Bilin Əbbasi Əli çun o vəfadar mənəm**
**Naibi şiri Xuda Heydəri Kərrari mənəm.**
***  *  *  *  *  *  *  *  *  ***
**Yox bərabər mənə aləmdə əya qövi ərəb**
**Zərbi şəstimlə bilün tab eləməz şami hələb**
**Gəlmisiz bir nəfərin üstünə yüz min nə səbəb**
**Bir Hüseyn qardaşıma yavəri ənsari mənəm.**
***  *  *  *  *  *  *  *  ***
**Çəkərəm qeyzi qəzəblə bu zaman tiqi sənan**
**Edərəm su yerinə indi bu səhraləri qan**
**Nədi leşkər nədi bu qövmi Ömər Sə`di sənan**
**Eylərəm yox hamısın ziyqəmi xun xari mənəm**
***  *  *  *  *  *  *  *  *  ***
**Yoxdu bakim yüz ola min bu qədər leşkəridən**
**Çün şücaət yetişib irsi mənə Heydəridən**
**Tökərəm qan, alaram can nə qədər sizlərdən**
**Naibi şiri Xuda Heydəri Kərrai mənəm.**
***  *  *  *  *  *  *  *  ***
**Açdı şahbazi kimi Heydər əduvva pəri bax**
**Qorxudan Şimri Ömərdən kəsilib nitqi məlal**
**Qeyz ilə həmlə edib leşkərə çun Rüstəmzal**
**La fətanın balası aləmə sərdar mənəm.**
***  *  *  *  *  *  *  *  *  ***
**Çünki dəvayə başında var idi eşqi həvəs**
**Dəmbədəm nə`rə çəkərdi salıb aləmlərə səs**
**Kəsilib qövmi Ömərdən o zaman nitqi nəfəs**
**Mürtəza oğlu, Hüseyn qardaşı salari mənəm.**
**Göndəribdür məni dəvayə o şahi mədəni**
**Qaçmeyün hazir olun cəngə əya qövmi dəli**
**Bir belə gündən ötür bəsləmişəm bu bədəni**
**Naibi mən qəbəti heydəri kərrari mənəm.**

***  *  *  *  *  *  *  *  *  ***

**Yol verin abi Fərata gedim ey qövmi dəqa!**
**Bir Xudadan utanın bircə edün şərmi həya**
**İznim olsaydı edərdim sizi bir mərrə fəna**
**Qalmışam Kərbübəla içrə giriftari mənəm.**

***  *  *  *  *  *  *  *  *  ***

**İçəmdün sən su özün, baxdün o ali nəsəbə**
**Xeymədə teşnə qalan şahi Hüseyn ərəbə**
**Qurban ollam belə bu qeyrəti həqqi ədəbə**
**İçmərəm mən bu sudan eylərəm iqrar mənəm.**

***  *  *  *  *  *  *  *  *  ***

**Su ilə məşqini doldurdu o dəm mala mal**
**Gətdi tək puyi atın bəzmilə ba əzmi xitab**
**Qoşuna vurdu qılınc eylədi çün ahi fəğan**
**Nə`rə çəkdi dedi Əbbasi ələmdari mənəm.**

***  *  *  *  *  *  *  *  *  ***

**Dögülüb kusi dəhül təbl naqara vurulub**
**Tazədən hökm olunub leşkərə səflər qurulub**
**Bir içim sudan ötür yüz minəcən canqırılıb**
**Sahibi tiqi dosər ziqəmi xunxari mənəm**

***  *  *  *  *  *  *  *  *  ***

**Yetişib abi Fərat üstə olub daxili ab**
**Dedi tez iç bu sudan teşnəsən əz bəsgi üqab**
**Alıb ətrafımızı qövmi dəqa misli səhab**
**Bir içim su aparım Əsğərə naçari mənəm.**

***  *  *  *  *  *  *  *  *  ***

**Tut əlindən bu Axundun iki dünyadə ağa!**
**Var onun göylü həqiqət bu təmənnadə ağa!**
**Şərmüsər olmasın ol mənzülü üqbadə ağa**
**Ruziya həm əli boş bəsgi günahkari mənəm.**

## YEDDİNCİ KƏRAMƏT

### *«CƏNAZƏNİ ÇƏKƏ-ÇƏKƏ MÜBARƏK HƏRƏMDƏN ÇÖLƏ GƏTİRDİLƏR»*

***Höccətül-islam vəl-müslimin Hacı şeyx Həsən Bəsiri, Xoy şəhərindən o Həzrətin səkkiz kəramətini bizlərə göndərmişdir.***

Mərhum Məhəmməd İbarhim Zərgər Xoyi nəql edir ki, Rza şah dövründə Məkkeyi-mükərrəmə getmişdim. Qayıdanda Kərbəla ziyarətinə müvəffəq oldum. Adətim üzrə sübh tezdən həzrət Əbi Əbdüllah Hüseyn (əleyhissalam)-ın ziyarətinə getdim. Sonra həzrət Əbül Fəzl Abbasın (əleyhissalam) ziyarətinə nail oldum. Pəncşənbə günü Həzrət Əbül Fəzl Abbasın (əleyhissalam)-ın hərəmindən çıxanda dükançı Hacı Abbas Təbrizi ilə rastlaşdım. O, dükanının qabağına oturacaq qoyub məni onun üstündə oturtdu. Söhbət arasında dükan işlərindən söz düşdü. Birdən səs ucaldı. Eşidilən səsdən əhali cəm olub o Həzrətin hərəminə tərəf qaçmağa başladılar. Mən ərəb dilini bilmədiyimdən xəbər tuta bilmədim ki, nə olub. Başımı dükandan çıxarıb təzə xəbər gözləyirdim. Birdən yenə səs ucaldı. Hacı Abbas dükandan çıxıb getdi. Mənə dedi: Tez gəl, Həzrət kəramət göstərib. Mən onunla birlikdə tələsik müqəddəs hərəmin səhnəsinə daxil oldum. Gördüm ki, mübarək hərəmdən çəkə-çəkə cənazə çıxardırlar. Cənazəni hamı lə`nətləyirdi. Sanki o həmin adam başqa iki nəfərlə adam öldürüblərmiş. Tutulduqdan sonra inkar ediblər. Nəhayət, iş o yerə çatıb ki, ona and verməli olublar. İndi polis onları and içməkdən ötrü hərəmə gətiribmiş. Bu bədbəxt hamıdan əvvəl and içib və ilahi qəzəbə düçar olaraq cəzasına çatıb. O biri iki nəfər isə öz cinayətlərinə iqrar ediblər.

## SƏKKİZİNCİ KƏRAMƏT

### *«HƏDƏ-QORXU GƏLİRLƏR, FAYDA VERMİR!»*

Manu məntəqəsinin Əlinəzər adlı kəndində bir nəfər əkinçi özünün əkin sahəsinin bir qismətini kəndçilərindən birinə verir ki, əkib-becərdikdən sonra məhsulunu götürsün və sonra torpağı qaytarsın. Bir müddət sonra yer ölçən dövlət işçiləri torpaqları yoxlamağa gəlirlər. Hər kəsin torpağını öz adı ilə yazmağa başlayırlar. O bədbəxt torpağı borc götürən iddia edir ki, bu torpaq əvvəldən mənim özümün idi və indi də mənimdir. Hər nə qədər ona öyüd-nəsihət edirlər və qorxudurlar ki, bu yanlış iddiadan əl çəksin. Amma faydası olmur. Nəhayət, iş and içməyə gəlib çıxır. Ona deyirlər ki, yanında durmuş 12 yaşlı uşağının başına əlini qoy de ki, əgər bu torpaq mənim özümün deyilsə, necə ki, onu indi diri görürəm, ölüsünə baxım.

O bədbəxt öz oğlunun üzünə baxıb deyir: Həzrət Əbul Fəzl Abbasa (əleyhissalam)-a and içirəm ki, bu torpaq əvvəldən mənim olub.

Ondan bu andı qəbul edirlər. O and içir, amma həmin günün axşamına kimi uşaq ölür.

## DOQQUZUNCU KƏRAMƏT

### *«MAŞININ QAPISI ÖZ-ÖZÜNƏ AÇILDI»*

***Cənab hacı Məhdi Uxrəvi, Xoy şəhərinin möhtərəm bazar tacirlərindən biridir. Əlhəmdulillah indi də həyatdadır.Nəql edir***:

Təzə yol çəkilməmişdən əvvəl günlərin birində şəhərdən Urmiyyəyə gəlirdim. Quşçu döngəsində bir dəstə öz həmyerlilərimə rast gəldim. Çox heyrətlənmiş halda idilər.

Onların arasında bir nəfər möhtərəm şəxs var idi. Məni görən kimi yaxına gəldi, əlimi tutub dedi:

Cənab Uxrəvi! Gəl həzrət Əbül Fəzl Abbasın( əleyhissalam)-ın kəramətini sənə nişan verəcəm. Buyurdu: Bizim avtobusumuz bu döngənin başından beş yüz metr məsafəsi olan dərəyə tərəf sola qədər baş-ayaq olmuşdu. Bütün sərnişinlər bir ağızdan dedilər:

Ya Əbül Fəzl Abbas! Bu zaman maşının qapısı öz-özünə açıldı və möhkəm sütun kimi yerə yapışdı. Həmin iş avtobusu saxladı və biz də salamatçılıqla yerə endik!

## ONUNCU KƏRAMƏT

### *HƏZRƏT ƏBUL-FƏZL ABBASIN ADINA QƏLƏMƏ AĞACI!*

«Harun ulya» Xoy şəhərinin kəndlərindən biridir. Bu kənddə qədimi bir ağac var. Bu köklü və qədimi ağaca Həzrət Abbas qələməsi ləqəbi verilmişdi. Yüz illər ömrü var idi. Qələmə ağacları çox da ömür etməzlər. Amma, bu ağacın o qədər inkişafı və eni var idi ki, «Cip» maşını onun arxasında duranda görünməz.

## ON BİRİNCİ KƏRAMƏT

### *«NƏHAYƏT, BÜTÜN HƏKİMLƏR ONUN ƏLACINDAN ACİZLİK İZHAR ETDİLƏR»*

***Məktubu göndərən: Cənab höccətül-islam Seyyid Mustafa yazır:***

Tehran şəhərinin sakini olan Nöbəhari nəql edir ki, günlərin birində Tehranda gəzinti ilə məşğul idim. Gördüm ki, iki nəfər

cavan bir-biri ilə mübahisə edirlər. Aralaşdırmaq niyyəti ilə onlara yaxınlaşdım. İstədim onları sakitləşdirəm. Onlardan biri namərdcəsinə əlində bıçaq üstümə həmlə etdi. Qoluma yara vurub bir miqdar kəsdi və qan çıxdı.

Dərman qoyduqdan sonra aydın oldu ki, əlimdən bir miqdar kəsilmişdir. O həddə ki, əlimin iki kiçik barmağı işdən düşmüşdü. Təxminən, altı ay müalicə etdim. Nəhayət, bütün həkimlər əlacından acizlik izhar etdilər. Məhərrəm ayı yaxınlaşmışdı. Anam ələmin başına bağlanan bir «bürünc pəncə» nəzr etdi. Nəziri alıb «Bəni Haşim cavanlarına arxalanan və həzrət Əbül Fəzl Abbasa (əleyhissalam)-a təvəssül edənlər» dəstəsi adlı yerə apardı və həzrət Əbül Fəzl Abbasın( əleyhissalam) ələminə bağladı.

Məhərrəm ayının səkkiz yaxud doqquzuncu gecəsi idi. Həzrət Əbül Fəzl Abbası (əleyhissalam) köməyə çağırdım. Bir nəfər dedi: Həsənağa, Əbül Fəzl Abbas (əleyhissalam) sənə şəfa verdi. Bir bax «bürünc pəncədən» qan damır! Əhali ələmin ətrafına cəm oldu. Dəstənin başçısı möhtərəm cənab Məhmud Əjdəri qarşıya çıxdı, əlini vurub dedi: Qandır! Onun özü də on iki  barmaq bağırsaq xəstəliyinə mübtəla idi, bu qandan azca dadmaqla şəfa tapır.

Xülasə, o gecə mənim də əlimin ağrısı kəsildi. Lakin hələ də barmağımı hərəkət etdirə bilmirdim. O vaxta qədər ki, məhərrəmin on birinci gecəsi oldu. «Şami qəriban» gecəsi. Gecə yuxuda gördüm ki, iki nəfər qadın gəlib əlimə həna qoydular. Sübh yuxudan ayılanda yuxumu yaddan çıxartmışdım. Amma, dəstəmaz alanda gördüm ki, əlim yapışqandır. Gördüm ki, həna hələ də əlimdədir. Bir neçə vaxt hənanın rəngi əlimdə qaldı. Ondan sonra əlim bir dəfəlik yaxşı oldu. O vaxtdan təxminən iki il keçir. Əlimdə heç bir ağrı-acı hiss etmirəm. Maraqlıdır ki, dediyimiz «Bürünc pəncəni» ələmin üstündə hansı tərəfə qoyurlarsa üzünü qibləyə tərəf tutur. Evin ailə üzvləri də bu işi imtahandan keçirib təsdiq edirlər.

### *O gün Ali Əbayə edib çün nəzər Əbbas*

**O gün Ali Əbayə edib çün nəzər Əbbas**
**Düşüb şövqi qitalə o miri hünər Əbbas**
*** * * * * * * * * ***
**Hüzuru şahi dinə, yetişdi çun Ələmdar**
**Edib busə əyağin dedi: Ey şəhi Əbrar!**
**Mənə izni ver axir, əya aləmə Sərdar!**
**Gətirdi məni təngə, bu gün firqeyi əşrar**
**Fəda qəddinə Əbbas, əya şahi kərəm kar!**
**Rəvadür mənə teşnə, qıla qövmi dil azar**
**Uzun qollarım aya, görürsən nə zaman kar!**
**Gərək gəlsün əlimdən, bu gün təngə bu kuffar**
**Edib nalə Səkinə, deyir su əmi zinhar!**
**Bu dəm ver mənə rüsxət, amandür məni qurtar!**
**Edə indi qitalə, gərəkdür səfər Əbbas!**
*** * * * * * * * * ***
**Hüseyn baxdı bu halə, olub gözləri giryan**
**Dedi: Nazlı bəradər, olum qəddinə qurban**
**Necə rüsxəti də`va, verim mən sənə əl an**
**Qalıb teşnə əyalım, bu gün bi kəsi heyran**
**Tökür əşqi gözündən, olur cümlə pərişan**
**Eşitdi bu kəlamı, çu ibni şahi mərdan.**
*** * * * * * * * * ***
**Gəlib qeyzi qəvavə, olub qeyrəti ğəlyan**
**Atıb açdı belindən, yerə xəncəri bir an**
**Ələmdən götürüb əl, o sərdari ləb ətşan**
**Nəcəf sari tutub üz, dedi ey məhi dövran**
**Əcəb şah qapısında, olub bəxtəvər Əbbas.**
*** * * * * * * * * ***
**Çu Əbbasi dilavər, Əlamdari İmamət**
**Tutub rahi biyaban, o şahbazi şərafət**
**Nəcəf şahinə etsin, gedib taki şikayət**
**Hüseyn gördü bu halı, gedib mə`dəni qeyrət**

**Edib Zeynəbə izhar, ki ey gülşəni İsmət!**
**Amandır bacı qoyma, gedə miri şücaət**
**Hüseyndən əl üzübdür, ələmdari vilayət**
**Səda eylədi Zeynəb, ki ey mayeyi Rəhmət**
**Hüseyn qalmağa yalquz, degil bəsdi mürüvvət**
**Edə xeyməni qarət, bu gün əhli şərafət**
**Yavaş get sənə qurban, məni didətər Əbbas!**
*** * * * * * * * * ***
**Qayıtdı ginə Əbbas, hüzuru şahi dinə**
**Dedi izni ver axir, edib ərzi Hüseynə**
**Yanır nari cəfayə, bu gün teşnə Səkinə**
**Gəlir camu əlində, susuzdur o həzinə**
**Gedim su gətirim mən, bu əhli hərəminə**
**Qərəz etdi mürəxxəs, o sərdari Mədinə**
**Minib atına tutdu, üzün ərseyi kinə**
**Düşüb lərzə görəndə, Əduvvun bədəninə**
**Gəlir şiri qəzəbnak, alıb nizə əlinə**
**Ola yüz belə leşkər, edər dərbədər Əbbas!**
*** * * * * * * * * ***
**Edib ərsədə cövlan, o gülzari vəcahət**
**Dedi qövmi cəfayə, mənəm sahibi qüdrət**
**Atamdır şahi mərdan, bil ey qövi şərarət**
**Hüseynə məni nökər, verib ol şahi izzət**
**Ağamdür mənim Əbbas, əya əhli şərafət**
**Mənəm naibi Heydər, mənəm miri şücaət**
**Mənəm sədd çəkən oğlu, mənəm babi kəramət**
**Atam fatehi Xeybər, özüm mayeyi qüdərt**
**Ələmdari Hüseynəm, mənəm kani səxavət**
**Qərəz kimdür ki, gəlsün, edib ərşinə cür`ət**
**Onu göndərə ol dəm, be suyi səqir Əbbas!**
*** * * * * * * * * ***
**Çu Əbbasi dilavər, edib ərsədə cövlan**
**Görüb qövmi sitəmgər, olub xeyli hərasan**
**Qədəm qoymadı bi kəs, qalıb cümləsi heyran**
**O dəm Maridi bi din, olub azimi meydan**

**Vurub lafi kəzafi, o bi ari bəd ərkan**
**Yolun tutdu o dəmdə, çu ibni şahi Mərdan**
**Yetim Marid əlində, gəlib xəncəri bürran**
**O şahabzi rəşadət, çəkib başına qalxan**
**Dübarə əmi oğul, cesan zey qəmü yezdan**
**Vurub tiği şərür bar, edib xakilə yeksan**
**İki parə yer üzrə, salıb şiri nər Əbbas!**
*** * * * * * * * * ***
**Sürüb suyi Fəratə, o dəm atın Ələmdar**
**Qaçıb muri mələk tək, hami qövimdi azar**
**Düşüb xofi hərasə, təmam leşkəri kuffar**
**Özün vurdu fəratə, çəkib tüqü şərürbaz**
**Görüb zərbəti tiqin, fərar etdi nə kin var**
**Yetib ta ki, Fəratə, o sərdari kərəmkar**
**Suya saldı çu atın, edib məşqini ubrar**
**Gətirdi bir içim su, o səqqayi vəfədar**
**Düşüb yadə Səkinə, olub didəsi xun bar**
**Suyu tökdü əlindən, o dəmdə yerə naçar**
**Dedi teşnə Səkinə, necə su içər Əbbas!**
*** * * * * * * * * ***
**Salıb çiyninə məşqin, o sərdari dilavər**
**Sudan çıxdı kənarə, o səqqayi hünərvər**
**Vurub atına məhmiz, alıb dəstinə xəncər**
**Xəbər aldı bu halə, o dəm Sə`di bədəxtər**
**Dedi durmun amandır, əya firqeyi kafər**
**Əyər ki, bir içim su içə ali peyənbər!**
**Bərabər ola bilməz, ola yüz belə leşkər**
**Yolun tutdu o şahi, təmamam firqeyi əbtər**
**Hücum etdi sərasər, olan qövmi sitəmgər**
**Vurub tiqini guya, gəlib heydəri Səftər**
**Töküb başları xakə, cesan bərxitar Əbbas!**
*** * * * * * * * * ***
**Dəvam etmədi leşkər, qaçıb qövmi şərarət**
**Çəkib düşməni tiqə, o vecami şücaət**
**Dəxi kimsə bərabər dura olmadı cür`ət**

**O dəm Nofili bi din, özün eylədi xəlvət**
**Vurub qafil o məl`un, Əli oğluna zərbət**
**Düşüb sağ qoli təndən, ginə etdi cəsarət**
**Alıb sol ələ tiqin, o dəm mə`dəni qeyrət**
**Gəlib hər nə ki vardır, qoşun durdu hərarət**
**Necə ərz edim Allah, yetib sol qola növbət**
**O dəm xarici millət, cesan Cə`fəri Təyyar**
**Açub balu pər Əbbas.**
*** * * * * * * * * ***
**Hüseyn söylədi Əbbas, ki ey xakilə yeksan**
**Düşən qollari təndən, olan peykəri şan-şan**
**Mənidə salacağdur, bu gün torpağa üdvan**
**Qalıb teşnə ayalım, susuz didəm giryan**
**Edib canini Əbbas, o dəm ünbətə qurban**
**Düşüb xakə yaralı, qum üstündə verib can**
**Tuta tə`ziyə hər kəs, edə ol şaha ehsan**
**İlahi Sən Özün ver, ona əcri firavan!**
**Bağışla bizi Allah, bi həqqi şahi Mərdan!**
**Düşüb xofə Məhəmməd, dəxi olma hərasan!**
**Sənə ruzi cəzadə, şəfaət edər Əbbas!**

## ON İKİNCİ KƏRAMƏT

### *«HAMINI YUXUDAN AYILTDI»*

***Cənab höccətül-islam vəl-müslümin Şeyx Ruhullah Qasimpur «Babil» şəhərindən iki kəramət yazıb göndərmişdir:***

1. 1371-ci şəmsi ilində Babil şəhərinin kəndlərindən birində Məhərrəm ayının on gününü təbliğ edirdim. Məhərrəmin yeddinci gecəsində kəndin ağsaqqallarından biri mənə belə əhvalat nəql etdi:

Mənim kürəkənim keçən ilə qədər müharibə yaralılarından biri idi. Bədəninin mühüm yerlərində qəlpə qalmışdı. Həkimə

müraciət etdikdə dedi ki, cərrahiyyə əməliyyatı aparmaq mümkün deyil, amma bədənində qalsa təhlükəlidir. Hər halda istər cərrahi əməli olsun, istərsə də olmasın, təhlükəlidir.

Məhərrəmin yeddinci gecəsi idi. Bütün ailəmizlə narahat idik. Kürəkənimin vəziyyəti çox pərişan idi. Nəhayət, həzrət Əbül Fəzl Abbası (əleyhissalam)-ı köməyə çağırdıq. Yeddinci gecənin yarısında yerindən qalxdı və hamını yuxudan oyatdı. O vaxt ağlaya-ağlaya belə dedi: Həzrət Əbül Fəzl Abbasın (əleyhissalam) bərəkətindən qəlpə özü bədənimdən düşdü.

## ON ÜÇÜNCÜ KƏRAMƏT

### *«İNDİYƏ KİMİ O HƏZRƏTİ ÇAĞIRMIRDI!»*

***1375-ci ilin qışında (günəş ili ilə) həzrət Əbül Fəzl Abbasın (əleyhissalam) anadan olduğu gün «Şəhid Qüreyş» adına məktəbin təqvalı və mö`minə müəllimlərindən biri üçün hadisə baş vermişdi. Hadisə eşitməlidir. Bu müəllimə hadisəni öz qələmi ilə yazıb bizə göndərmişdir.***

«Salam olsun şəhidlərin və pak Mə`sum İmamların (əleyhimussalam) ruhlarına! Salam olsun bizim namaz camaatı bərpa edən şəxsə (müəllifə). Ümidvaram ki, həmişə on ikinci imamımız həzrət Vəliyyi Əsrin (ə.c) sayəsində müvəffəq olasınız.

Doqquz ay olardı ki, mənim həyatımda bir çətinlik qarşıya çıxmışdı. Mən və ailəm nə qədər çalışırdıqsa da bu müşkülü həll edə bilmirdik. Çətinlik maddi çətinlik idi. Qərara alınmışdı ki, bir yerdən üç milyon pul mənim və ailəmin hesabına köçürülsün. Biz də bu pulla özümüzə ev tikək. Lakin bütün sə`ylərə baxmayaraq bu iş baş tutmurdu. Daha naümid olmuşdum. Həyat hər tərəfdən bizi sıxırdı. O qədər naümid olmuşdum ki, çox ibadət edə bilmirdim. Gündə bir dəfə oxuduğum «Vaqeə» surəsini və «Aşura» ziyarətini oxuya bilmirdim. Öz-özümə fikirləşirdim ki, daha faydası yoxdur.

Birdəfəlik bədbəxt olmuşam. Daha ömrüm boyu kirayə sahibinin danlağı altında yaşamalı olacağam.

Günlərin birində həzrət Əbül Fəzl Abbasın (əleyhissalam) mövlud günü oldu. Namazxanaya daxil olan vaxtı «İmam camaatın» səsini eşitdim. Söhbət edirdi. Söhbət həzrət Əbül Fəzl Abbasın (əleyhissalam) kəramətlərindən gedirdi. Özümdən asılı olmayaraq qəlbim tutuldu və gözlərim yaşla doldu. Uca səslə ağlamağa başladım. Öz-özümü məzəmmət etdim ki, niyə görə bu vaxta qədər o Həzrəti yada salmamışam? Niyə görə bu qədər günahkar olan halda həzrət Əbül Fəzl Abbası(əleyhissalam) şəfaətçi qərar verib, onun vasitəsi ilə Allahdan hacətimi istəməmişəm?

«İmam camaat» söhbətlərinin arasında belə buyurdu: «Qəməri bəni Haşimin həzrət Əbül Fəzl Abbasın(əleyhissalam) nurlu çörhəsi» adlı kitab var. Həzrət Əbül Fəzl Abbasın(əleyhissalam) kəramətləri o kitabda cəm olunmuşdur. Ağladığım halda öz-özümə dedim: Bu «imam camaata» söyləyəcəm ki, mən üzü qara günahkaram. Siz mənim niyyətimlə həzrət Əbül Fəzl Abbasa (əleyhissalam) nəzr edin, bəlkə mənim hacətimi versin. Əgər müşkülüm həll olsa o kitabları sizdən alacağam. İnanın ki, axşam üstü evə qayıdanda heç bir söz danışmadan narahat idim. Mənə dedilər ki, xanım nə iş görmüsən? Muştuluğumu verin! Hazırlaş sabah Tehrana yola düşəcəksən. Üç milyon pulu almaqdan ötrü hazırlıq işləri görməliyik!

Bu vaxt göz yaşlarımı saxlaya bilmədim. Bir müddət öz-özümə ağlaya-ağlaya qaldım!

## ON DÖRDÜNCÜ KƏRAMƏT

### *«İŞIĞI SİZ YANDIRDINIZMI?»*

***Bu kəraməti hacı Nəsrullah Mədədi məktub vasitəsi ilə bizim ünvana göndərmişdir.***

«Mən 1330-cu il 9-cu ay, 29 tarixdə (şəmsi ili ilə) ailə həyatı qurmuşam. 1332-ci ilə həzrət Zəhra (s.ə) ilə əhd etmişəm ki, onun eşqində halva bişirəcəm. Hər il halva bişirib ehsan etməkdən ötrü 45 kq undan istifadə edirdim. Bu iş 1348-ci ilə kimi davam etdi. Günlərin birində halva bişirməyi əmim arvadının öhdəsinə qoydum və ona inanıb öz işimin ardınca getdim. Saat 11 radələrində gecə iş yerindən evə döndüm. Əmim arvadına müraciət edib dedim: Əmi arvadı, halva yaxşıdır, ya yox? Halvanı xarab etmişdilər. Amma cavabında mənə dedilər ki, Çox yaxşı bişib. Mən qazanın altını söndürüb üstünə bir dəstmal sərdim. Sonra bir az qazanın suyundan süzüb qazanın altını təzədən yandırdım.

Çox iş görəndən sonra yorulub sobanın ətrafında istirahət etməyə başladım. Bir neçə dəqiqə sonra həyətimiz işıqlı oldu (gecə yarı). Fikirləşdim ki, əmim arvadı həyətin işıqlarını yandırdı. Bir neçə dəfə soruşdum: Əmi arvadı! İşığı sizmi yandırdınız? Cavab verdi: Xeyr! Biz hamımız otaqda yatmışıq. Bir azdan sonra yuxudan oyandım. Yuxulu olmayan halda canamızımın üstünə gəldim. Gördüm canamazım açıqdır, «Məfatihül-cinan» kitabıda onun yanında açıq idi. Əmim arvadı narahat olub ağlamağa başladı: Ax! Anam Zəhra yenə də gəlibmiş. Mən ki, halvanı yaxşı bişirmişdim.

İkinci dəfə yuxuya getdim. Səhər saat beşdə yuxudan ayıldım. Halvanı böldüm. Bölə-bölə öz-özümə dedim: Ya Fatimeyi-Zəhra! Bu gündən sonra icazə ver (halva yerinə) «Tasua» günü Əbül Fəzl Abbasının(əleyhissalam) adına düyü bişirim. O gündən sonra 1359-cu ilə qədər hər il düyü bişirdim. 1359-cu ildə əlim atəşə düşüb yandı. Mən narahatçılıqdan əlimi suya salmaq əvəzinə neft olan qaba saldım. 40 dəqiqədən sonra əlim şişdi. Məni xəstəxanaya apardılar. Xəstəxanada dedilər ki, bunun əli dərin yanıb. Mən qorxumdan demədim ki, əlimi neft olan qaba salmışam. Təxminən, 50 gün məni o xəstəxanadan bu xəstəxanaya göndərdilər. Nəhayət, bir gün məni «Çəmran» adlı xəstəxanadan «Səvaneh» yanığ xəstəxanasına e`zam etdilər.

Bu xəstəxanada da bir həftə yatdım. Bir həftədən sonra qərara aldılar ki, əlimi biləkdən kəssinlər. Sonra «Çəmran» adlı xəstəxanaya məktub yazıb məsləhətləşdilər ki, mənim əlimi kəssinlər, ya yox? Məktubu həmin xəstəxanaya özüm apardım. «Çəmran» xəstəxanası belə cavab verdi ki, siz nə məsləhət bilirsinizsə bizim üçün möhtərəmdir. Təzədən həmin xəstəxanaya qayıtdım. Buranın həkimləri mənim əlim barəsində məşvərətə başladılar. Onlardan biri dedi: Əlinin sümüyü qaralıb. İstəyirik əlini kəsək. Razısanmı? Mən dedim: Sizin nəzəriniz nədir? Həkimlər bir-birinin üzünə baxdılar. Sonra onlardan biri dedi: Siz çölə çıxın. Təzə hava alın!

Mən xəstəxananın salonuna çıxdım və üzümü göyə tutub dedim: Ya Əbül Fəzl Abbas!. Əgər mən doğrudanda sizə aşpazlıq edirəmsə, əlimi səndən istəyirəm!. Ağlaya-ağlaya əlavə etdim:

Ya Əbül Fəzl Abbas, mən kimə deyəcəyəm ki, bu qazanı ocağın üstündən götür yerə qoy? Mən əlimi səndən istəyirəm!. Sonra həmin vəziyyətdə xəstəxananın içinə qayıtdım.Həkim mənə baxıb dedi: Biz sənin əlini kəsməyəcəyik. Səni başqa bir yerə göndərəcəyik. Məni «Bazarqanan» xəstəxanasına göndərdilər. Orada həkim əlimə baxıb tibb bacısına müraciət etdi: Bir qab su və bir geyilməmiş əlcək gətir. Tibb bacısı gəldi. Həkim ona baxıb dedi: Bu şəxsin əlini təmizlə! Tibb bacısı təzə əlcəyə əl atıb mənim üfunət etmiş ətimi qopartmağa başladı. Sonra bir qədər əlimə dərman sürtüb dedi: Siz gedin. Uşaqlarınızın dəftərçəsin (həkim dəftəri) gətirin.

48 saatdan sonra dörd ədəd «həkim xidməti» dəftərçəsini həkimin xidmətinə çatdırdım. Həkim hər dəftərçəyə üç dərman yazıb tapşırdı ki, hər bir nüsxəni bir aptekdən yox, hamısını bir aptekdən al. Bu əhvalat iki ay davam etdi. Mən sağ əlimi həzrət Əbül Fəzl Abbasdan( əleyhissalam) aldım.

Bir müddət sonra Tehrandan düyü bişirməkdən ötrü bir maşın odun apardım. Maşın yolda sürüşdü və on beş dəfə fırlandı. Başım dörd yerdən yarıldı. Sol əlim maşının altında qalıb sıxıldı. Çox yaralandım............ Yol polisi məni

avtomaşının sükanı arxasından çıxarıb dedi: Ölməmisən? Dedim: Cənab rəis mən güclüyəm. Xeyr! Polis dedi: Bu ağacları nədən ötrü aparırsan? Cavab verdim: Məhərrəm ayında ehsan verib düyü bişirməkdən ötrü aparıram. Polis dedi: Əlini yaxşı kəslərin ətəyindən tutmusan. Heç vaxtı əl çəkmə!

Mən yeddi kiloqram düyü bişirməkdən başlamışdım. Hazırda 1376-cı şəmsi ilidir. Yetmiş kiloqram düyü bişirib ehsan verirəm. ümidvaram ki, həzrət Əbül Fəzl Abbasın (əleyhissalam) bu məhəbbəti müqabilində öz xırda vəzifəmin öhdəsindən gəlim.»

### *Bilün ey leşkəri üdvan mənəm Əbbasi Əli*

**Bilün ey leşkəri üdvan mənəm Əbbasi Əli**
**Xaliqə vahidi yəzdan mənəm Əbbasi Əli**
* * * * * * * * * *
**Adım Əbbasi Babam saqeyi kosərdi mənim**
**Cəddim ol nuri Xuda bil o peyənbərdü mənim**
**Qardaşım ruzi cəza şafeyi Məhşərdi mənim**
**Müddətim cəngidə bir xaliqim Əkbərdi mənim**
**Cəngidə xəncəri vurram mənəm Əbbasi Əli.**
* * * * * * * * * *
**Çəkərəm xəşmilə xəncər bu günü leşkərə mən**
**Atəşi suzi dəmi gör necə o kafərə mən**
**Teşnədir su aparam qönçə sifət Əsğərə mən**
**Yetirəm ta özümü şövqilə o kösərə mən**
**Kəsilən qoç kimi qurban mənəm Əbbasi Əli.**
* * * * * * * * * *
**Hökm elə leşkərüvə meydan arasın yerisin**
**Yol verün Şamə tərəf leşkəri nalan yerisin**
**Çəkərəm əyri qılınc su yerinə qan yerisin**
**Kəsərəm başuvüzü xakilə yeksan yerisin**
**Eyləyən kufəni viran mənəm Əbbasi Əli.**
* * * * * * * * * *

**Tu sənin tuti qədəm üstə giriban gəzərəm**
**Xuni Əkbər ötəri aləmi viran edərəm**
**Qıraram leşkərüvü vəsvüvü viran edərəm**
**İbni Sə`di dəsəni çaki giriban edərəm**
**Od vuran leşkərə əl`an mənəm Əbbasi Əli.**
***  *  *  *  *  *  *  *  *  ***
**Qoymaram yerdə qala qani Əli Əkbərimin**
**Ox boğazına batıb qönçə sifət Əsğərimin**
**Kakili qanə batüb Övn ilə həm Cə`fərimin**
**Gözləri yolda qalıb gör necə ol sərvərimin**
**Eyləyən bir qana min qan mənəm Əbbasi Əli.**
***  *  *  *  *  *  *  *  *  ***
**Xeymədə Əhli hərəm yari vəfadari mənəm**
**Açılıb bu fələkin bil ki, vəfadari mənəm**
**Yox vəfadarı Hüseynin ona ğəmxari mənəm**
**Kərbəla şahinə yavər mənəm Əbbas Əli!**
**Fəth edən Kərbübəladə mənəm Əbbasi Əli!**
***  *  *  *  *  *  *  *  *  ***
**Rəhm elə ümbətə sən həşridə ey Bari Xuda**
**Eyləyib ünbət özün Əkbərə canım fəda**
**Ağlayıb Qasimə, Əbbasə tutub daim əza**

Bu sözü zikr eyləyib Seyyidü Məzlumi bəfa
**Ümmətə rəhm eləsin Heydəri Kərrar mənəm!**
***  *  *  *  *  *  *  *  *  ***

## ON BEŞİNCİ KƏRAMƏT

***«HALBUKİ FƏRYAD ET: YA ƏBUL-FƏZL ABBAS(Ə)! ÖZÜN DADIMA YETİŞ!»***

***Cənab Qənbər Əli Səram höccətül-islam seyyid Möhsün Əhmədi Sədəhiyə belə yazır:***

«Cümə günü idi. Atamın piy düzəltmə fabrikinə bir neçə işçi aparırdım. O gün başqa günlərdən seçilirdi.

O günün başqa günlərlə fərqi bu idi ki, başqa günlərdə ikinci oğlum mənimlə birlikdə olurdu, amma o günü mənimlə yox idi. Atam da başqa günlər mənimlə olardı, lakin o gün yorğun olduğundan o da mənimlə gəlməmişdi. Həyat yoldaşıma tapşırdım ki, əgər bu gün evə gəlməsəm məni gözləməyin.

İşçiləri fabrikə yola salıb qayıtdım. Qayıdan vaxtı güzgüyə baxdım ki, gördüyüm maşınlar mənim yolu keçməyimə mane olmasınlar. Birdən hiss etdim ki, maşın ixtiyarımdan çıxıb. Hərəkət edərək maşınla birlikdə su ilə dolu olan kanala düşdüm. Düşdükdən sonra fikirləşirdim ki, nə edim?

Bir neçə dəqiqədən sonra yadıma düşdü ki, bir az da olsa üzməyi bacarıram. Sonra maşının qapısına baxdım, istədim qapını açıb maşından düşəm. Qapıya güc vurdum, amma açılmadı. Əlim və başımla qapını döyməyə başladım. Lakin, suyun tə`siri imkan vermirdi ki, qapı açılsın!.

Qış ayı idi. havalar soyumuşdu. Ona görə də maşına minəndə şüşələri yuxarı qaldırmışdım. Nə qədər çalışdımsa, maşının şüşələri aşağı getmədi. Su da yavaş-yavaş maşının qapısı arasından içəri dolurdu. Maşınım kiçik həcmli (jiquli markalı) yük maşını idi. Maşının içi su ilə dolmuşdu. Maşın suyun içində təmiz itmişdi. Daha yavaş-yavaş ümidim hər yerdən üzülmüşdü. Ölümü öz gözlərimlə görməyə başladım. Oturacağın arxasından qalxıb oturdum. Kəlmeyi-şəhadətimi və «İnna lillahi və inna iləyhi raciun» ayəsini dedim. Suda olan insanın cəsədi suyun tə`sirindən şişir. Belə olan halda insanı maşının arxasından çıxartmaq çətin olur. Başqa tərəfdən bu fikirdə idim ki, həyat yoldaşıma demişdim «yolumu gözləmə» (o vaxtı həyat yoldaşım hamilə idi). O nə vaxta kimi mənim ardımca gəzəcək? Digər tərəfdən xoşhal idim ki, atam və

oğlum mənimlə birlikdə maşında olmayıblar. Yoxsa onlar da mənim kimi giriftar olardılar. Bu fikirdə ikən ölümü gözləyirdim. Birdən hansısa bir qüvvə məni yerimdən qaldırdı. Bu halda var gücümlə «Ya Əbul-Fəzl Abbas!» deyib fəryad çəkərək qapıya əl atdım. Əlim qapıya dəyən kimi dəstəyə güc verməmiş qapı öz-özünə açıldı. Maşından çıxıb kanalın kənarına qədər üzdüm. Həyacandan yuxarı qalxa bilməyib suyun kənarında durdum. Ona görə də kanalın qırağı ilə çəkilmiş su borusundan yapışıb yuxarı qalxdım.

İndi diqqət edin, o qədər suyun içində mənim öz qüdrətim çata bilərdimi ki, özüm qapını açım? Əgər belədirsə bəs niyə görə əvvəlcə nə qədər əlləşdimsə faydası olmadı, qapı açılmadı. Amma, özünə and olsun, elə ki, həzrət Əbul-Fəzl Abbasın (əleyhissalam) adını çəkdim nicat qapısı öz-özünə üzümə açıldı. Aydındır ki, həzrət Əbul-Fəzl Abbas (əleyhissalam) Allaha yaxşı bəndəlik etdiyinə görə Allah ona «Hacətləri qəbul edən» ləqəbini bağışlamışdır.»

## ON ALTINCI KƏRAMƏT

### *«QƏMƏRİ BƏNİ HAŞİMƏ BEL BAĞLAMAQLA QIZIM ŞƏFA TAPDI.»*

***Cənab Şeyx Əhməd Mütəvəssili Arani cənab Məhəmməd Qaiminin başına gələn iki əhvalatı bizə yazıb:***

1. O, söyləyir: Kərbəlada mənzilimiz elə yerdə idi ki, hər gün həzrət Əbul-Fəzl Abbasın (əleyhissalam) hərəminin müqabilindən keçirdim. Adətimiz həmişə hərəmin müqabilində dayanıb o Həzrətə salam vermək idi. Günlərin birində ailəmlə birlikdə gecə vaxtı evə qayıdırdım. O həzrətə salam verdim. Seyyidə xanım, həyat yoldaşıma dedim sən də

salam ver. Hətta, kiçik qızıma da dedim ki, salam ver. Uşaq da salam verdi. Biz evə gəldik.

Sühb tezdən adətim üzrə mağazama yola düşdüm. Çox çəkmədi ki, həyat yoldaşım ağlaya-ağlaya mağazaya gəldi və dedi: Qızımız Maidə kor olub. Fəryada yetiş! Tələsik və narahatçılıqla evə gəldim. Gördüm kiçik qızım şkafın güzgüsünü üstünə aşırmış və üz-gözü al-qanın içindədir. Şüşənin qırıntıları uşağın gözlərinə dolmuşdu. Uşağın əlindən tutub hərəmin müqabilinə gətirib dedim: Ey mənim ağam! Salamın cavabı budurmu? (Çaşdığımdan bilmədim nə deyim?) Budur kəramətin?

Pullu oduğuma görə mütəxəssis həkimlərdən birinə müraciət etdim. Dedim, fulankəs!

Hər nə qədər pul istəyirsən verəcəm, qızımı sağalt! O, qızı diqqətlə müayinədən keçirdi. Sonra dedi: «Hər iki gözü sağlamdır. Ümumiyyətlə gözlərində heç bir şüşə qırıntısı müşahidə edilmir.» Təəccübləndim və dedim: Necə? Yə`ni o gözlər. Buyurdu: Bəli!

Xülasə, nə dərman yazdı, nə də bir nüsxə. Evə tərəf qayıtdım. Yolda pak hərəmin müqabilindən keçəndə dayandım.Ağlaya-ağlaya dedim: Mənim ağam! Bağışla! Cəsarət etmişəm! Hirsli olmuşam!

Bəli, həzrət Əbul-Fəzl Abbasın (əleyhissalam) kəramətində qızım korluqdan şəfa tapdı.

## ON YEDDİNCİ KƏRAMƏT

### *HƏZRƏT ƏBUL-FƏZL ABBASI ŞƏFİ QƏRAR VERDİM!*

***Cənab Qaimi belə nəql edir:***

2. Mənim oğlum olmurdu. Bu cəhətdən çox narahat idim. Kərbəlada dükanımın kənarında seyyid Əhməd adlı şəxsin dükanı vardı. İndi onun həyatda olması barədə heç bir

mə`lumatım yoxdur. Əgər haqq dünyasındadırsa, Allah ona rəhmət eləsin. Bir-birimizlə dost idik. Seyyid Əhmədin şiddətli bel ağrısı var idi. Həkimlər rədd cavabı vermişdilər. Bir gün ona dedim:

Seyyid! yaxşı olar ki, gedək Kufəyə həzrət Müslim ibni Əqili ziyarət edək. Mən səndən ötrü dua edim şəfaət olasan. Sən də məndən ötrü dua et, Allah mənə oğul payı versin. Onun adını Meysəm qoyaram. İmam Hüseyn (əleyhissalam) və həzrət Əbul-Fəzl Abbası (əleyhissalam) şəfi qərar verək, o bunu qəbul edər.

Kufəyə getmək günü gəlib çatdı. Ailə-uşağı Kufəyə nə məqsədlə getməyimdən hali etdim. Nəcəfə çatanda Seyyid Əhməd dedi: Ağa Əmirəl-mö`mininin (əleyhissalam) hərəminə gedək. Dedim: Bizim işimiz həzrət Müslim ibi Əqil ilədir. Əvvəlcə ora gedək, qayıdanda ağanın hərəminə dönərik. Həzrət Müslim ibni Əqilin hərəminə daxil olduq. Ziyarətdən sonra xüsusi halda ona ərz etdim: Ağacan! Seyyid Əhməd siz seyyidlərin nəslindəndir. Razı olmayın ki, xəstə olsun. Seyyid Əhməd də öz növbəsində dua ilə məşğul idi. Kərbəlaya qayıtdıqdan bir həftə sonra xanımım seyyid qızı bir yuxu gördü. O, yuxunu belə nəql edirdi: Yuxu aləmində Həzrət Əbul-Fəzl Abbasın (əleyhissalam) pak hərəminə daxil oldum. Gördüm sağ və soldan qiblə tərəfə kimi hərəmin səhnəsində kişilər səf çəkib. Hamı ədəblə durublar. İki səfin arasından keçid yeri var. Mən cərgənin birinin qarşısında dayandım. Birdən hərəmdən bir nəfər çölə çıxıb dedi: Ağa Əbul-Fəzl Abbas(əleyhissalam) gəlir. Bütün diqqətimi qapıya yönəltdim. Bir də gördüm ki, Həzrət çölə çıxdı. Mübarək əlində kiçik kağız vardı. Mənə tərəf baxdı. Tünd səslə buyurdu: İstədiyin oğlanı götür və kişilərin qarşısından kənara çəkil. Qabağa gəldim. Kağızı alıb yuxudan oyandım.»

Bir müddət sonra Allah mənə oğul payı verdi və adını Meysəm qoydum.

## ON SƏKKİZİNCİ KƏRAMƏT

### *«HƏZRƏT ƏBUL-FƏZL ABBASA(Ə) ÜZ TUTMAQLA CƏRRAHİYYƏ ƏMƏLİNƏ EHTİYAC OLMADI»*

***Höccətül-islam vəl-müslimin cənab seyyid Fəxrəddin Əmadi həzrət Əbul-Fəzl Abbasdan gödüyü kəraməti belə yazır:***

«Mən seyyid Fəxrəddin Əmadiyəm. Mənim seyyid Mürtəza Rəzəvi adlı qardaşım uzun müddət Qum şəhərinin «Nikuyi» adlı xəstəxanasında işləmişdir. Bir çox tələbələr onu yaxşı tanıyırlar.

Günlərin birində müəyyən məbləğ pulu köçürtməkdən ötrü bangə girir. Pul kisəsini bankın stolunun üstünə qoyub sağ əli ilə stola söykənir. Birdən əli çıxıb sürüşür Çox narahat olur. Ağrının şiddətindən dad-fəryad etməyə başlayır. Onu xəstəxanaya gətirirlər. İlk müayindən sonra heç bir nəticəyə gələ bilmirlər. Xəstəxananın rəisi həkim Qəraqızlı göstəriş verir ki, əlinin şəklini çəksinlər. Şəkili çəkdikdən sonra göstəriş verir ki, onu cərrahiyyə otağına aparıb əməliyyata hazırlaşsınlar.

Seyyid Mürtəza taxtın üstündə cərrahiyyə əməlinə ötrü taxtın üstündə uzanır. Bu halda həzrət Əbul-Fəzl Abbas (əleyhissalam) «Babül həvaic» niyyəti ilə yalvarır. Bu hal ilə gözünün önündə durmuş çırağa baxa-baxa o Həzrətə and verdirir. Əlini çırağın otuna yaxınlaşdırıb istiyə verir. Birdən əlindən səs gəlir. O, əlini çırağın istisindən kənarlaşdırır. Bir az diqqətdən sonra anlayır ki, həzrət Abbasın(əleyhissalam) şəfaətinə görə əli yaxşı olub. Daha cərrahiyyə əməlinə ehtiyac yoxdur. Bir az sonra doktor içəri girib vəziyyəti soruşur. Seyyid Mürtəza Əbul-Fəzl Abbasa(əleyhissalam) etdiyi duanı ona nəql edir. Həkim onun əlinə baxıb deyir: Əgər Həzrət

Əbul-Fəzl Abbasın(əleyhissalam) sənə kəraməti olmasaydı əlində cərrahiyyə əməli olmalı idi.

## ON DOQQUZUNCU KƏRAMƏT

### *«GƏNC OĞLANI ELEKTRİK VURUB QURUTMUŞDU»*

***Cənab höccətül-islam şeyx Məhəmməd Təqi Nəhvi atası hacı şeyx Əbul Qasim Nəhvidən aşağıdakı əhvalatı bizə yazıb göndərib.***

Mərhum Nəhvi, o vaxtı həzrət Ayətullah üzma Burucerdinin əmri ilə onun oğlu ilə Nəcəfdə idilər. Həzrət Seyyidüşşühəda Əba Əbdillah Hüseyn (əleyhissalam)-ın xüsusi ziyarəti günü idi. O gün Şə`ban ayının 15 ilə bərabər idi. Kərbəlaya gedirlər. Həzrət Əbul-Fəzl Abbasın(əleyhissalam) qəbrini ziyarət edirlər. Günlərin birində bu hərəmi ziyarət edərkən görürlər ki, 13-14 yaşlı bir cavanı elektrik vurub öldürmüşdür.

Uşağın atası Həzrət Əbul-Fəzl Abbasa(əleyhissalam) yalvarıb dua oxuyurdu və belə deyirdi: Ağacan! Sən bilirsən ki, mən sənin qəbrinə ziyarətə gələndə uşağın anası onu özümlə gətirməyə qoymurdu. İndi mən onsuz anasının yanına necə qayıdım, anasına nə deyim?

Mərhum Nəhvi buyurur: Birdən gördüm ölü uşaq yavaş-yavaş tərpənir. Həzrət Əbul-Fəzl Abbasın(əleyhissalam) duasını Allah qəbul etmişdi. Bəli, cavan ayılıb atası ilə birlikdə evə yola düşdülər.

## İYİRMİNCİ KƏRAMƏT

### *«BƏLİ, BİZDƏN BAŞQA DA BAŞQA HƏKİMLƏR VAR!»*

***Höccətül-islam hacı şeyx Məhəmməd Müiyn Ğurab yazır:***

«Təxminən qırx il bundan əvvəl subay vaxtımda cümə gecələrindən birində piyada Nəcəfdən Kərbəlaya getdim. «Kumeyl» duasını Həzrət Əbul-Fəzl Abbasın(əleyhissalam) hərəmində oxudum. Duanın ortasında məni yuxu tutdu. Bir neçə dəqiqədən sonra səs-küyə və şivən səsinə yuxudan ayıldım. Gördüm dəli bir ərəb qızını Həzrət Əbul-Fəzl Abbasın(əleyhissalam) pak zirehinə bağlayıblar. O da dəli olduğundan camaata cəsarət edirdi. Ata-anası və qouhm-əqrabası onun ətrafını tutmuşdular. Bu divanə qızın şəfa tapmasından ötrü qəməri bəni Haşim Həzrət Əbul-Fəzl Abbasa (əleyhissalam) dua edirdilər.

Həmən yerdə bir nəfər iranlı özünü pisixatriya həkimi kimi tanıtdırdı. Buyurdu: Deyin o qızı hərəmin eyvanına gətirsinlər, mən orda olacağam. Bu xəstəni müalicə edəcəyəm.»

Mən iranlı həkimin dediyini qızın atasına dedim: Qızın atası ərəbcə belə dedi: «Lə`nət o ataya ki, Həzrət Əbul-Fəzl Abbasa (əleyhissalam) e`tiqadı olmasın.» Doğrusu bu sözdən çox xəcalət çəkdim. Gedib yerimdə oturdum və oxuduğum duanın davamına başladım. Yenidən dua oxuyan halda yuxuya getdim. Yenə təzədən səs-küyə yuxudan ayıldım. Divanə qızın ətrafını tutmuşdular. Həzrət Əbul-Fəzl Abbas(əleyhissalam) kəramətini göstərmişdir. Ona şəfa vermişdi. Əhali tökülüb qızın paltarına əl sürtürdülər. O, özünü qorumaqdan ötrü atasının libasına bürünmüşdü.

O halda iranlı həkimin iki əli ilə başına vurub ağladığını gördüm. Bizdən başqa da həkimlər varmış!-dəyə peşiman olmuşdu.

## *KƏRBƏLA MEYDANINDA HƏZRƏT ƏBUL FƏZL ABBASLA (Ə) MARİDİN DEYİŞMƏSİ*

**<u>Marid:</u>**
**Ey sifdi şəhi kövsər, Peyqunbərə can Əbbas!**
**Bu dəhrdə yox müslüm Soltani cahan Əbbas!**
**<u>Abbas (ə):</u>**
**Ey nökəsi bədtiynəb, Mərdudi dəqa Marid!**
**Səndən çəkər aləmlər, bu çöldə cəfa Marid!**
**<u>Marid:</u>**

**Sən bağı imamətdə, bir nəxş sənubərsən**
**Dünyadə nəzrin yox, bir şiri hünərvərsən**
**Aləmlərə yavərsən, Soltani cahan Əbbas!**
**<u>Abbas (ə):</u>**
**Gülzari şəhidini, bu dəşdidə soldurduz**
**Nari sitəmi zülmi, aləmlərə doldurduz**
**Gül üzlü cavanları bu ərsədə öldürdüz**
**Aləmdə görünmüb heç bu zülmü xəta Marid!**
**<u>Marid:</u>**
**Sən bir şahi valasən, dürdanəvü Zəhrasən**
**Çün dürrü səadətdə, bir gövhəri yektasən**
**Ey qaməti rə`naya bir sərvi rəvan Əbbas!**
**<u>Abbas (ə):</u>**
**Gəldüz bu çölə salduz, od səfheyi dövranə**
**Oldu bu zaman sizdən, çün dinevü viranə**
**Lə`nət gələ ey zalim, siz kimi müsəlmanə**
**Etsün üzüvü xaliq, hər yerdə qara Marid!**
**<u>Marid:</u>**
**Gəl sən mənə ol təslim, eylüm sənə çox hörmət**
**Gey əynüvə xoş xəl`ət tap səltənəti izzət**
**Bu sözdə xilafim yox, Vallahi inan Əbbas.**
**<u>Abbas (ə):</u>**
**Çox lafa gəzaf etmə, ey Maridi bəd fitrət**
**Varsa hünərin göstər, qoyma mənə heç minnət**

**İndi səni öldürrəm, var əldə bu gün fürsət**
**Başuvə gətirrəm çox, bu çöldə xəta Marid.**
***  *  *  *  *  *  *  *  *  *  ***
**Gördüm ki gəlib qeyzə, Əbbasi hünər pərvər**
**İş keçdi nəsihətdən, aldı ələ o xəncər**
**Səsləndi xəbərdar ol, ey sindi şəhi kövsər**
**İndi sənə qan ağlar, haluva yanan Əbbas!**
***  *  *  *  *  *  *  *  *  *  ***
**Əbbasi hünərvər bir xeymələrinə baxdi**
**Dərya kimi göz yaşı heyran tökülüb axdı**
**Ol dəmdə təmaşayə qardaşı Hüseyn çıxdı**
**Səsləndi yetir qətlə, sağ qoyma qala Marid!**
***  *  *  *  *  *  *  *  *  *  ***
**<u>Marid:</u>**
**Gəl boynuma qoy minnət, bu mərgi əcəldən gəl**
**Bir ver mənə sən möhlət, olma sənə aləmdə**
**Nökər edərəm hörmət, tə`rifüyü mən verərəm**
**Hər yanə nişan Əbbas!**
***  *  *  *  *  *  *  *  *  *  ***
**Əbbasi hünər pərvər xəm oldu rikabindən**
**Əl atdı düşüb ol dəm, çun nuki sinayildən**
**Öz nizəsini aldı, ol mürtədi xaindən**
**Olmazsan əlimdən sən, heç vaxti rəha Marid!**
***  *  *  *  *  *  *  *  *  *  ***
**Öz qövminə üz tutdu, fəryadi aman qoymun**
**Qıldı bu Əli oğlu, halımı yaman qoymun**
**Qalmadı bilün məndə, bu ərsədə can qoymun**
**Səd heyfi əcəb etdi, qəddimi kaman Əbbas!**
***  *  *  *  *  *  *  *  *  ***

## İYİRMİ BİRİNCİ KƏRAMƏT

### *«HƏZRƏT ƏBUL-FƏZL ABBAS(Ə) BUYURDU: DE Kİ, YA SAHİBƏZZAMAN!»*

***Cənab höccətül islam Məkarimi yazır:***

Nəql edirlərki, Şiraz vilayətinin məntəqələrindən birində bir nəfər əmisi ilə birlikdə dərya kənarına balıq tutmağa gedirlər.Təsadüfən bu oğlan suda çimərkən qərq olur.Əmisi qardaşı oğlunun suda boğulub batmasından çox nigaran olur.Birdən onun suyun üzünə çıxmasını görür.Oğlan sahilə tərəf gəlir.Əmisi ondan soruşur:

Necə oldu ki, nicat tapdın?

Oğlan cavabında buyurur:

Qərq olan halda mərsiyələr, (imam Hüseyn (əleyhissalam)-ın müsübəti) yadıma düşdü. Ondan sonra "Ya Əbul Fəzl!-deyə çağırdım.Bir an mənə elə gəldi ki, Həzrət Əbul-Fəzl Abbas(əleyhissalam) yanımdadır.Səs gəldi ki, :Ya Sahibəzzaman! –deyə səslə.

Mən ixtiyarsız olaraq : Ya Sahibəzzaman! –deyə fəryad etdim! Elə bu vaxt kimsə məni sahilə tərəf gətirdi.

## *İYİRMİ İKİNCİ KƏRAMƏT*

### *QƏBİRDƏ DEDİ: ƏSSƏLAMU ƏLƏYKƏ YA ƏBUL-FƏZL ABBAS(Ə)!»*

***Cənab höccətul-islam vəl-müslimin hacı şeyx Əbdüllah Mübəlliği Abadi:***

1355-ci şəmsi ili idi. Yəzd şəhərinin ruhanilərindən Şeyx Zakiri adlı birisi Bəndər-Abbasa gəlir. Oradan da «Siyahu» adlı bu şəhərin kəndinə e`zam olunur. Məhərrəm ayının 9-da qəlbi xəstəliklə əlaqədar dünyadan köçür. O mərhumun

cənazəsini Bəndər-Abbasa göndərirlər. İmamzadələrin birinin qəbirinin yanında torpağa tapşırırlar.

İndi əhvalatın ardını höccətül-islam vəl-müslimin Mübəlliğinin öz dilindən eşidin. O buyurur:

Mən təlqin oxuyarkən mərhum Zakirinin sağ əlini tərpətdim. Birdən gözlərini açdı. Uca səslə çağırdı: «Əssəlamu əleykə ya Əbul-Fəzl Abbas!» Sonra gözlərini yumdu.

Bu təəccüblü hadisədən sonra xoş ətir iyi mənim və orada iştirak edənlərin burnuna gəldi. Ondan sonra oradakılar Peyğəmbərə (səlləllahu əleyhi və alihi və səlləm)) və Mə`sum İmamlara (əleyhimussalam) salavat göndərdilər. Bu idi ki, mən meyyitə təlqin oxuyarkən özüm müşahidə etmişəm.

## İYİRMİ ÜÇÜNCÜ KƏRAMƏT

### *«GET EVİNƏ UŞAĞIN SAĞALDI»*

***Ayətullah hacı şeyx Məhmud Ğərəvi nəql edir:***

Bir gün uşağı xəstələnmiş ərəb, həzrət Əbul-Fəzl Abbasın(əleyhissalam) hərəminə gəlib şəfa istəyir. Aləmi rö`yada ona deyirlər: Get evinə uşağın sağalıb». Elə ki, evə gəlir görür ki, həzrət Əbul-Fəzl Abbas (əleyhissalam) uşağa öz kəramətini göstərib.

## İYİRMİ DÖRDÜNCÜ KƏRAMƏT

### *YÜZ DİNAR HƏZRƏT ƏBUL-FƏZL ABBASIN(Ə) HƏVALƏSİDİR»*

***Siqətül-islam hacı şeyx Əli Rza Gülməhəmmədi Əbhəri Zəncani yazır: (Qum)***

.«Kərbəla əhalisindən bir nəfər ərəbi gördüm ki, həzrət Əbul-Fəzl Abbasın(əleyhissalam) zirehinin yanında dayanıb o həzrətlə razi-niyaz edirdi. Söyləyir:

Ağacan! Yüz dinar sizdən pul istəyirəm, əgər verirsənsə ver, vermirsənsə həzrət seyyidüşşühəda Hüseyn (ə)-ın hərəminə gedib sizdən o həzrətə şikayət edəcəm! Sonra başını pak zirehə tərəf əyib dedi: Başa düşdüm! Başa düşdüm! Hərəmdən çölə çıxdı. Bazara gedib mağazalardan birinə yaxınlaşır və buyurur: Ağa buyurdu ki, yüz dinar mənə verəsiniz! Mağazaçı cavabında – Ağadan nişanəniz nədir? – deyə soruşur. Ərəb cavab verir: Nişanə budur ki, uşağınız xəstələnmişdi, həzrət Əbul-Fəzl Abbasa (əleyhissalam) nəzr etmişdin onu ver! Mağazaçı ona yüz dinarı verir.

Ravi deyir: Ərəbə dedim: Necə oldu ki, Həzrətlə söhbət etdiniz və istədiyinizi aldınız? Dedi: Dedim ki, əgər pul verməsəniz imam Hüseyn (ə)-a şikayətə gedəcəm. Belə olan halda gördüm Həzrət oturmuş halda zirehin içində zahir oldu və mənə kağız (həvalə) verdi. Mən də onu alıb mağazadan pulu aldım.

### *Dillərin əzbəri Səqqayi Əbəlfəzlin adı*

**Dillərin əzbəri Səqqayi Əbəlfəzlin adı**
**Eşqi çox gəbri nəsarani müsəlman eyləyib**
**Teşnə aşiqlərə dəryadı Əbəlfəzlin adı**
**Şiələr qalsın hələ səslər onu ərmənilər**
**Moridi hörməti tərsandı Əbəlfəzlin adı**
**Çün özün nökər hesab etdi Hüseyn qardaşına**
**Odu hər aşiqə mövladı Əbəlfəzlin adı**

*** * * * * * * * * * ***

**Möhnəti dadə düşəndə gözüm əşqilə dolar**
**Gör nə əndazə dilə məqsadi Əbəlfəzlin adı**
**Mətləyi müstəri mərhum qoy e`lan eləyim**
**Düşdün ey vaxtı ki, bir dərdə Əbəlfəzli çağır.**

*** * * * * * * * * * ***

**Sidq ilə kim tuta damanını dərdin alacaq**
**Şərti var zaru dil əfsurdə Əbəlfəzli çağır**
**Şiyənin onnan əlavə görək aya kimi var?**
**Can verən vaxtidə bəstərdə Əbəlfəzli çağır.**
***  *  *  *  *  *  *  *  *  *  ***
**Qapısın vır ağadı heç kəsi naümid eləməz**
**Çün şəfa yox dəri digərdə Əbəlfəzli çağır**
**Sənə düxtarilər gər eyləsə aləmdə cavab**
**Əzmüvü cəzb elə bil pərdə Əbəlfəzli çağır.**
***  *  *  *  *  *  *  *  *  *  ***
**Əli boş indiyəcən kim qapısından qayıdıb**
**Xatirin olmasın az orda Əbəlfəzli çağır**
**Əymə baş zalimə bihudə kiçiltmə özüvü**
**Kərbəla xidmətini həzrət Zəhra bəyənib**
**Olub aləmdə nəzər kərdə Əbəlfəzli çağır.**
**O kiçildib özün amma, onu Allah bəyənib**

Baxma sən bağladılar Kərbübəlanın yolunu
**Ona fərq eyləməz hər yerdə Əbəlfəzli çağır.**
**Yol uzaq olsa da qəlbün yaxın olsun ağama**
**Tap iradət o cavan mərdə Əbəlfəzli çağır!**
***  *  *  *  *  *  *  *  *  *  ***
**Nə rəvadi elə mövlani kəməndə salalar**
**Gör nələr gəldi o sərdari dilavər başına**
**Cəm olub halə kimi qövmi sitəmkar başına**
**Dörd tərəfdən ətrafın alıb daşladılar**
**Nə deyim gəldi nələr zadu Heydər başına!**

## İYİRMİ BEŞİNCİ KƏRAMƏT

### *«OTAQ ƏTİRLİ İDİ VƏ HƏYAT YOLDAŞI AĞLAYIRDI»*

***Cənab Vəhid Lütfi yazır:***

1.Anamın atası (babam) cavan vaxtlarında elm almaqdan və böyük alimlərin dərslərində iştirak etməkdən ötrü Nəcəfi-Əşrəfə yola düşür. Yol üstündə Kərbəlaya gedir və mehmanxanalardan birində qalır. Nənəm dayım və xalam uşaqları ilə birlikdə Kərbəlada qalan müddətdə o vaxt geniş yayılmış xəstəliyə tutulurlar. Gün-gündən halları pisləşir. Nəhayət, nənəm həzrət Əbul-Fəzl Abbasa(əleyhissalam) nəzr edir. Əgər özümün və uşaqlarımın halı yaxşılaşsa qızıldan olan bilərziyini həzrətin zirehinə ataram!

Həmin nəzirdən sonra mehmanxanada yuxu görür. Yuxuda otağın qapısı açılır. Həzrət Əbul-Fəzl Abbas (əleyhissalam) otağa daxil olur. Əlləri biləkdən kəsilmiş halda olur. Nənəm yuxu aləmində ağlayıb həzrətdən soruşur ki, niyə görə əllərin bədənində yoxdur? Həzrət özünü tanıtdırıb buyurur: «Mən Əbul-Fəzl Abbasam». Nənəm özünün və uşaqlarının şəfaət tapmasını həzrətdən istəyir. Həzrət iki mübarək biləklərini nənəmin üzünə sürtür və buyurur: «Bizə etdiyin qolbağı nəzirini hərəmin xuddamına vermə. Onu zirehin içinə at!» Sonra nənəm yuxuda ağlamağa başlayır. O anda babam otağa daxil olur, görür ki, otaqdan xoş ətirli iy gəlir.Həyat yoldaşını isə ağlayan halda görür. Nənəmi yuxudan oyadıb ağlamağının səbəbini soruşur. O, əhvalatı olduğu kimi danışır. Tezliklə anlayırlar ki, nənəmin və uşaqların vəziyyəti yaxşılaşıb. Xəstəlikdən bədənlərində əsər-əlamət yoxdur. Başa düşürlər ki, Allah həzrət Əbul-Fəzl Abbasın(əleyhissalam) şəfaətini qəbul etmişdir. Nənəm nəzirini əda edir. Əvvəlcə nə qədər çalışırsa zirehdən qolbağını içəri ata bilmir. Sonradan fikirləşir

ki, görəsən qolbağını içəri atsın, yoxsa xuddama versin. Zirehin içərisindən səs eşidir ki, «İçəri at!». Bu dəfə qolbağını zirehin içinə ata bilir.

## İYİRMİ ALTINCI KƏRAMƏT

### *«BÜTÜN QƏLƏM VƏ TİKAN QIRIQLARI ÖZ-ÖZÜNƏ AYAĞINDAN ÇIXDI!»*

***2. Nənəm yenə nəql edir:***

Kərbəlada olan zaman günlərin birində həzrət Əbul-Fəzl Abbasın(əleyhissalam) ziyarətinə yola düşdüm. «İçəri girmək» duasını və «ziyarətnaməni» oxuduqdan sonra hərəmə daxil oldum. Gördüm əl-ayağı yaralı bir nəfər kəndçi pərişan və narahat halda ağlamaqla məşğuldur. Mə`lum idi ki, iti iynə qələmlər və tikanlar əl-ayağına dolub şişirtmişdi. Kəndçi kişi ayaqlarını həzrət Əbul-Fəzl Abbasın(əleyhissalam) zirehinə tərəf tutub belə ahu-zar etdi:

Ay ağa! Gərək bütün bu qələmləri və tikanları mənim ayağımdan çıxartmağa kömək edəsiniz. Mən artıq hərəkət edə bilmirəm. Heç bir iş görə bilmirəm. Mənim övladlarım var. Onlar gözləyirlər ki, mən onlardan ötrü yemək aparım».

Ağlaya-ağlaya belə razi-niyazla məşqul idi. Biz də yaxından hadisəni müşahidə edirdik. Çox keçəmdən gördük ki, kəndçi kişinin vəziyyəti yaxşılaşdı. Əl-ayaqlarında heç bir qələm və tikan yox idi. Ayaqları adi hala düşüb şişi çəkilmişdi. Kişi həzrət Əbul-Fəzl Abbasın(əleyhissalam) şəfaətin qəbul etməsindən ötrü Allaha şükürlər edib evinə yola düşdü.

Bu bir hekayət idi ki, nənəm bunları öz gözləri ilə görüb nəql edir.

## İYİRMİ YEDDİNCİ KƏRAMƏT

### *ALLAHA ŞÜKÜR! AĞANIN VASİTƏSİLƏ HACƏTİMİ ALDIM!*

3. Bu əhvalatın da ravisi anamdır. Hadisəni öz gözləri ilə yaxından müşahidə etmişdir

Yenə də Kərbəlada olan vaxtımda günlərin birində həzrət Əbul-Fəzl Abbası(əleyhissalam) ziyarət etməkdən ötrü evdən çıxıb pak hərəmə tərəf getdim. Hərəmə daxil olmamışdan əvvəl gödüm ki, içəridə səs-küy, qışqırıq qopub. Qabağa getdim ki, hadisədən xəbərdar olum. Mə`lum oldu ki, qadınlardan birinin qızıl qolbağısı ziyarət vaxtı zirehdən tutarkən öz-özünə qolundan açılıb zirehin içinə düşüb. Əhali bu qolbağının götürülməsinə mane olurdu. Deyirdilər ki, qolbağı qəribə şəkildə ora düşübsə, təəccüblüdür. Beləliklə camaat şadlanırdı.

Qadından soruşdum ki, nə oldu bu iş baş verdi? O, dedi: Mənim bir hacətim vardı. Yerinə yetmədiyindən təngə gəlmişdim. Nə edirdimsə hacətim qəbul olmurdu. Nəhayət həzrət Əbul-Fəzl Abbası (əleyhissalam) şəfaətə çağırdım. Nəzr etdim ki, əgər hacətim qəbul olsa, bu qolbağını zirehə ataram. Allahın köməyi ilə nəzirim qəbul oldu. Muradımı aldım. Bir müddət keçmişdi, amma nəzirimi əda etməmişdim. Bu gündə ziyarətə gələndə öz-özümə dedim: Mən hacətimi almışam, daha ehtiyac yoxdur ki, bu qolbağını zirehin içinə atam. Bundan əlavə nə bilmək olur ki, qolbağı necə olacaq, hara gedəcək?

Həmin fikirlə hərəmə daxil oldum. Ziyarətnaməni oxuduqdan sonra özümü zirehə yaxınlaşdırdım. Təşəkkür və minnətdarlıqdan sonra zirehi tutub təbərrük etdim. Zirehdən tutan anda qolbağım öz-özünə açıldı. Elə qolbağı ki, onu açmaqdan ötrü müəyyən miqdar vaxt sərf edirdim. Qəribə şəkildə qolumdan açılıb öz-özünə zirehin içinə düşdü. Ətrafdan bu mənzərəni müşahidə edən xanımlar

maraqlanmağa başladılar. Sonra bu səs-küy başqa zəvvarlara yetişdi və onlar da şadlanmağa başladılar. Mən də ağadan öz nəzirimi yerinə yetirməkdə geçikdiyim üçün üzürxahlıq etdim. Həzrət Əbul-Fəzl Abbas(əleyhissalam) mənim barədə böyük lütf və inayət göstərmişdi. Belə lütfün müqabilində xırda qolbağının heç bir dəyəri yoxdur. Çox təəssüf olsun ki, bu nəzirin daha tez yerinə yetirilməsində şeytan mənə vəsvəsə etmişdi.

## İYİRMİ SƏKKİZİNİCİ KƏRAMƏT

### *«SUDAN BİR OVUC GÖTÜRDÜ!»*

***Həkim hacı seyyid Əli Təbəripur belə nəql edir:***

Bir nəfər çayın kənarına gedib dəstəmaz almaq istəyirdi. Sudan bir ovuc götürüb içməkdən ötrü ağızına yaxınlaşdırdı. Bu vaxt Kərbəla səqqası həzrət Əbul-Fəzl Abbası(əleyhissalam) yadına saldı. Suyu içmədi və göz yaşı axıdaraq çaya tökdü. Həmin gecə kişinin xəstə qadını yuxuda görür ki, həzrət Əbul-Fəzl Abbas(əleyhissalam) gəlib ona şəfaət verir.Qadın soruşur: Məgər əliniz yoxdur? Buyurur: Mənim əlim yoxdur. Qadın soruşur: Siz kimsiniz? Buyurur: Həyat yoldaşın kimi köməyə çağırmışdı?

## İYİRMİ DOQQUZUNCU KƏRAMƏT

### *«YEDDİNCİ İMAM MUSA İBNİ CƏ`FƏR (KAZİM(Ə)) VƏ HƏZRƏT ƏBUL-FƏZL ABBAS(Ə) BEŞ AYLIQ UŞAĞA ŞƏFA VERDİ!»*

***Höccətül-islam vəl-müslimin seyyid Məhəmməd Fəllahzadə nəql edir:***

1354-cü ilin mahi mübarək Ramazan ayında beş aylıq Seyyid Məhəmməd oğlum bağırsaq xəstəliyinə tutuldu. Uşağı Qum şəhərindəki Nikuyui xəstəxanasına aparıb uşaq bölməsində yatızdırdıq.

O gündən sonra mən və uşağın anası hər gün xəstəxanaya gedir, uşağın dindar həkimi Sadiqdən uşağın halını soruşurduq.

Bütün xəstəxana həkimlərinin və bizlərin sə`yinə baxmayaraq uşağın halı gündən-günə pisləşirdi. Belə ki, irəliləyişdən əsər-əlamət görünmürdü.

Gecələrin birində uşağın müayinəsi üçün gəlmiş həkim mənə dedi: Seyyidcan! Sizin uşağınızın halı gündən-günə pisləşir. Mən də əlimdən gələni onun üçün etmişəm. Bundan sonra sizin uşağınızın şəfası Allahladır. Elə ki, həkimin pərdəsiz söhbətin eşitdim, ürəyim qırıldı, çox narahat oldum. Sonra öz-özümə dedim: Məgər biz sahibsizikmi? Bizim sahibimiz var! Əsl həkimin ətəyindən yapışmaq lazımdır!

Həmin gecə uşağın gözü yaşlı anası ilə birlikdə xəstəxananın həyətində qəlbiqırılmış halda imam Kazim (ə) və həzrət Əbul-Fəzl Abbası(əleyhissalam) şəfaətə çağırdıq. Nəzr etdik ki, əgər uşaq sağalsa imam Kazim (ə) və həzrət Əbul-Fəzl Abbasa(əleyhissalam) hər ayın əvvəlində on gün rövzə oxudarıq. O gecə sübhə qədər dua etməklə məşğul olduq. Belə ki, vaxtın necə keçməsini bilmədik. Sübh gəlib uşağın halını soruşduq. Qəribə mənzərə ilə rastlaşdıq. Gecədən xəstəxanada halsız vəziyyətdə qalan uşaq indi tənəffüs boruları vasitəsilə nəfəs almağa başlamışdır. Bunu görüncə tez həkimə xəbər verdik. O da tez gəlib uşağı müayinə etdi. Müayinədən sonra gülümsündü. Mənə üz tutub dedi: Cənab Fəllahzadə de görüm gecə nə etmisən? Çünki mö`cüzə olub. Daha bu uşağın bağırsaqlarında üfunətdən xəbər yoxdur. Rahatlıqla nəfəs alır.

Bu sözləri eşidəndə sevincdən qəhr boğazımı tutdu və həkimin cavabını verə bilmədim. Bir müddət sükutdan sonra özümə gəlib dua etmək əhvalatını həkimə nəql etdim. Belə ki, o da çox pərişan olub ağlamağa başladı.Həzrət imam Kazim

(əleyhissalam) və həzrət Əbul-Fəzl Abbasın(əleyhissalam) kəraməti bu idi. Beş aylıq uşağa Allah dərgahında şəfa verdilər. Ondan sonra bu günə qədər Allahın köməyi ilə bizim uşaqda bağırsaq xəstəliyi yoxdur. Bu macəranın sonunda onu da qeyd etmək istəyirəm ki, qəlbini sındırmasan «dua» qəbul olmayacaq. Lazımdır ki, Allahla xalis şəkildə rabitə yaradıb Onun dərgahında ağlayasan.

***(MÜSLİMİN QIZININ DİLİNDƏN***

**Ey vəfa keşvərinin təxtinə sultan Əbbas!**
**Duri dəryayi şücaət şəhi dövran Əbbas!**
**Səfdərü səfşekənü Mə`dəni ehsan Əbbas!**
**Yadigarü şahidin sərvəri Mərdan Əbbas!**
*** * * * * * * * * * ***
**Lütv qıl bircə pərişan olan əhvalimə bax**
**Ciyəri qanə dönübdür, di yetim halimə bax**
**Kəhrəba tək saralan rəngi-ruxi halimə bax**
**Göz yaşım aləmə salmış necə tufan Əbbas!**
*** * * * * * * * * * ***
**Sərsəri zülm ilə soldurdu fələk güllərimi**
**Salmışam nalə konan başə qara mə`cərimi**
**Gəlmişəm ya ətəyün kəs dayı, ya əllərimi**
**Ya budur eylə mənim dərdimə dərman Əbbas!**
*** * * * * * * * * * ***
**Bixəbərsən məgər ey kani vəfa zübdeyi nas**
**Sərbəsər ali Əli şivən ilə qurmuş yas**
**Bax oğulsuz anama gör geyinib qarə libas**
**Eyləyib zülfünü ah ilə pərişan Əbbas!**
*** * * * * * * * * * ***
**Öldürüblər babami Kufədə, yox dəfn edənin**
**Olmayıb nəyşinə tabutu hənutu kəfənin**
**Qüsli qan qənarədə qalıb üryan bədəni**
**Olma razı qalya yerdə bu belə qan Əbbas!**
*** * * * * * * * * * ***
**Mən yetiməm bu sınıq könlümü bir şad eylə!**

**Qurtarıb qüsseyyi-qəmdən məni azad eylə!**
**Atamın qanını al Kufəni bərbad eylə!**
**Bu uzun qollara canım ola qurban Əbbas!**
***  *  *  *  *  *  *  *  *  *  ***

**Lalə tək batsa əgər gül bədənin al qanə**
**Qıla gəl zülm əli sinəvi nişan peykanə**
**Mən də gəlləm qabağunca dayıcan meydanə**
**Açaram başımı, allam ələ Qur`an Əbbas!**
***  *  *  *  *  *  *  *  *  *  ***

**Məni qaytarma qapından sən ayə kani kərəm**
**Canımı aldı müsibət-qəmi ənduhi ələm**
**Yerdə qoysan atamın qanına razi deyiləm**
**Bu dilafkarı dəxi qılma peşiman Əbbas!**
***  *  *  *  *  *  *  *  *  *  ***

**Can verəndə babamın olmadı bir ağlıyanı**
**Baş açıb nəyşinin üstündə cigər dağlayanı**
**Vardı Qumri kimi aləmdə əza saxlayanı**
**Göz yaşıyla salacaq aləmə tufan Əbbas!**
***  *  *  *  *  *  *  *  *  ***

## OTUZUNCU KƏRAMƏT

### *«YAŞIL İPİ BİLƏNGİNDƏN AÇMA!»*

***Höccətül-islam Xətib Fərzanə və hacı seyyid Hüseyn Mö`təmidi Kaşani, Ne`mətullah Əşhəri Qumsəri oğlu Möhsindən belə nəql edirlər:***

Əsgərliyimin son vaxtında Tehran dəmir yol vağzalına gətirilmişdik. Mənim ora çatmağım İraq əsirlərinin və yaralılarının qatarla gətirilməsi gününə təsadüf etmişdir.

Ordan bir əsiri xaric etdilər. Biləklərinə yaşıl ip bağlamışdı. Onunla müsahibə apardılar. Müsahibə arasında ondan soruşdular: Bilənginizdə yaşıl ip bağlamaqda seyyidsinizmi? Xeyr – deyə cavab verdi.

Bir neçə gün bundan əvvəl Səddamın əmrilə məni zorla iranlılara qarşı döyüşə aparırdılar. Döyüşə yola düşməmişdən əvvəl anam məni həzrət Əbul-Fəzl Abbasın(əleyhissalam) hərəminə apardı. Oranın xidmətçilərindən birindən yaşıl rəngli ip alıb bir ucunu mənim qoluma digər ucunu həzrət Əbul-Fəzl Abbasın (əleyhissalam) zirehinə bağlayıb ağlamağa başladı. Ağlaya-ağlaya həzrətə and verib dedi: Bu uşağımı zorla cəbhyə aparmaq istəyirlər. Mən onun yaralanmasından və əsir olmağından qorxmuram. Amma, istəmirəm ki, öldürsünlər. Ya Əbul-Fəzl Abbas! Buna bir nəzər sal! Uşağımın başına nə gəlirsə gəlsin, lakin ölməsin, mənim yanıma qayıtsın. Sonra mənə dedi: İpi qolundan açma. Mən həzrət Əbul-Fəzl Abbasdan(əleyhissalam) istəmişəm ki, səni mənə qaytarsın. Cəbhəyə gələndə bir neçə nəfərlə iranlılara hücum etdik. İranlılar bizi mühasirəyə aldılar. Çox çətin vəziyyətdə idik. Dörd tərəfdən atəşə tutulmuşduq. Dostlarımdan bir neçəsi yanımdaca öldülər. Lakin mən əllərimi başıma qoyub həzrət Əbul-Fəzl Abbasın(əleyhissalam) köməyi ilə iranlılara təslim oldum və sağ qaldım.

## OTUZ BİRİNCİ KƏRAMƏT

### *«BABA MƏNİ YERƏ QOY»*

***Höccətül-islam vəl-müslimin seyyid Əhməd Qazəvi mərhum ayətullah hacı şeyx Məhəmməd İbrahim Nəcəfi Brucerdinin dilindən belə nəql edir:***

İraqda olan vaxtda bir dəstə dostlarımızla birlikdə həzrət Əbul-Fəzl Abbasın(əleyhissalam) pak hərəmində oturmuşduq. Birdən bir ərəbin səhnəyə daxil oduğunu gördük. O, 6 ya 7 yaşlı oğlan uşağını qolları üstə aparırdı. Bizə belə gəldi ki, uşaq keçinmişdi. Uşağın atası pak zirehə müraciət edib dedi: Ey Abbas ibni Əli (əleyhissalam)! Əgər Allahdan uşağıma

şəfa almasan səndən atan Əli (əleyhissalam)-a səndən şikayət edəcəyəm.

Bu səhnəni görəndə istədik ona deyək ki, əgər hacətin varsa O həzrətlə ədəblə söhbət etməlisən. Belə bir böyük şəxsiyyətə sizin xitabınız və sözləriniz yaraşmaz. Fikrimiz sona yetməmiş gördük ki, uşaq gözlərini açdı. Atasına dedi: Ata məni yerə qoy! Bu səhnəni görməklə hamımızın halı dəyişdi və öz gözlərimizlə gördük ki, uşaq şəfa tapdı

## OTUZ İKİNCİ KƏRAMƏT

### *«HƏZRƏT ƏBUL-FƏZL ABBASIN(Ə) HƏRƏMİNİN GÖYƏRÇİNLƏRİNDƏN BİRİ»*

***Höccətül-islam vəl-müslimin hacı seyyid Rəsul Məcidi nəql edir:***

İsfahanda «Gəzali» mağazasının satıcısı cənab Ağa Riza Kermani mənə nəql etdi:

10 ya 12 yaşlı uşaq idim. Gördüm ki, uşaqlardan biri həzrət Əbul-Fəzl Abbasın(əleyhissalam) pak hərəminin göyərçinlərindən birini tutdu. Göyərçinin quyruğu yolundu və uçdu. Uşaq göyərçinin əlində qalmış quyruğunu göyə atdı. Göyərçinin quyrğu havada uçub öz əsl yerinə yapışdı. Bu da həzrət Əbul-Fəzl Abbasın(əleyhissalam) kəramətindən biri idi.

## OTUZ ÜÇÜNCÜ KƏRAMƏT

### *«BABACAN! MƏGƏR SƏNİN AĞAN «BABUL-HƏVAİC» DEYİL?»*

***Cənab Əli Səfəvi Kaşani cənab Harunidən nəql edir:***

***Məhərrəm ayında (aşura günü) dəstələrin birinin su paylayanı dövr edib uşaqlara su verirdi. O, nəql edir ki:***

Allah mənə bir oğlan uşağı vermişdi. On bir il şil oldu. Tasua gecəsi idi. Evdən çölə çıxmaq istəyirdim, su məşqi də sinəmin üstündə idi. Birdən gördüm ki, oğlum məni səsləyir: Baba! Hara gedirsən? Dedim: Oğlum bu gecə tasuadır. Mən öz dəstəmizdə su paylayanam. Gərək gedib uşaqlara su paylayam. Uşaq dedi: Babacan! Bütün bu ömrüm ərzində bir dəfə də olsa məni özünlə əzadarlığa aparmamısan. Baba! Məgər «Babul-həvaic» sənin ağan deyil? Bu gecə məni özünlə dəstənizə apar və Allahdan həzrət Əbul-Fəzl Abbasa(əleyhissalam) xatir mənə şəfaət istə!.

Çox pərişan oldum. Su məşkini bir tərəfimə, əziz şikəst oğlumu isə başqa tərəfimə alıb evdən çölə çıxdım. Əzadarlıq edən dəstəmiz hərəkət etməyə başlayanda dəstənin müqabilində durub dedim: Uşaqlar dayanın! Bu gecə oğlum mənə bir söz deyib ki, bu sözlə qəlbimi yandırıb. Əgər bu gecə «Babul-həvaic» uşağıma şəfaət verdisə verdi, yoxsa sabah gəlib meydanın ortasında su məşkini para-para edəcəm və həzrət Əbul-Fəzl Abbasın(əleyhissalam) su paylayan vəzifəsini kənara qoyacağam.» Bu sözü deyəndən sonra dəstə hərəkətə gəldi.

Gecə yarı idi. Əzadarlıq tamam olmuşdu. Gördüm uşaqdan bir xəbər yoxdur. Çox pərişan və halım dəyişmiş idi. Öz-özümə dedim: Xudaya! Bu nə söz idi ki, mənim dilimə gəldi? Bəlkə onlar özləri istəyir ki, mənim oğlumu belə görsünlər. Bəlkə Allahın məsləhəti beləimiş. Öz-özümə dedim: Daha bir söz idi dedim. Əgər qəbul olmasa sabah su məşkini parça-parça edəcəm. Evə gəldim. Otağın birində oturmuşdum. Həm mən ağlayırdım, həm də oğlum. Çox ağladım. Birdən oğlum fəryad etdi: Baba bəsdir! Dur ayağa baba, baba! Əgər qəlbini yandırmışamsa məni bağışla baba, baba! Allah nə istəsə mən də razıyam baba!

Mən otağdan çölə çıxdım. Gedib qarşı otaqda oturdum. Lakin, aram ola bilərəmmi? Dayanmadan ağlayırdım. O vaxta qədər ki, gözlərimi yuxu tutdu. Bu vaxt oğlumun səsi məni yuxudan ayıltdı:

Babacan! Gəl!Ağan kömək etdi! Baba gəl! Əbul-Fəzl Abbas(əleyhissalam) mənə şəfa verdi! Baba!!!!!!

Gəlib qapını açdım. Gördüm ayaqları on bir il şil olan oğlum yeriyə-yeriyə mənə tərəf gəlir. Dedim:

Əzizim nə olub?

Fəryad çəkdi: Baba elə ki, sən otaqdan çölə çıxdın, mən ağlayırdım. Birdən gördüm ki, otaq işıqlandı. Bu zaman bir nəfər mənim yanımda durub mənə belə deyir:

«Dur ayağa!»

Dedim: Mən dura bilmirəm!

Dedi: «Bir dəfə de ki: Ya Əbul-Fəzl Abbas! Sonra dur.»

Baba! Bir dəfə dedim: Ya Əbul-Fəzl Abbas! Və durdum. Babacan görürsən ağan səni naümid etmədi. Mənə şəfa verdi!

Oğlumu qaldırıb qucağıma aldım və evdən çölə çıxdım. Uca səslə fəryad etdim:

Ey əziz əzadarçılar! Gəlin görün! Həzrət Əbul-Fəzl Abbas(əleyhissalam) vəfasız deyil! Uşağıma şəfa verdi!

***Qolsuz yaralı yıxıtdılar atdan məni qardaş!***

**Qolsuz yaralı yıxıtdılar atdan məni qardaş!**
**Müştaqəm edəm bir də ziyarət səni qardaş!**

**Dad eyləmərəm özgəni çün dadi rəsim var**
**Əzbərdü mənə dildə adun ta nəfəsim var**
**Yox özgə həvəs dildə fəqət bir həvəsim var**
**Görməkdi məramım bu ölən dəm səni qardaş!**

*** * * * * * * * * * ***

**Çun kasə ləbaləb doludu qan ilə gözlər**
**Bu qanlı gözüm həsrət ilə sağ solu gözlər**
**Gəl qoyma gözü yolda amandır məni qardaş**

**Ey vəchi Xuda, vəchi nədir vəchi yubandın**
**Gördün kəsilən əllərimi yoxsa dayandın**
**Hərçənd məni yıxdılar sən candan usandın**
**Leyk axarıram vəchi həqqi zulməni qardaş!**

***     *     *     *     *     *     *     *     *     *     ***

**Hər can verəni sən edəsən qardaş hidayət**
**Təslim edər öz canını cananına rahət**
**Ey sayeyi həqq başıma sal zilli inayət**
**Qoy ucala qardaşıvın şivəni qardaş**

***     *     *     *     *     *     *     *     *     *     ***

**Su məşqini dörd min ox atan etdi bəhanə**
**Başdan başa oldu bədənim tirə nişanə**
**Məşk oxlanıb əşkim su kimi oldi rəvanə**
**Qəmgin məni xoşund elədi duş məni qardaş**

**Gəl sil gözümün qanını əl yoxdu silim mən**
**Fikrim budu təşrifi şahən şahi bulum mən**
**Ta məqdəmi şahən şaha qurban kəsilim mən**
**Olsun başımın nizə başı məsgəni qardaş**

## OTUZ DÖRDÜNCÜ KƏRAMƏT

### *«AĞA! SƏN ÖZÜN MƏNİM GİRİFTARÇILIĞIMI GÖRÜRSƏN!»*

***Cənab höccətül-islam hacı seyyid Nəcəf Rəzəvi yazır:***

Çətinliyim var idi. neçə vaxtlar idi ki, həll olmurdu. Sizin bu kitabı oxuduqdan sonra otaqdan çıxdım. Halım dəyişdi. Həzrət Əbul-Fəzl Abbasa(əleyhissalam) xitabən ərz etdim:

Ağa! Sən özün mənim giriftarçılığımı bilirsən. Mənə elə gəlir ki, sən kömək edə bilərsən. Səni and verirəm qardaşın həzrət imam Hüseyn (əleyhissalam)-a, mənim bu müşkülümün həllini Allahdan istə!

Bu sözləri dedikdən sonra evdən şəhərə çıxdım. Günorta evə qayıdanda zövcəm dedi ki, müşkül həll oldu. Halbuki zövcəmin bu işdən xəbəri yox idi. Bəli, Allaha şükür olsun ki, həzrət Əbul-Fəzl Abbası(əleyhissalam) köməyə çağırmaqla müşkülüm həll oldu

## OTUZ BEŞİNCİ KƏRAMƏT

### *«İKİ MAŞIN ARASINDAN BİR NƏFƏR TAPILDI!»*

***Cənab Rəzəvi təxminən 50 il bundan əvvəl olmuş başqa bir kəraməti belə yazır:***

Mənim bibim Nəcəfi-Əşrəf ziyarətindən Kərbəlaya, yaxud əksinə səfər edirmiş. Yol arasında hava dəyişir və hər tərəfi toz-duman bürüyür. Həmin halda qarşıdan bir maşın gəlir və onların maşınları ilə üzbəüz olur. Az qalır ki, hadisə baş versin. Birdən bütün zəvvarlar bir ağızdan «Ya Əbul-Fəzl Abbas!» deyə fəryad çəkirlər.

Bibim nəql edir ki: Mən iki maşın arasında qolsuz bir nəfəri gördüm. Bu şəxs özünün pak çiyinləri ilə iki maşının bir-birinə dəyməsinə mane oldu. Mən bu işi həzrət Əbul-Fəzl Abbasın(əleyhissalam) kəramətlərindən hesab edirəm.

## OTUZ ALTINCI KƏRAMƏT

### *«QƏMƏRİ BƏNİ HAŞİMİ YADIMA SALDIM!»*

***Cənab hacı Hüseyn Babayi bir neçə kəramət yazıb göndərir:***

1.Mən altımış il bundan öncə Qum şəhərinin Kərəmgah kəndində sakin idim. 17-18 yaşım olardı. O vaxt hər tərəfdə yayılan «qızdırma» xəstəliyinə tutulmuşdum. Bu xəstəlik o vaxt demək olar ki, hər bir evdə vardı və çox evlərdən 2-3 nəfəri öldürmüşdü. Mən də bu xəstəliyə tutulmuşdum. Məni müalicə etməkdən ötrü Mirzə Qulam Hüseyn Casibi adlı bir həkim gətirmişdilər. Həkim məni müayinə etdikdən sonra dedi:

Mən dərman verməyəcəyəm.

Soruşdum: Həkim! Bir-iki dənə nar yeyə bilərəmmi?

Həkim narahat olub dedi: Nar ye və öl!

Halım o qədər pis idi ki, anam və bacılarım mənim dəfnimdən ötrü kəfən hazırlamışdılar. Bu halda Həzrət Qəməri bəni Haşimi yadıma saldım.

Yuxuda gördüm ki, yaşıl libas geymiş, uzun boylu gözəl bir şəxs başımın üstündə durub buyurdu:

Sən yaxşı olmusan!

Dedim: Ağacan! Mirzə Qulam Hüseyn həkim dedi ki, sən öləcəksən. Buyurdu: Sən yaxşı olmusan!

Birdən gördüm ki, sanki otağın divarı yarıldı və həmin şəxs otaqdan xaric oldu. Sonra gözlərimi açdım və hiss etdim ki, zərrə qədər də olsa bədənimdə ağrı yoxdur. Bir neçə nar dənəsi yedim. Sonra anamı və bacımı səslədim: Həzrət Əbul-Fəzl Abbas(əleyhissalam)- mənə şəfa verdi!

İndi altımış ilə yaxındır ki, tasua gecələrində (Məhərrəmin 9-cu gecəsi) həzrət Əbul-Fəzl Abbasdan(əleyhissalam) ötrü süfrə açıb ehsan verirəm. O da hər il mənə köməklik göstərir və ildən-ilə yaxşılaşıram.

### *Yatdı ələm sandı qoşun qardaş Hüseyn gəl, yalqızam!*

**Yatdı ələm sandı qoşun qardaş Hüseyn gəl, yalqızam**
**Düşmən alıbdır dörəmi neynəyim qolum yox qolsuzam**

* * * * * * * * * * * *

**Kəsib yolum əhli hərəm, mümkin deyil heç bir gələm**
**Qanə batıb əhli hərəm, qardaş Hüseyn gəl yalqızam**
**Neynim əlim yox qolsuzam!**

* * * * * * * * * * *

**Qanə batıbdır peykərim, tez gəl hərayə sərvərim**
**Yolda qalıbdır gözlərim qardaş Hüseyn gəl yalqızam**
**Neynim əlim yox qolsuzam!**

* * * * * * * * * * *

**Səd parə olmuş gül bədən, yoxdur imdadə rəhm edən**

**Qardaş yoxdur nə dəfn edən, qardaş Hüseyn gəl yalqızam**
**Neynim əlim yox qolsuzam!**
*      *      *      *      *      *      *      *      *      *      *
**Yox nəyşim üstə ağlayan, qanlı gözümü bağlayan**
**Baş açıb sinə dağlayan, qardaş Hüseyn gəl yalqızam**
**Neynim əlim yox qolsuzam.**
*      *      *      *      *      *      *      *      *      *      *
**Çoxdur başımın yarəsi, ürəkdə qan fəvvarəsi**
**Ey dəri qəm əvvarəsi, qardaş Hüseyn gəl yalqızam**
**Neynim əlim yox qolsuzam.**
*      *      *      *      *      *      *      *      *      *      *

## OTUZ YEDDİNCİ KƏRAMƏT

### *«HEÇ BİRİNİZİN CƏRRAHİYYƏ ƏMƏLİYYATINA EHTİYACI YOXDUR.»*

2. Təxminən 30 il bundan öncə Tasua gecələrinin birində süfrə açıb ehsan verməkdən ötrü imkanım olmadı. Nəhayət, qərara aldım ki, o ili öz nəzirimə əməl etməyim. Həmin gecə xəstələndim və məni «Kamıkar» adlı xəstəxanaya apardılar. Feyz və Fatimi adlı həkimlər məni müayinə etdilər. Dedilər sənin narahatçılığın 12 barmaq bağırsaqdandır. Əməl olunmalısan.

Elə ki, həkimlərin fikrin öyrəndim çox narahat oldum və həmin xəstəxanada həzrət Əbul-Fəzl Abbasa(əleyhissalam) dua etdim.

Yatdığım otaqda altı başqa xəstə də yatırdı. Qərara alınmışdı ki, o günün səhəri hamını cərrahiyyə əməliyyatına aparsınlar. Gecə yuxuda gördüm ki, həzrət Əbul-Fəzl Abbas(əleyhissalam) xəstəxananın biz yatan otağına gəldi və buyurdu: «Siz yeddi nəfərin heç birinizin əməliyyata ehtiyacı

yoxdur. Hamınız sağalmısınız. O yeddi nəfərdən biri cənab Xirədməndin oğlu idi.

Səhəri gün hamını müayinə etdilər.Həkim e`tiraf etdi ki, heç birinizin əməliyyata ehtiyacı yoxdur. Axırda hamımızı xəstəxanadan çıxardılar. Allaha şükür olsun ki, hər il nəzirimə əməl edirəm və həzrət Əbul-Fəzl Abbasa(əleyhissalam) borcluyam.

## OTUZ SƏKKİZİNCİ KƏRAMƏT

### *«BİR ƏL GƏLİB ONU GƏMİYƏ MİNDİRDİ.»*

***Siqətul-islam Şeyx Məhəmməd Əli Məkarimi nəql edir:***
***Hüseyn Nasiri adlı Məşhəd sakini olan bir nəfər belə nəql edir:***

Atam dəniz səfərlərinin birində gəmidən dənizə düşür. O, suda boğula-boğula bir dəfə başını sudan çıxardıb həzrət Əbul-Fəzl Abbası(əleyhissalam) köməyə çağırır və fəryad edir: Ya Əbul-Fəzl! Dadıma yetiş!

Birdən görür ki, bir əl gəlib onun əlindən tutub gəmiyə atır».

## OTUZ DOQQUZUNCU KƏRAMƏT

### *«ONU İMAM HÜSEYN (Ə)-IN HƏRƏMİNƏ BAĞLADILAR.»*

***Cənab höccətül-islam vəl-müslümin seyyid Mürtəza Nəvvab anasının dilindən yazır:***

Bir nəfəri and içməkdən ötrü həzrət Əbul-Fəzl Abbasın(əleyhissalam) hərəminə gətirmişdilər. Yalandan and içdiyinə görə durub yerə yıxıldı. Xidmətçi və başqaları gəlib onu tuturlar. Sonra yaşıl şal gətirdilər. Onu həzrət imam Hüseyn (ə)-ın hərəminə bağladılar ki, Seyyidüşşühəda(əleyhissalam) ona şəfa versin. O həzrət ona şəfa verdikdən sonra ayıldı!

## QIRXINCI KƏRAMƏT

### *«İMAM HÜSEYN (Ə) VƏ HƏZRƏT ƏBUL-FƏZL ABBASIN(Ə)-IN HƏRƏMİNDƏ BULUD GÖRÜNDÜ.»*

***Cənab siqətul-islam Məhəmməd Rza Məhmudi yazır:***

***Atam hacı, şeyx Abbas Məhmudi mənə belə nəql edir:***

Otuz il bundan əvvəl Kərbəlayə getmişdim. Bir gün «Zeynəbiyyə» adlı məkanda durmuşdum. Gördüm bir bulud göründü. Əvvəlcə imam Hüseyn (əleyhissalam)-ın, sonra isə həzrət Əbul-Fəzl Abbasın(əleyhissalam) hərəmlərinin başında dövr etdi. Sonra Nəcəfi-Əşrəfə üz tutdu.

## *QIRX BİRİNCİ KƏRAMƏT*

### *QƏDİM «ƏLƏMLƏRDƏN» BİRİNDƏN YAPIŞMAQLA QƏTİ ÖLÜMDƏN NİCAT TAPMAQ»*

***Höccətül-islam vəl-müslimin şeyx Məhəmməd Rza Xurşidi bu barədə belə yazır:***

İnandığım dostlardan biri nəql edir: Həzrət Əbul-Fəzlə Abbasa(əleyhissalam) xüsusi məhəbbətim olduğuna görə çox vaxt harada olsam onu:

«Ey qədim ələmlərin ələmi!» Nökərini darda saxlama»- deyə çağırırdım. Hətta, həzrəti Fatimeyi-Mə`sumənin(salamullahi əleyha) zirehi yanında durub (canım ona fəda) ərz edirəm:

Bibi can! Üzr istəyirəm! Həmin yerdən sənin əmini çağırıram: Ya Əbul-Fəzl! Bilirəm narahat olmazsan, bəlkə də xoşhal olarsan!».

O şəxs buyurur: Təxminən, iki il əvvəl, yə`ni, 1994-cü ildə dost libasında olan bə`ziləri şeytanın vəsvəsəsi nəticəsində mənə müşkül icad etmişdilər. Elə vəziyyətdə idim ki, bə`zən dərs oxumaq və fikirləşməyə belə qüdrətim olmurdu. Mən səbr etdim. Hətta iki dəfə özüm qabağa düşüb onların evinə getdim ki, kin-küdurət aradan getsin. Təəssüflər olsun ki, onlar mənim bu xoş niyyətimdən sui-istifadə edib, yenidən mənimlə dava-dalaş etməyə başladılar. Mən də nə qədər nəsihət etdimsə faydası olmadı. İki müşkül arasında giriftar olmuşdum. Bir tərəfdən əgər öz haqqımı müdafiə etsəydim dava-dalaş şö`ləsi ucalacaqdı, başqa tərəfdən belə cəsarətlər və bihudəçiliyə dözməyə qüvvətim yox idi. Bu arada qəlbimin döyüntüləri çoxaldı. Öz sağlamlığımdan ötrü qorxu hissi keçirtdim. Həmişə cibimdə olan Qur`anı yanımdakılar hiss etmədən qorxunun aradan getməsindən ötrü qəlbimin üzərinə qoydum. Bir neçə an keçmişdi mən hələ də qəlbimdə xətər hiss edirdim, onlarsa öz aləmlərində mənə qarşı hörmətsizliklərində davam edirdilər!!

Nəhayət, abır-həyamı və sağlamlağımı qorumaqdan ötrü o evdən çıxıb mənzilimə tərəf hərəkət etdim. Yol arasında ayaqlarımı çətinliklə çəkirdim. Küçələr arasından keçdim. «Eşq Əli» küçəsində yol üstə olan məscidin yanından ötəndə artıq nəfəsimi güclə alırdım. Qəlbimin dayanması (infakt) ehtimalı var idi. Öz-özümə dedim: Yaxşı olar ki, şəfa və nicat

niyyəti ilə bədənimi içində uzun illər Peyğəmbər (səlləllahu əleyhi və alehi və səlləm) dininin tədrisi keçirilən və böyük ustad ayətullah hacı, şeyx Məhəmməd Əli Müdərris Əfğaninin (r.ə) dərs keçdiyi məscidə sürtüm. Ona görə də bədənimi məscidin divarına sürtməyə başladım. Lakin hələ xətər hiss edirdim. Bir neçə qədəm çətinliklə yeridim. Birdən yadıma Kərbəla Ələmdarı və «ələm» düşdü. Ərz etdim: Ya Ələm! Bizləri an, ümüdsiz etmə! Nicat ver! Məhərrəm ayının 7-ci günündə həzrət Əbul-Fəzl Abbasa(əleyhissalam) xatir qurbanlıq qoyun kəsərəm.

Ravi deyir: Həzrət Əbul-Fəzl Abbasın (əleyhissalam)özünə and olsun «Eşqəli» küçəsindəki dörd yol ayrıcından təxminən yüz metr keçməmiş birdən hiss etdim ki, qəlbimin heç bir döyüntüsü yoxdur və heç bir xətər hiss etmirəm. Hətta əvvəlkindən də gümrah oldum. Bir neçə gündən sonra mənimlə dava-dalaş edənlər isə rüsvayçılığa mübtəla oldular.

Ümidvaram ki, Kərbəla ələmdarı bütün dünyanın məzlumlarına şərli adamların əlindən nicat versin və hər kim onun ziyarətini arzulayırsa ona qismət etsin!».

Axırda bu kitabın müəllifi höccətül-islam vəl-müslimin hacı şeyx Əli Rəbbani Xəlxaliyə müvəffəqiyyət arzulayıram.

## *ƏLVİDA EY ÜMMƏTİM.....*

**Əlvida ey ümmətim, dünyanı tapşırdım sizə**
**Can sizə can itrətim, Qur`anı tapşırdım sizə.**

*********

**Gərçi mən Peyğəmbərəm nazil olub Qur`an mənə**
**Azimi rahi bəqayəm çün yetib fərman mənə**
**Müntəzirdir Ədndə dərvazəban rizvan mənə**
**Dini təkmil etmişəm, imani tapşırdım sizə.**

*********

**Ümmətimdən hökmü Qur`anə itaət istərəm**
**İtrətü övladimə sizdən himayət istərəm**
**Çün əmanətdir bular ruzi qiyamət istərəm**

**Hörməti Qur`anilən Zəhranı tapşırdım sizə.**
*********

**Çün Hüseynilə Həsəndir cani şirindən əziz**
**Huriyan həsrət çəkir olsun bu tiflanə kəniz**
**Qoymuyun məndən sora dünyadə olsun əşkiriz**
**Hər iki cənnət gülü reyhani tapşırdım sizə**
*********

**Qoymayın asari qəm yetsün dili naşadimə**
**Eyləyün hörmət cahanda siz mənim övladimə**
**Vurmayın məndən sora od xaneyi bərbadimə**
**Dudimani itrəti Tahanı tapşırdım sizə.**
*********

**Din yolunda çox çəkib zəhmət əmim oğlu Əli**
**Hörməti vacibdi çün Allah onu etmiş vəli**
**Məzhəri külli əcayibdir əli Allah əli**
**Mən vəliyyullahi tək mövlani tapşırdım sizə.**
*********

**Ovsiyavü övliyanın çün Əli övlasıdır**
**Hər kəsə mövla idim mən, pəs Əli mövlasıdır**
**Dinə pərçəmdir olan ol hümməti valasıdır**
**Əhli əyalinən Şəhi-mərdani tapşırdım sizə.**
*********

**Qoymuyun qəmdə qızım Gülsümü sinə dağlasın**
**Zeynəbi çox istərəm qoymun cahanda ağlasın**
**Mən xudahafiz sizi, ey ümmət, Allah saxlasın**
**Bil-əxəss mən Zeynəbi Kübrani tapşırdım sizə.**
*********

**Var yeri ərz eyliyək biz ey Rəsuli aləmeyn**
**Kaş olaydın Kərbəladə zibh olan vəqti Hüseyn**
**Ta görəydin Zeynəbün ərşə salıbdır şurişin**
**Əmr edəydin kufiyan sultani tapşırdım sizə**
*********

**Nadiri qəm movcinə qərq olmusan dünyadə sən**
**Olgunan şərhi müsibət yazmağa amədə sən**
**İstə Zəhradan şəfaət məhşəri kübradə sən**

**Yazdığın göz yaşilən Tuğranı tapşırdım sizə.**

*** * * * * * * * * * * ***

## QIRX İKİNCİ KƏRAMƏT

### *«BİRDƏN BAĞLI QAPI ÖZ-ÖZÜNƏ AÇILDI»*

***Möhtərəm Əbul Həsən Şərifi İranın Kərəc şəhərindən göndərdiyi məktubda yazır:***

Möhtərəm Şeyx Əli Rəbbani Xəlxaliyə salam ərz edirəm. Dahi Qum elm ocağının ustadı, ayətullah hacı şeyx Əbul Fəzl Xonsarinin hüzuruna yetişib sizin kitabınızın 1-ci cildini ona təqdim etmək mənə qismət oldu. O, sizin zəhmətinizi qiymətləndirdikdən sonra belə buyurdu:

Nənəm, ayətullah hacı şeyx Əbu Turab Kəlardəştinin həyat yoldaşı idi. Nənəm nəql edir ki, sənin ananı dünyaya gətirməyə yaxın vaxtlarda mama dalınca gedir və mama ilə birlikdə mənzilə qayıdarkən gecə yarı olur. Küçə qapısı bağlanmış idi. O vaxtlar gecələr qapını bağlayıb sübhə kimi heç cür açmazlarmış. Nənəmin vəziyyəti xarablaşır. Heç bir yol tapa bilmir. Həzrət Əbul-Fəzl Abbasa(əleyhissalam) pənah gətirib and verir və əhd edir ki, əgər bu uşaq sağlam dünyaya gəlsə onun adını «Əbəlfəz» qoyacağam. Ona nökər qərar verərəm. Birdən bağlı qapı öz-özünə açılır və nənəm özünü evə çatdıra bilir. Uşaq salamatçılıqla dünyaya gəlir. Cənab Şərifi hadisəni nəql etdikdən sonra yazır: O cür də oldu. Övladına «Əbəlfəz» adını qoyur. Bu gün həmin şəxs o adın bərəkətindən elm və bilik aləmində ən yüksək mərtəbəyə çatmışdır.

## QIRX ÜÇÜNCÜ KƏRAMƏT

### *«HƏZRƏT ƏBUL-FƏZL ABBASI(Ə) ÇAĞIRMAQLA ŞƏXSİ MƏNZİL SAHİBİ OLDUM».*

***Cənab Cavad Şərifi Kərəcdən yazır:***

«Bir neçə il idi ki, özüm ailəmlə birlikdə Qumda yaşamaq həsrətində idik. Lakin buna imkanım yox idi. O vaxta qədər ki, atamın məsləhəti ilə Əbul Fəzl Abbası(əleyhissalam) çağırıb 133 dəfə xüsusi dua oxumaqla bu işi davam etdirdim. Bu işlərin bərəkətindən Kərəcdən müqəddəs Qum şəhərinə köçmək şəraitim düzəldi. İndi iki ildir ki, Qum şəhərinin «Zənbilabad» xiyabanında məskun olmuşam. Allaha şükr edirəm ki, mənim Əbul Fəzl Abbasa(əleyhissalam) xatir işlərimi sahmana saldı.

## QIRX DÖRDÜNCÜ KƏRAMƏT

### *«NAQİS UŞAĞA ŞƏFAƏT VERİLDİ».*

***Seyyid Ətaullah Şəms Dövlətabadi yazır***:

Alimlərdən biri hacət almaqdan ötrü on gecə Əmirəl-mö`minin Əli (əleyhissalam)-ın pak hərəmində qalır. Lakin bir nəticə almır. Sonra həzrət imam Hüseyn (əleyhissalam)-ın hərəmində on gecə qalır. Yenə də nəticə almır.

Həmçinin həzrət Əbul-Fəzl Abbasın(əleyhissalam) hərəmində on gecə qalmalı olur. Burda da məqsədinə çata bilmir. Həzrət Əbul-Fəzl Abbasın(əleyhissalam) hərəmində qaldığı günlərin sonuncusunda görür ki, bir qadın ziyarətgaha daxil oldu. Çolaq bir uşağı zirehin yanına atıb dedi: «Ya Əbul Fəzl Abbas! Mən sizdən övlad istəmişdim. İndi Allah mənə bir naqis övlad verib. Mən buradan getməyəcəyəm. O vaxta qədər ki, mö`cüzə edəsən və mənim naqis uşağımı sağlam edəsən!

Birdən hay-küy qopdu. Dedilər naqis uşaq sağlam oldu. Qadın uşağı qucağına alıb çölə çıxdı.

Bunu görən alim çox kədərləndi. Zirehin kənarına gəlib dedi: «Ya Əbul-Fəzl Abbas! Bir gör mən bir aydır atanın, qardaşının və sənin yanında hacət istəyirəm, lakin hacətim qəbul olmayıb. Amma köçəri ərəb qadın gələn kimi birbaşa hacətini verdin.»

Bir neçə an sonra alim zirehin yanında yuxuya gedir. Röya aləmində Həzrət ona deyir: Hər kəs öz mə`rifətinə görə hacət istəyir. Və Allah hər kəsə səlah bilsə onun hacətin qəbul edir. O qadın bizə aşina olduğu qədər hacətin verdik. Amma hesabı başqadır. Biz sənə lütf nəzəri ilə baxırıq. Və sizin salahınızı bunda görürük! (Kəramat Hüseyniyyə, səh.156).

## QIRX BEŞİNCİ KƏRAMƏT

### *«HƏKİM DEDİ Kİ, ÖVLADININ HƏR İKİ AYAĞI ŞİL OLUB».*

***Cənab Məhdi Hüseyn yazır:***

Təxminən 32 il əvvəl idi. Mənim yeddi yaşım olardı. O vaxt Kərbəlada yaşayırdım. Günlərin birində günortadan sonra yatmışdım. Birdən anam məni səslədi: Məhdi, yuxudan oyan!

Mən yuxudan oyanan zaman ayaqlarımı hiss etmirdim və hərəkətdən düşmüşdü.

Dedim: Ana, yeriyə bilmirəm. Anam təəccüblə soruşdu: Necə? Yeriyə bilmirsən? Tez bir maşın tapıb məni doktora apardı. Həkim müayinədən sonra dedi: Övladının hər iki ayağı şil olmuşdur. Onu tez Bağdada çatdırmalısan. Anam məni başqa bir həkimin yanına apardı. Bu həkim də əvvəlki həkimin sözlərini təkrar etdi.

Anam gözləri yaşlı halda məni tələsik Həzrət Əbul-Fəzl Abbasın(əleyhissalam) hərəminə apardı və müqəddəs zirehə yapışdırıb yalvarmağa başladı.

Anam razi-niyaz və ağlamaqla məşğul olarkən mən bir anlığa yuxuya getdim. Yuxuda hiss etdim ki, bir bağdayam. Nurani bir şəxs mənə tərəf gəldi. Mənə yetişəndə dedi:

Nəyə görə anan bu qədər narahat olub ağlayır?

Dedim: Ağa! Anamın ağlamağının səbəbi budur ki, mənim hər iki ayağım şil olmuşdur.

Dedi: Dur! Ananın yanına get. Qoyma daha ağlasın. Sənin ayağında bir şey yoxdur.

Dedim: Ağa! Yeriyə bilmirəm.

Ağa əlimdən yapışdı. Maraqlısı budur ki, mənim ağaya dediyim sözləri camaat eşidirmiş. Ayağa duran kimi sevinc qopdu. Əhali üstümə düşüb təbərrük üçün libasımı cırıb götürməyə başladılar. Anam naçar qalıb məni çadrasına bükdü. Sonra pak hərəmdən çölə çıxdıq. Anam mənə bir dəst təzə libas alıb geyindirdi. Sonra məni əvvəlki iki həkimin yanına apardı. Hər iki həkim heyrətdən təəccübdə qalmışdılar. Həzrət Əbul-Fəzl Abbasın (əleyhissalam)kəramətinə yə`qinlik edirdilər. Hər iki həkim mənə qiymətli hədiyyə veridilər. Onu da qeyd edim ki, mən evin sonuncu və oğlan uşağı idim.

Əssəlam Ələykum ya Əbul-Fəzl Abbas və rəhmətullahi və bərəkatuh!

## QIRX ALTINCI KƏRAMƏT

### *«EY DÜŞMƏNƏ QƏZƏBLİ!»*

***Seyyid Cəlil Məhdi Dezfuli hekayəni mərhum ayətullahül uzma Xoyinin hüzurunda mərhum ayətullah uzma Qumiyə nəql edir:***

Günlərin birində Əmirəl-mö`minin həzrət Əli (əleyhissalam)-ın hərəmində baş tərəfdə oturmuşdum. Gördüm bir dəstə ərəb «icazə» duasını oxumadan hərəmə girdi və zirehin dövrəsində cəm oldular. Sonra başqa bir dəstə ərəb icazəsiz daxil olaraq onların yanında səf çəkdilər. Birinci

gələnlər dururlar. İkinci dəstədə bir qadın da var idi. O, hərəmə daxil olmamışdı. İki qapı arasında durub ərz etdi: Ey Əmirəl-mö`minin! Məni ağa çıxart!

Mən bunları görən kimi bildim ki, nə isə bir iş var. Hadisədən xəbərdar olmaqdan ötrü onların yanına getdim. Qadının sözü qurtarandan sonra ikinci dəstədən bir nəfər birinci dəstədən olan cavan oğlana üzünü tutub dedi:

«De ki, Əli ibni Əbi Talibin həqqinə and olsun mənim bu işdən xəbərim yoxdur!»

Cavan oğlan qabağa yeridi və zirehin daxilindəki pak qəbrə işarə edib dedi:

«Əli ibni Əbi Talib (əleyhissalam) haqqına and olsun...........»

Amma sözü bitməmiş öz yerindən yuxarı, yə`ni, zirehin lap yuxarı qurtaracağına qədər qalxdı, sonra isə oradan kürəyi üstə möhkəm yerə çırpıldı. Belə ki, bədəninin sümükləri çilik-çilik oldu. Tezliklə can verən hala düşdü. Yanındakılar onu götürüb çölə çıxardılar. Hərəmdən çıxmamış canını tapşırdı.

Bu kəraməti görməklə orada olanlardan fəryad qopdu. Hadisəni səbəbini soruşdum. Dedilər ki, həlak olan cavan bu qadının həyat yoldaşı idi. Bir neçə vaxt imiş ki, onu incidirmiş. O qadın küsüb atası evinə gedir. Bu hadisədən bir müddət keçir. Bir gün əri onu səhrada xəlvətdə görür. Ondan cinsi əlaqədə olmaq xahişini edir. Qadın razılıq vermir, üzür gətirir ki, ola bilsin hamilə olar və bu da onun rüsvayçılığına səbəb olar. Çünki, qadın hələ də atası evində qalırmış. Cavan söz verir və and içir ki, bu gecə bir nəfər göndərib onunla barışmaq xahişini edəcək və onu öz evinə qaytaracaq. Ərəblərdə adətdir ki, əgər birisi sülh etməkdən ötrü xahiş etsə onun sözünü rədd etməzlər. Ona görə də qadın arxayın olub özünü kişinin ixtiyarında qoyur. İş elə gətirir ki, qadın hamilə olur. O kişi öz arzusuna çatdıqdan sonra verdiyi sözünə e`tina etmir və qadının ardınca heç kimi göndərmir. Bir müddət keçir və hamiləlik əlaməti qadında zahir olur. Atası soruşur bu nə işdir ki, səndə müşahidə olunur? Qadın əhvalatı atasına olduğu

kimi nəql edir. Atası cavab verir ki, bu iddianı qəbul etmək olmaz. Əgər ərin təsdiq etsə qəbuldur. Atası qızının ərinin yanına gedir və əhvalatı ondan soruşur. Amma keçmiş kürəkəni bunu inkar edir.

Atası qızına deyir: Mənim səni öldürməkdən başqa çarəm yoxdur. Əgər sənin sözün haqqdırsa, bu ölümünün günahı ərinin boynuna düşəcək. Qadın ölüm hökmünün qəti olduğunu bildikdə deyir: Heç olmasa ərimə and verdirəydin. Əgər and içərsə, mən ölüm üçün hazıram.

O kişi və qadın Nəcəf və Kərbəla çöllüyündə yaşayan köçərilərdəndir. Mənzilləri Nəcəfin dörd fərsəxliyində Kərbəlanın isə səkkiz fərsəxliyindədir. Qadın və kişi tərəfdən dəstələr cəm olur. Kərbəlaya həzrət Əbul-Fəzl Abbasın (əleyhissalam)hərəmində and içməkdən ötrü hərəkətə gəlirlər. Mənzildən çıxırlar. Yoldan bir qədərini getdikdən sonra qadının gözü həzrət Əli ibni Əbu Talibin hərəminə sataşır. Onlara ərz edir: Əmirəl-mö`minin Əli ibni Əbi Talib (əleyhissalam) həzrət Əbul-Fəzl Abbasın(əleyhissalam) atasıdır. Zəhmət olmasa Nəcəfə tərəf gedin. Qadının xahişini qəbul edib Nəcəfə gəldilər. Hadisənin isə əvvəldə gördüyünüz kimi aqibəti necə olur.

## ƏBUL FƏZL ABBASLA(Ə) ŞÜMRİN (LƏ`NƏTULLAH) DEYİŞMƏSİ

***Şümrün sözləri:***
**Ey mahi Bəni Haşim, ey şiri jəyan Əbbas!**
**Gülzari imamətdə bir sərvi rəvan Əbbas!**
◊ * ◊ * ◊ * ◊ * ◊ *
**Fərzəndi yədullahi, nəqdi əsədullahi**
**Sərnənci surullahi aləmdə nəzirin yox**
**Vallahi və billahi ey kəşdi rəşadətə**
**Sultani cahan Əbbas!**
◊ * ◊ * ◊ * ◊ * ◊ *
**Sən gövhəri yektasən, hər fənnidə ə`lasən**

**Movlalara movlasən, bu dəşdidə movlasən**
**Tiqindir əsa əldə ,sobani dəyan Əbbas!**
◊ * ◊ * ◊ * ◊ * ◊ *
**Ey sərvərnə  Mavər, ey şiri qəzənfərfər**
**Hər dərdə üzün güldü, həm dildə sözün şəkkr**
**Gəlsə qəzəbin cuşə, rkani zəmin titrər**
**Ey mehri-məhəbbətdə, bir nuri bəyan Əbbas!**
◊ * ◊ * ◊ * ◊ * ◊ *
**Bu rəşdi rəşadətdə, bu rəzmi sucayətdə**
**Bu miri məhəbbətdə, bu hüsni şucaətdə**
**Bu hüsni lətafətdə, asari sucayətdə**
**Vallahi Yezid eylər, qurban sənə can Əbbas!**
◊ * ◊ * ◊ * ◊ * ◊ * ◊
**Vallahi Yəzid eylər, haqqında sənin ehsan**
**Əmrində olar hər yan, həm məmləkəti İran**
**Kəşmiri, Səmərqədi, Gilani zəmin Tehran**
**Etmə özüni nahəq, oxlara nişan Əbbas!**
◊ * ◊ * ◊ * ◊ * ◊ * ◊
**Altında qızıl səndəl, hökmündə hami millət**
**Gey qəsri zərəndidə, ər ləhzədə bir xələt**
**İran ilə turanə, l hökmi rəvan Əbbas!**
**Həzrəti Əbulfəzl(ə):**

**Ey zulmi sitmkani ,səd seyrəti dövrani**
**Xənnas xəbisin nəfsi, bu zadeyi Şeytani**
**Ey səxdi dili bədxu, bu firqəti udvani**
**Bir zərrəcə yox səndə ,Vallahi həya ey Şümr!**
◊ * ◊ * ◊ * ◊ * ◊ * ◊
**Ey Şümri xəta pişə ,saldın məni təşvişə**
**Etdin mənə bir təklif, gətdin qəzəbin cuşə**
**Versəydi əgər izni, Zəhrayi ciyər quşə**
**Ki, sizləri eylərdim bir mərrə fəna ey Şümr.**
* ◊ * ◊ * ◊ * ◊ * ◊
**Mən bu Şaha qəm xarəm, həm yari mədəd karəm**
**Əbbasi Ələmdarəm, bu ərsədə sərdarəm**

**Dərgahi bu movladə ,bir əbdi xiridarəm**
**Min canım ola verrəm bu Şaha fəda ey Şümr.**
◊ * ◊ * ◊ * ◊ * ◊ *
**Ol zadeyi sufyanə ,həm zadeyi mərcanə**
**Hər ləhzədə min lə`nət, siz kimi müsəlmanə**
**Səddahi olub sizdə, iman evi viranə**
**Bu zülmi sitəmkanə Vallahi rəva ey Şümr.**
◊ * ◊ * ◊ * ◊ * ◊ *
**Bu yerlərə sərvərdir ,həm ərşə buləngərdir**
**Movcud olan əşyayə, xurşudi minəvvərdir**
**Fərzəndi Əlidir bu, dilbəndi Peyəmbərdi**
**Nuri dili Zəhradi, bu nuri Xuda ey Şümr.**

## QIRX YEDDİNCİ KƏRAMƏT

### *«BİR VAXT MÜXTƏLİF BƏLALARA DÜÇAR OLMUŞDUM.»*

***Qum elm ocağının böyük alimlərindən biri adının çəkilməsini istəmədən buyurur:***

«Bir vaxtlar müxtəlif bəlalara düçar olmuşdum. İmam Rza (əleyhissalam)-ın ziyarətindən ötrü anasız qalan uşaqlarımı da götürüb Məşhəddə özümə layiq olmayan bir mehmanxanada yer aldım. Mübarək Ramazan ayı yetişdi. Təxminən iki ay yarım 8-ci imamın ziyarətini davam etdirdim. Qur`an oxuyub, həzrətdən müxtəlif yollarla hacətimi istəyirdim. Çox nigaran idim. O rəhmət dəryasında hacətimin qəbul olunmasında heç bir işarə hiss etməmişdim. Bə`zi duaları o qədər təkrar oxumuşdum ki, əzbərdən bilirdim. İki aydan sonra birdən yuxudan ayıldım və hiss etdim ki, bütün bu duaları dalbadal əzbərdən düzürəm. Dilimdə əzbər olan dua bu idi:

***«Ya kaşifən kurəbi ənil vəchil Hüseyn (əleyhissalam) İkşif kurəbi bi həqqi əxikəl Hüseyn!».***

Məşhəddən Quma gəldim. Moizəyə qulaq asmaq üçün alimlərdən birinin evinə getmişdim. Bir nəfər mö`min alim minbərdə moizə edərkən belə söylədi: Hər kəs bu duanı 133 dəfə təkrar etsə hacəti qəbul olmuş olar. Məclisdə duanı əzbər bildiyim üçün belə də etdim. Bütün hacətlərim qəbul oldu. İşlərim öz yoluna düşdü və giriftarçılıqdan qurtardım. Bu vaxta qədər bu duadan kömək alıram. Öz adımı qeyd etmirəm, amma hadisə dediyim kimidir. Ümidvaram ki, əziz qardaşlarım öz pənah yerlərini tapsınlar!

Əssəlam Ələykum və rəhmətullahi və bərəkatuh.

# QIRX SƏKKİZİNCİ KƏRAMƏT

## *«YA ƏBUL-FƏZL ABBAS(Ə), O KƏSİLMİŞ UZUN QOLLARINI!....»*

***Höccətül-islam vəl-müslimin Hacı şeyx Əhməd Xudayi Zəncani yazır:***

(İslam inqilabından əvvəlki illərin birində) Yayın isti və uzun günlərindən biri idi. Bir neçə nəfər jandarm kəndimizin kəndxudası olan rus mühacirin evinə tərəf getdilər. Əhalinin gözü jandarmalara düşən kimi şivən-nalə hər tərəfdən qalxdı. Xüsusilə, əsgərlik yaşına düşən kiçik yaşlı uşaqları olanlar çox narahat olurlar. Bilirdilər ki, bunlar fəqir və əliboş camaatın cibini əsgərlik bəhanəsi ilə soymağa gəliblər.

Çox keçəmdi kəndin carçısı qalın və qorxulu səsi ilə vəziyyəti əhalinin nəzərinə çatdırır: «Nə qədər bacarırsızsa cavan uşaqlarınızı əsgərlik üçün göndərin gəlsin.» Sonra əlavə edir: «Əgər qaçan və gizlənən olsa belə və belə edəcəyik». O biri tərəfdən kəndxudanın dəllalları işə başladılar. Tanıdıqları və münasib adamları görüb hər birindən uşaqlarının əsgərlikdən müəyyən müddət qalmaq və yaxud bağışlanmaq üçün müəyyən məbləğ pul və qoyun almağa başlayırlar.

Mənim qardaşlarımdan birinin əsgərlik yaşı keçmişdi, indi də əsgər getməli idi. Mərhum atam rüşvət əhli deyildi. Həmin gecənin sabahı əsgərlər Təbrizin Bəsməng düşərgəsinə getməli idilər. Atam, qardaşıma belə dedi: Oğlum! Mən nə rüşvət əhliyəm, nə də ki, bu qədər pulum var. Get! Allah amanında! Ya e`zam olarsan, ya da qayıdarsan.

Sübh tezdən qardaşım ailəmizin ağlaşma səsi müşayəti ilə, xüsusilə anamın və başqa qohumlarımızın narahatçılıqları içində əsgərlərin bölməsinə yola düşdü. Yaxşı yadımda deyil. Həmin günün axşam çağısı, yaxud sabahısı, e`zam olmayanlar Bəsmənc məntəqəsindən kəndə qayıtdılar. Qardaşım onların arasında yox idi. Mə`lum idi ki, e`zam olunmuşdu. Şam namazının vaxtı yetişmişdi. Anam başa düşür ki, oğulunu

əsgərliyə ötürüblər. Bu xəbəri eşitcək anamın nə etdiyi yadımda deyil. Lakin bu səhnəni heç vaxt unutmaram.

Namazdan sonra anam qibləyə oturduğu yerdə namaz çadrasının ətəyindən tutan halda qiblə tərəfə əl uzadıb xalis niyyətlə dedi:

«Ya Əbul-Fəzl Abbas! O qələm olmuş uzun qollarını uzat mənim balamı qaytar!»

Bu sözü dedikdən sonra ağlamağa başladı. O bu cümləni bir neçə dəfə təkrar etdi və dedi: «Ya Əbul-Fəzl Abbas! Mən uşağımı səndən istəyirəm.» Üç gün keçmişdi. Bu üç gündə anamın işi-gücü ancaq ağlamaq idi. Həmişə öz-özünə bu cümləni təkrar edirdi. Bəlkə də həzrət Əbul-Fəzl Abbas(əleyhissalam) üçün nəzir etmişdi.

Üç gündən sonra gecə yarı gözümüz önündə qardaşım içəri girdi. Anam sevincindən ağlamağa başladı. Dedi: Gördünüz uşağımı həzrət Əbul-Fəzl Abbasdan(əleyhissalam) aldım. Həzrət uşağımı zalimlərin əlindən aldı!

Qardaşımdan soruşdum: Nəyə görə qayıtdın? Nə oldu ki, qayıtdın? Dedi: Bizi Urmiyyə düşərgəsinə apardılar. Bir azdan sonra əsgər paltarı geyindik. Tə`lim meydanına apardılar. Bir nəfər zabit gəlib bizi sıraya düzüb saymağa başladı. Sayıb qurtarandan sonra dedi:

Bir nəfər artıqdır.

Sonra qədəm vura-vura hamını nəzərdən keçirməyə başladı. Mənə çatanda əlini mənim çiynimə qoyub dedi:

«Çıx çölə!» Mən sıradan ayrıldım. Sonra məni idarəsinə apardı. Sənədlərimi gətizdirdi. Bir məktub yazıb mənə verdi, birini isə sənədlərin üstünə qoydu. Mənə belə dedi:

Sən həmişəlik əsgərlikdən azadsan. Bu da sənin azad olmaq kağızın. Get salamatçılıqla!

Əsgərliyin müşkilatını bilənlərə aydındır ki, hansı oyunlardan sonra azad olurlar. Mənim işim lap mö`cüzəyə oxşayırdı.

Bəli, bu cavanın harayına anasının pak niyyətli nalələri və həzrət Əbul-Fəzl Abbasın(əleyhissalam) kəraməti yetişdi.

# QIRX DOQQUZUNCU KƏRAMƏT

## *«MƏNİM AĞAM, GÖRMÜRSƏNMİ? EŞİTMİRSƏNMİ?»*

***Ayətullah mərhum hacı şeyx Abbas Əli İslami yazır:***

1.Mərhum hacı seyyid Məhəmməd Ərəb neçə illər həzrət Əbul-Fəzl Abbas ibni Əlinin (əleyhissalam) hərəmində xidmətçi olumuşdur. Bir gün ondan soruşdum: Xidmət etdiyin dövrlərdə o həzrətdən kəramətlər müşahidə etmisənmi? Seyyid buyurdu:

Əlbəttə! O həzrətin «Kəramət evi» olması heç də əsassız deyil. Mən çoxlu kəramətlər görmüşəm. Mən öz gördüklərimdən sizə nəql edirəm:

Günlərin birində xidmətçilərlə birlikdə pak hərəmin eyvanında oturmuşduq. Söhbətə məşqul idik. Birdən ərəb bir kişi səhnəyə gəlib o Həzrətə belə ərz etdi:

Mənim ağam! Məgər görmürsənmi? Məgər eşitmirsənmi?....

Mən yaxına gedib onun əhvalını öyrənmək istədim. Amma o mənim sinəmə əlini basıb zirehə tərəf getdi. Əlini zirehin içinə uzadıb ərz etdi:

Əlinin oğlu! Mallarımı səndən istəyirəm! Bir az keçməmiş əlini geri çəkdi. Əlində balaca kisədə nə isə var idi. Onun içi Osmanlı lirəsi ilə dolu idi. Fəryad edir:

Allaha and olsun ki, bu Babul-həvaicin kəramətindəndir!

Bu hadisənin nə olduğunu soruşdum. Dedi: Səudi çöllüklərində yaşayan köçərilərdənəm. Nəcəfə ziyarətə gələn vaxtı mallarım oğurlanmışdı. Nəcəfdən Kərbəlaya qədər «Babul-həvaicdən» şəfaət istəyirdim. Allaha çox şükür ki, məqsudimə çatdım.

## ƏLLİNCİ KƏRAMƏT

### *MƏN BU UŞAĞI İSTƏMİRƏM!*

2. İkinci xatirə balaca kor və əlil qız barəsindədir. Biz hadisəni gözümüzlə görürdük. Qızın anası onu arabasına qoyub pak hərəmə gətirmişdi. Balaca qız uşağını zirehin müqabilində yerə qoyub ərz etdi:

«Mən bu uşağı istəmirəm!»

Bu sözü deyib, qayıtdı. Səhnənin ortasına çatmamışdı ki, qız şəfa tapdı. Mən qızın anasını çağırıb dedim:

Gəl qızını da özünlə apar!

Ərəb qadın qayıdıb qızını sağlam gördükdə Həzrətə belə ərz etdi: «Mənim mövlam! Allah sənə yaxşı mükafat versin.»

Bəli, həzrət Əbul-Fəzl Abbas (əleyhissalam) «Babul-həvaicdir». Ondan istifadə edin.

## ƏLLİ BİRİNCİ KƏRAMƏT

### *EY ƏCƏBA! BUDUR KƏRAMƏTİN MƏ`NAS! BUDUR «BABÜL-HƏVAİC» MƏQAMI!*

***Aşağıdakı kəraməti dostlarımdan yazıb.***
***Cənab Məhəmməd Əli Hüseyn oğlu, Kərbəla sakini:***

«Övladlarımdan biri (Möhsün adlı) anadan olduqda vəziyyəti yaxşı deyildi. Müalicəsindən ötrü iki ay həkimlərə

müraciət etdim. Lakin heç bir tə`siri olmadı. Günü-gündən vəziyyəti ağırlaşır və bədəni də arıqlayırdı. Nəhayət, günlərin birində günortadan sonra idi. Mərhum atam dükana gəlib mülayimcəsinə buyurdu: «Dükanı bağla evə gedək.» Mən təəccüblə ondan soruşdum: Axşama hələ çox var. Nəyə görə tələsirsən? Nəhayət, atamın israrı ilə dükanı bağlayıb evə yola düşdük. Yol arasında atam özünə məxsus aram və mülayim nəsihəti ilə söhbətə başladı. Ehsas etdim ki, bəlkə də övladımın başına nə isə xoşagəlməz bir iş gəlməlidir. Atam mənə təsəlli üçün bütün bunları nəql edirdi.

Mənzilə çatdıq. Mən otağa daxil olub xoşagəlməz vəziyyətlə rastlaşdım. Övladım Möhsün qibləyə tərəf uzanmışdı. Başının üstündə bir cild Qur`ani-Kərim vardı. Anası, nənəsi və başqa qohumların gözləri yaşlı idi. Bu uşaqdan əvvəl mən Həsən adlı bir yaşlı uşaq da itirmişdim. Onun dağı hələ də sinəmdən çəkilməmişdi. Çox narahat olmuşdum. Birdən ixtiyarsız olaraq otaqdan çölə çıxdım. Müqəddəs məkana, yə`ni «Babul-həvaic» həzrət Əbul-Fəzl Abbasın(əleyhissalam) hərəminə yola düşdüm. İçəri girib pak zirehdən möhkəm yapışdım. Xahiş halında ona ərz etdim:

***Ya vəcihən indəllah işfə li indəllah, fi şifai vələdi. Ya babəl həvaic. Ya Əbəlfəzl vəl-kərəm vəl-cud. La turəddini xaibən ya səyyidi!.»***

Sonra yenə də sözlərimi və xahişimi təkrarladım. Övladıma şəfa istəyirdim. Həzrətin hərəmində divanələr kimi o tərəf bu tərəfə qaçırdım. Bu səhnə yarım saata qədər davam etdi. Sonra hərəmdən çıxıb mənzilimə tərəf gəldim. Evə yaxınlaşanda qardaşımla rastlaşdım. Məni görcək dedi:

Qardaş harda idin?

Dedim: Həzrət Əbul-Fəzl Abbasın(əleyhissalam) hərəminə getmişdim.

Qardaşım gülərüzlə dedi:

Sənə müjdə olsun ki, uşağın sağaldı. Onun xəstəliyi aradan getdi. Heç narahatçılığa dəyməz!

Mən uşağımı ölüm halında qoyub getdiyimə görə fikirləşdim ki, qardaşım məni sakit etməkdən ötrü bunu söyləyir. Amma evə daxil olan kimi atam məni qucaqlayıb dedi: Oğlum hardaydın? Dedim: Həzrət Əbul-Fəzl Abbasın (əleyhissalam)hərəmində idim. Dedi: Xoş sənin halına ki, övladının şəfaətini ondan aldın. Sonra atam mənim üzümdən öpüb birlikdə uşaq olan otağa daxil olduq. Oğlumun nənəsi də gülərüzlə mənə dedi: Oğlum özündə heç bir şübhəyə yer vermə. Oğlunun kəsaləti aradan getdi. İndi yatıb, yuxudadır.

Oğluma yaxınlaşanda onun üzünə baxdım. Bir neçə saat bundan əvvəl rəngi saralmış uşağın eyni açılmışdı. Anasından uşağın halını soruşdum. Dedi: Sən burdan getdikdən bir az sonra gördüm uşağım dərindən nəfəs aldı. Gözlərini açıb təbəssümlə bizlərə baxdı. Elə ki, yaxşılaşdığını gördüm ona süd verdim. İndi də yuxudadır.

Mən sevindiyimdən övladıma heyran qalmışdım. Öz-özümə dedim: Ya Əcaba! Budur kəramətin mə`nası! Budur «Babul-həvaic» həzrət Əbul-Fəzl Abbasın(əleyhissalam) məqamı!

Biz hamılıqla Allaha şükür etdik. Ondan sonra gündən-günə övladımın vəziyyəti yaxşılaşdı və tamam sağaldı.

Vəlhəmdu lillahi rəbbil aləmin. Vəssəlam!

### *Nöhə*

**Mən fəda canuva qardaş nə yaradur bədənün?**
**Batmısan qanuva qardaş nə yaradur bədənün?**

◊◊ ◊◊ ◊◊ ◊◊

**Dilə gəl ey yarali bircə danış Zeynəbilən!**
**Məni bu şəhrə gətirdün sən axı zillətilən!**
**Bağlayıblar qolumi indi mənim zəncirilən**
**Qurbanam canuva qardaş nə yaradur bədənün.**

◊◊ ◊◊ ◊◊ ◊◊ ◊◊ ◊◊

**Şimri qoli bağlı çəkibdir bu biyabənə bizi**
**Mindiribdir baş açıq naqeyi üryanə bizi**
**Gəzdirir zillət ilə zülm ilə həyanə bizi**
**Bax bu evladuva qardaş nə yaradur bədənün.**

◊◊ ◊◊ ◊◊ ◊◊ ◊◊ ◊◊

**Kəsilib başi bədəndən məni bir yaduva sal**
**Ölürəm Şami rəvan qollaruvi boynuma sal**
**Ağlayır xırda Səkinə bacuvi yaduva sal**
**Nəzər et bacuva qardaş nə yaradur bədənün.**

◊◊ ◊◊ ◊◊ ◊◊ ◊◊ ◊◊

**Yoxdi çarəm ayırıblar səni məndən gedirəm**
**Əl çəkim mən necə qardaş bu cahandan gedirəm**
**Ayırıb Əkbəri Qasim bu cahandan gedirəm**
**Salmırsan yaduva qardaş nə yaradur bədənün.**

◊◊ ◊◊ ◊◊ ◊◊ ◊◊ ◊◊

**Sən deyirdün məgər evladi Peyğəmbər balası**
**Vurulub peykərüvə nizevu xəncər yarasi**
**Baş açıqdır bu Əli Əkbərin ağlar anası**
**Çatmadun kamuva qardaş nə yaradur bədənün.**

◊◊ ◊◊ ◊◊ ◊◊ ◊◊ ◊◊

**Mən Hüsen aşiqiyəm ağlayıram sübhi məsa**
**Deyərəm nohə canım belə movlaya fəda**
**Raci məhşərdə əzadaruva ver əbri cəza**
**Batmısan qanuva qardaş nə yaradur bədənün.**

## ƏLLİ İKİNCİ KƏRAMƏT

### *«BU XƏBƏRİ EŞİTMƏKLƏ AĞLAMAQ MƏNƏ İMKAN VERMƏDİ!»*

***«Allahın adı ilə...........***

Mən Məhəmməd Səfər Kazimiyəm. 45 il bundan əvvəl novruz bayramına bir həftə qalmış öz idarəmizdən şəhər icra hakimiyyətinə gizlin bir məktub aparmalı idim. Sübh saat 10-da Topxana xiyabanından hərəkətə gəldim. «İnqilab» xiyabanında dayandım, motosikiletin tərkinə qoyduğum çantaya baxmaq istədim. Çünki məktub onun içində idi. Təəssüf ki, nə çanta nə də məktubdan əsər-əlamət yox idi.

Bunu gördükdə ömrümün, həyatımın sonu və uşaqlarımın yetim qalmasını gözümün önünə aldım. O vaxt özümü ölü bir şəxs kimi hiss etdim. Hesab etdim ki, ruhum bədənimdən çıxıb. Bir təhər dövr vurub Topxana prospektinə tərəf qayıtdım. Ola bilsin çantamdan bir əsər qalmış oldu, amma heç bir şey tapa bilmədim.

Nəhayət, özümü tale yoluna tapşırdım və idarəyə gəldim. İdarə rəisini hadisədən xəbərdar etdim. Həmin andan mənim həbs olunma hökmüm verildi. Pəncşənbə günü idi. Saat 12-də idarə tə`til olurdu. Amma, əsl saat, Allahın lütf və mərhəmətinin nazil olması saatı idi. Dostlarım bir-bir mənimlə xudahafizləşirdi. Saat əqrəbi 12-dən keçdi. İdarə bağlandı. Mən idarənin rəisi və bir də katibə qaldı. Mənim zindana getmək məktubum hazırlanırdı. Çap maşinkasının düymələri işləməyə başladı. Bildim ki, bəndənin talehini həll edirlər. Qəlbim sanki işləmirdi. Soyuq tər dənələri üz-gözümü bürümüşdü. Bütün ailə üzvlərimi gözümün önündə canlandırdım. Bilmirdim nə edəm? Bayram gecəsinə bir həftə qalmışdı. Bu da mənim üçün çox ağır idi. Çünki bilirdim ki, bu il uşaqlar mənə görə bayram etməyəcək, təzə paltar geyməyəcək və heç kəs onların qapısını döyüb açmayacaq. Onların bayramcalıqlarına gəlməyəcklər.

Pəncşənbə günü saat ikinin yarsını keçmişdi. Qarşıdan cümə axaşamı gəlirdi. Hər tərəfi sakitlik tutmuşdu. İş yerimdə olduğum otaqda məndən başqa kimsə yox idi. Hər şey bu andan sonra başladı. Otağın qapısını bağladım. Sanki dünya başımda xarab olmuşdu. Birdən özümə gəlib fikrə getdim. Öz-özümdə gələcək vəziyyətimi təsəvvür etdim. İlahi, görəsən nə olacaq? Bu siyasi bir məsələ idi. İnqilab iyi yavaş-yavaş burnuma gəlirdi. Əhali qalxmışdı. Öz-özümə fikirləşdim ki, bu məsələyə başqa qeyri-qanunu yolla yanaşmaq olmaz. Belə olsa da pulum yox idi. Hara pənah aparım? Hara gedim?

Mən özüm «nizami» bölməsinə daxil olanda «Babul-həvaic» həzrət Əbul-Fəzl Abbasın(əleyhissalam) kəramətinə xüsusi rəğbətim vardı. Qəməri bəni Haşim adlı bir dəstəmiz də

vardı. «Qəməri Bəni haşimin ayının» bayrağı altında o həzrətə rövzəxanlıq edirdik. Bu gün bizə bu iş bir iftixar idi. Hər il sinə vurmaq və mərsiyə məclislərimiz olurdu. Qəti qərara gəldim ki, həzrət Əbul-Fəzl Abbasın (əleyhissalam) qapısına gedib bu açılmaz qapının açarını istəyəcəm. Əziz dostlar ona da diqqət yetirin ki, Allah yanında uca məqamlı şəxslərə pənah aparmağın da ədəb qaydaları var. Nə qədər ki, insan bütün batinini hər şeydən üzməsə və özünü ölümlə üzbəüz görməsə nəticə almayacaq. Əgər bu halət sizə üz versə feyzə yetər və nəticə alarsınız. Qibləyə tərəf durub sağ dizimi yerə atdım, iki əllərimi göyə qaldırdım, sanki heç burada deyil və heç bir şey görmürdüm. Vəhşət bütün bədənimi bürümüşdü. Ucadan üç dəfə çağırdım:

Ya Əbul-Fəzl Abbas! Ya Əbul-Fəzl Abbas! Ya Əbul-Fəzl Abbas! Köməyə yetiş!

Daha heç bir şey anlamadım. Başımın tükləri düz durmuşdu. Başımı iş stolunun üstünə qoymuşdum. Amma özüm vəziyyətimdən xəbərsiz idim.

Bu iş 3–5 saniyədən çox çəkmədi. Başımın arxasında əl hiss etdim. Katibə idi. Onu gördükdə işimi tamam hesab etmiş oldum. Təsəvvür etdim ki, məni məktubla birlikdə mə`murlara verəcəklər. Ağlamsın halda dedim:

Ağa! Bəndə hazırdır!

Birdən dedi:

Nə danışırsan? Ayağa dur, məktub tapılıb!

Bu kəlməni eşitməklə hiss etdim ki, bu sözlərlə mənim həyacanımı azaldıb yola vermək istəyirlər. Ona görə də dedim:

Qardaş! Daha mənim işim tamamdır. Mən hər şeyin fikrini etmişəm.

Dedi: Cənab Kazimi! Allaha and olsun ki, məktub tapılıb? Onu bir taksi sürücüsü gətirdi. İçəridə mə`lumat stolunun üstünə qoyub getdi. Amma çantanı özü ilə apardı. Çünki, çanta lap təzə idi. Birinci dəfə idi ki, içinə yalnız bir məktub qoyulmuşdu.

Bu sözü eşitməklə daha ağlamaq mənə macal vermədi. Həm sevincdən həm də həzrət Əbul-Fəzl Abbasın(əleyhissalam) bu kəramətindən. Başım, canım ona qurban. Bir göz qırpımında Kərbəladan mənim xahişimə «**Ləbbeyk!**» dedi.......

Hər halda rəis məni yanına çağırıb dedi:

Kazimi! Anan var?

Dedim: Bəli. Lakin bu işdən xəbəri yoxdur.

Dedi: Çox yaxşı bəxt adamsan.

Dedim: Bu işin bəxtə aidiyyatı yoxdur.

Dedi: Bəs nəyə bağlılığı var?

Dedim: Dayılığa!

Dedi: Bilirsən ki, bu işin siyasi mövzusu var, burada dayılığa yer yoxdur.

Dedim: Nə üçün? İmkan var. Mənim bir arxam var ki, bu gün onun qapısını döydüm, o da qapını üzümə açdı və işimi düzəltdi. Əhvalatı əvvəldən ona söylədim. Sonsuz həddə tə`sirləndi və gözləri dolu halda mənə təbrik ərz etdi.

Burada Qur`ana and içirəm ki, həqiqətdən başqa bir şey demədim. Qəməri Haşim Əbul-Fəzl Abbasa(əleyhissalam) and olsun dediklərim birbə-bir düzdür!

İmam Hüseyn (əleyhissalam) adına nəşriyyatdan intizarım budur ki, bu məktubu da çap etsinlər.Bununla da Əbəlfəzl (əleyhissalam) aşiqləri nə istəsələr onun qapısından istəsinlər.

Vəssəlam!

## ƏLLİ ÜÇÜNCÜ KƏRAMƏT

### *«MƏNİM HÜSEYNİYYƏYƏ GETMƏMƏYİMİN SİZƏ DƏXLİ YOXDUR!»*

***Cənab Əbdürrəzzaq Piri Qumlu yazır:***

«Bu kitabı cəm edən Şeyx Əli Rəbbani Xalxaliyə salam ərz edirəm. Əbul-Fəzl Abbasın kəramətlərindən birini yazmaq istərdim. Əvvəlcə bir müqəddiməni nəzərinizə çatdırıram:

Mən Əbdürrəzzaq Piri anamı itirəndə təxminən, 12 yaşım var idi. O illər Zəncan şəhərinin kəndlərindən olan Quğamvis kəndində yaşayırdıq. O ildən ƏbulFəzl Abbas (əleyhissalam) adına dəstəmiz təşkil olunmuşdu. Mən də anamın nəzrinə və əhdinə görə bu hey`ətə üzv yazılmışdım. Bir müddət sonra qardaşımla birlikdə təzədən Məşhədə gedib «Ərbəini»(imam Hüseyn(əleyhissalam)-ın şahadətinin qırxıncı günü) o pak diyarda keçirdik. Ondan sonra qərara aldıq ki, həyatımızı pak və müqəddəs şəhər sayılan Qum şəhərində həzrət Fatimeyi-Mə`sumənin(salamullahi əleyha) hərəmi ətrafında davam etdirək. Xoşbəxtlikdən o ildən sonra hər il «ərbəini» Məşhəddə imam Rza (əleyhissalam)-ın pak hərəmində keçiririk. Rəcəb ayının üçündə (4–5 il əvvəl) həzrət imam Əliyyən Nəqi (əleyhissalam)-ın şəhadəti günü balaca qardaşımla birlikdə «Həzrət Əbul-Fəzl Abbas (əleyhissalam)» adlı məkanda (Hüseyniyyədə) bu binanın tə`miri ilə məşğul idik.Üçüncü təbəqədə iş görürdük. Əbulfəzl adlı beş yaşlı oğlum da yanımda idi.Oynamaqla məşğul idi. Birdən uşaq gözümdən yoxa çıxdı.Nə qədər çağırdımsa cavab gəlmədi. Ona görə də çox nigaran oldum. Üçüncü təbəqədən yerə kimi yol uzaq olduğuna görə uşaq bu tezliklə aşağı düşə bilməzdi. Tez durdum ki, ona xəbərdarlıq edim. Birdən gördüm ki, oğlum Əbülfəzl, pillədən üzü aşağı havadan asılı vəziyyətdə yerə yıxılmaq halındadır. Nə qədər sür`ətlə yüyürdümsə ki, ona çatıb götürüm, amma axırıncı pilləyə çatanda müvəffəq olmadım. Aşağı düşdüm. Birdən ağlıma gəldi ki, uşağı aşağıdan tutum. Amma nə qədər çalışdımsa buna da müvəffəq ola bilmədim. Uşaq yuxarıdan əli pillədən üzülüb top kimi fırlanıb sür`ətlə yerə dəydi. Həmin anda cani dildən bir dəfə:

«Ya Əbul Fəzl Abbas!» deyə fəryad çəkdim. O səhnəni gördükdən sonra nə danışmaq nə də hərəkətə qüdrətim

olmadı. Fikrim bu məsələdə qaldı ki, uşaq artıq sağ qalmaz. Elə oradaca keçinib. Ona görə də gözü yaşlı, ümidsiz halda onun başı üstünə gəldim. Qardaşım da mənə qoşulmuşdu. Vəziyyət elə idi ki, öz-özümə dedim: Əgər bu uşaq sağ qalsa da qol-qabırğası sınmış olar. Hər şeydən xəbərsiz halda uşağı qanlı torpağın üstündən götürüb motoçikletin üstünə qoydum. Onu da deyim ki, əlimi uşağın başına vuranda hiss etdim ki, uşağın başı tamamilə boşalıb, yə`ni əzik-üzük olub.

Bəli! Dərhal motosikletlə uşağı xəstəxanaya yetirdim. Amma, intizarımın əksinə olaraq xəstəxanaya az qalmış gördüm oğlum ağlamağa başladı. Məndən soruşdu :

Nə olub baba! Hara gedirik?

Xəstəxananın tə`cili yardım şö`bəsində uşağı hər tərəfli, başın, belin, ayaqların və boynun yoxlayıb analiz verdikdən sonra xəstəxananın həkimi izhar etdi ki, bu uşaqda heç bir sınıqlıq və eyb yoxdur. Analiz nişan verir ki, uşaq tamamilə sağlamdır. Bununla belə həkim xətər əlamətləri olaraq 24 saatdan sonra uşaqda qusma, ürək bulanması müşahidə olunarsa tez bizə müraciət olunmasını tapşırdı.

Xəstəxanadan mənzilə gəldik. Ev əhli hamısı nigaran və ağlar idilər. Uşağı yatağında yatızdırdım. Bir çox qonşular və qohumlar bizə yığışdılar. Mən hadisəni nəql etdikcə hamı heyrət və təəccübdə qalmışdı. Hamısı bir sözü təkrar etdilər o da bu idi ki, bu hadisə böyük bir kəramətdir. Heç vaxt heç kim o hündürlükdə yerdən yıxıla və o qədər zərbə yedikdən sonra sağ qalmaz. Hamısı oğlumu məzəmmət etməyə başladılar ki:

Nəyə görə Hüseyniyyəyə getmişdin? Nəyə görə yıxıldın? Necə yıxıldın? Bir daha Hüseyniyyəyə getməzsən!. Ordakı ustalar iş görür, sənin üçün xətərlidir!.

Birdən gözləmədiyimiz halda uşağın bu sözlərə cavabı lap mö`cüzə oldu.Uşaq (Əbulfəzl) yerindən qalxdı. Beş yaşı olması və bədəninin çox yerinin əzilməsinə baxmayaraq ixtiyarsız və güman olunmayan halda fəryad çəkdi:

Ya Hüseyn! Ya Hüseyn! Ya Əbul-Fəzl Abbas!

Əlini sinəsinə vurub dedi: Sizlərə dəxli yoxdur ki, mən Hüseyniyyəyə gedirəm. Bəli, mən gedirəm. Mən çox istəyirəm ki, ora gedəm. Sonra ağlamağa başladı. Mən onu qucağıma alıb ata nəvazişi ilə sakitləşdirdim. Bu bir kəramət və mö`cüzədir ki, sizlərə nəql etdim.

## ƏLLİ DÖRDÜNCÜ KƏRAMƏT

### *«QƏMƏRİ BƏNİ HAŞİMİN (Ə) GÜCLÜ BAXIŞI»*

***Cənab höccətül-islam vəl-müslimin alim, arif seyyid Mürtəza Müctehidi Sistani yazır:***

Bir neçə il bundan əvvəl qış fəslində mərhum Seyyid Abbas Rəisi qalı havadv sürüşüb yıxılır. Ayağının yuxarı hissəsi sınır. Bir müddət xəstəxanada, sonra isə oğlu seyyid Əli Əkbər Rəisinin mənzilində yatır. Lakin qocalığın tə`sirindən onun qıçı sağalmaq bilmirdi. O vaxta qədər ki, bir gün oğlunun mənzilində olan vaxtı görür ki, Həzrət Əbul-Fəzl Abbas (əleyhissalam) ata minmiş halda həyətə daxil olur. Əvvəlcə onun yatdığı otağın müqbailində durur, daha sonra baxıb gedir. O tə`sirli baxışdan sonra mərhumun yaşının 80-ı keçməsinə baxmayaraq ayağı yaxşı olur və yol yeriyə bilir.

Elə bir baxış ki, ölüyə can verir. Bu baxış sınıq sümüyün bitişməsində də aciz qalmaz!

## ƏLLİ BEŞİNCİ KƏRAMƏT

### *GƏMİDƏ RÖVZƏXANLIQ!*

***Cənab höccətül-islam vəl-müslümin Hacı şeyx Məhəmməd Kazim Pənah Rudsəri, Qum elm ocağından olan alimlərdən biri yazır:***

Mən hacı şeyx Məhəmməd Kazim Pənah Rudsəri hicrətin 1417-ci ilində ayətullah seyyid Təyyib Cəzairinin mənzilində höccətül-islam hacı şeyx Əli Rəbbani Xəlxalinin xidmətində idim. Orada bu iki kəraməti nəql etdim:

«Mərhum ayətullah uzma hacı şeyx Məhəmməd Əli Əraki (r.ə) 1397-ci hicri ilində övladı höccətül-islam vəl-müslimin hacı şeyx Əbul-Həsən Müslihi ilə birlikdə İraqa imamların ziyarətinə gedilər. Mən bir neçə nəfər tələbə dostumla birlikdə mərhum Ərakinin xidmətində olduq. O, bizə bir neçə mətləb nəql etdi. Onlardan biri də həzrət Əbul-Fəzl Abbas (əleyhissalam)  barəsindəki kəramət idi.

O, buyurdu: Atam öz zəmanəsinin alimlərindən biri idi. Məkkəyə ziyraətə gedir. Qayıdarkən gəmi ilə İrana gəlməli olur. Gəminin Cəddə limanından İranın limanlarından birinə gəlməsi on beş gün çəkir. Bu günlər məhərrəmliyə düşür. Təbii olaraq gəmidə mərasim bərpa olunur. Xoşbəxtlikdən bir neçə hacı dəstələri rövzə məclisləri qurmuşdular.

İş elə gətirir ki, bu vaxt gəmidəkilər arasında vəba xəstəliyi yayılmağa başlayır. Sərnişinlərdən bir çoxu bu xəstəliyin səbəbindən canını əldən vermişdi. Onların cənazələrini başqa sərnişinlər şər`i qanunla hazırlayıb dəryaya atırdılar. Bu arada atam da möhkəm xəstələnir. Elə həddə çatır ki, dostları onu yoxlamağa gələndə biri digərindən onun əhvalını soruşur ki, ağanın halı necədir? Cavabında ümidsizliklə başını bulayır. Bildirmək istəyir ki, atamın vəziyyəti elədir ki, sağalmağa heç bir ümid yoxdur. Bu vaxt atam İmamlara(əleyhimussalam) pənah aparır. Nəhayət, Aşura gecəsi tasua yetişir. O gecə atam həzrət Əbul-Fəzl Abbasa(əleyhissalam) pənah aparıb şəfaət istəyir. Ondan sonra atamın halı yavaş-yavaş yaxşılaşır və sağalmağa doğru gedir. Nəhayət, bu xahişlərə səbəb atam tamamilə sağ-salamat vətənə qayıdır.

## ƏLLİ YEDDİNCİ KƏRAMƏT

### *«UŞAĞIN ADINI ABBAS, LƏQƏBİNİ İSƏ ƏBUL-FƏZL QOYUR.»*

***Cənab Əbdül Hüsyen Cəvahir Kəlam mərhum ayətullah uzma Sahibi Cəvahirin dilindən yazır:***

1.Babamın babası mərhum, seyyidə bir qadınla evlənir. Bir neçə müddət övladları olmur. Həkimlərdən və dava-dərmandan ümidləri üzüldükdən sonra möhkəm e`tiqadla Kərbəlaya səfər edir və həzrət Əbul-Fəzl Abbasdan (əleyhissalam) övlad istəyirlər. Allah onların dualarını eşidib az vaxt keçməmiş onlara bir oğlan uşağı əta edir. Ona görə də uşağın adını Abbas, ləqəbini isə Əbulfəzl qoyurlar. Bu uşaq uşaqlığ çağından qocalana qədər həzrət Əbul-Fəzl Abbasın (əleyhissalam) məhəbbətini qəlbində möhkəmlədir. Əbul-Fəzl Abbası (əleyhissalam) köməyə çağırır.

## ƏLLİ SƏKKİZİNCİ KƏRAMƏT

### *«BİRDƏN AYAĞI DAŞA DƏYİR»*

2. Mərhum Əbdül Hüseyn Cəvahir bir gün mineral su aparırmış. Birdən ayağı daşa ilişib yerə yıxılır. Əlindəki çanta yerə dəyir və içində olan bir çox şüşələr sınır. Sınıq şüşələr onun bədəninə xəsarət vurur. Ən başlıcası isə onun gözü ağır yaralanır. Gözünə şüşə batdığını hiss edəndə dərhal həzrət Əbul-Fəzl Abbasın(əleyhissalam) pak hərəminin müqabilində iki gümüş göz qoymasını nəzir edir. Nəzirdə bildirir ki, əgər bu yaradan gözlərini əldən verməyib sağalsa, bu işi görəcək.

Müalicədən sonra onun gözündən sınıq şüşələri çıxardırlar və gözü tam sağalır. Bundan sonra mərhum Əbdül Hüseyn İraqa imamların ziyarətinə gedib Kərbəlanı ziyarət etdikdən

sonra həzrət Əbul-Fəzl Abbasın(əleyhissalam) pak hərəminin qapısına iki gümüş göz düzəltdirir.

## ƏLLİ DOQQUZUNCU KƏRAMƏT

### *«MÜNASİB VAXTA QƏDƏR ONA ŞƏFA VƏ`DƏSİ VERİR»*

***Cənab höccətül-islam vəl-müslimin alim hacı seyyid Əli Əkbər Hairi, Qum sakini yazır:***

«Hadisənin xülasəsi belədir: Mütəxəssis həkimlərin müalicəsindən sonra möhkəm xəstələnmiş oğluma «yox» cavabı vermişdilər. Anası Əmirəl-mö`minin Əli (əleyhissalam)-a pənah aparıb yalvarır. O həzrətin doğum günü övladının sağalmasını istəyir. Mübarək Rəcəb ayının onunda oğluma yuxuda nurani bir atlı ona şəfa vermək və`dəsini verir.

Rəcəb ayının 10-u imam Cavad (əleyhissalam)-ın və 13-ü isə imam Əli (əleyhissalam)-ın doğum günlərinə təsadüf edir. Rəcəb ayının on üçündə gecə uşağın anası təzədən həzrət Əli (əleyhissalam)-a dua edib yalvarır. Oğlum yatarkən imam Həsən Müctəba (əleyhissalam), imam Əbi Əbdillahil Hüseyn (əleyhissalam)-ı yuxuda görür. Əli (əleyhissalam) onunla danışarkən öz mübərək əlini onun sinəsinə çəkir və ona tamamilə şəfa verir. Sonra oğluma buyurur:

«Anana de ki, bu da onun bayramcalığı!»

Yenidən onunla görüşünü mübarək Ramazan ayının 21-ci gecəsində olmasını bildirir. Mübarək Ramazan ayının 21-i iki böyük alim ayətullah hacı şeyx Əbul Qasim Xəz Əli və ayətullah Seyyid Kazim Hari (mənim qardaşım) və bir sıra mö`minlər bir məclisdə idilər. Onların arasında bir neçə çətin əlaclı şəxslər də vardı. O gecə övladıma əcib halət üz vermişdi. Qur`anı başa tutmaq mərasimində həzrət Əli

(əleyhissalam)-ın pak adına yetişdikdə oğlum öz aləmində o Həzrətlə danışığa başladı. Həzrət öz söhbətlərində uşağa buyurur ki, o məclisdə oturanlara de ki, Həzrət Əbul-Fəzl Abbasa(əleyhissalam) növhə oxusunlar. Bununla da xəstələr şəfa tapacaq. Sonra əlavə edir: Bu xəstələrin hər birisi məsləhət olsa yavaş-yavaş şəfa tapacaqlar. Hansı məsləhət olmasa şəfa tapmayacaq. Amma, Allah-taala bu şəfa əvəzində onlara başqa şey əta edəcəkdir. O deyir: Həzrət Əbul-Fəzl Abbasa (əleyhissalam) növhə deməkdən məqsəd onun müsibətində deyilən qəsidə idi.

Onu da qeyd edək ki, bu məclisdə iştirak edən xəstələrdən Məhdi Şə`bani adlı birisi fələc, hətta danışa bilməyən bu şəxs az bir müddətdə, yə`ni bir ay müddətində sağalır. O, bizim qonşumuz idi.

Tamamilə fələc olmuş bu şəxs hətta evlənməyə də qadir olur. Mən özüm onların nigah əqdini oxumuşam.

Əvvəldə ona işarə etdiyim hadisə bu idi. Ümidvaram, Allah-taala biz Ali Məhəmməd (səlləllahu əleyhi və alehi və səlləm) şiələrinin əlini Əhli-Beyt (əleyhissalam)-ın ətəyindən üzməsin!.

Vəssəlamu ələyna və əla ibadillahissalehin.

## *XANIM ZEYNƏBİN DİLİNDƏN*

**Bir Nəcəfdən baş götür bax Kərbəlayə ya Əli!**
**Qaninə qəltan olan oğlun Hüseynə ya Əli!**
**** ** ** ** ** ****
**Bəslədiyun peykərun gül cismi parə parədir**
**Ol qədər oxlar dəyib yeksər bədəni yarədur**
**Yarəsin yox bağliyan Zeynəb bu gün əvarədir**
**Gəlmədün bu dəşdidə ahi nəvayə ya Əli!**
**** ** ** ** ** ****
**Əkbərin teşnə verib üryan qılınc qabağinə**
**Saldılar misli uqab ustən oni qabağinə**
**İçmədi bir qətrə su qani dolub boğazinə**

**Qaninə qəltan olub ol no cavanun ya Əli!**
****  **  **  **  **  ****

**Bu Hüseynin ya Əli ünbət yolunda baş verib**
**Yari ənsari ölüb bir yari bi yavər qalıb**
**Əhli Be`yti xeymədə həm dideyi giryan qalıb**
**Bir nəzər eylə bu gün Kərbibəlayə ya Əli!**
****  **  **  **  **  ****

**Rəhm qıl bir Zeynəbin gözdən axan qan yaşına**
**Yeddi qardaşi ölüb indi olub kül başına**
**Neyləsin Şümri vurur qəmçi Səkinə başına**
**Oldananda xeymələr hər dəm deyərdi ya Əli!**
****  **  **  **  **  ****

**Nobeyi meydan yetişdi şahi dini məhşərə**
**Boynuna saldi kəfən baxdi Əliyyi Əkbərə**
**Mərkəbində əyləşib vurdi özünü leşkərə**
**Baş açıbdır Fatimə meydan içində ya Əli!**
****  **  **  **  **  ****

**Aldi aquşə Hüseyni Fatimə qan ağladi**
**Bağrına basdı o dəm göydə mələklər ağladi**
**Qətl edəndə Şümri din xəncər əlində ağladi**
**Qan yağdi göydən yerə Kərbibəladə ya Əli!**
****  **  **  **  **  ****

**Bir tamaşa etginən Kərbibəla meydaninə**
**Kufə əhli zülm edib axir zaman imaminə**
**Ol qədər ox vurdular teşnə Hüseynin caninə**
**Çeşmə-çeşmə qan verir isti qum üstə ya Əli!**
****  **  **  **  **  ****

**Neynəmüşdün ya Hüseyn qomi sənə zülm eylədi?**
**Saldılar üryan yerə qaninə qəltan eylədi**
**Zeynəbi Gülsüm o gün naleyi əfqan eylədi**
**Açdı Peyğəmbər başın meydan içində ya Əli!**
****  **  **  **  **  ****

**Ya Hüseyn eylə qəbul ağlar əzadə nohəxan**
**Eyləsən qismət özün qəbrün yanında mən ölüm**
**Aduvi zikr eylərəm həşri olunca mən qulam**

**Tut əlindən Nadimun eylə şəfaət ya Əli!**

## *ALTMIŞINCI KƏRAMƏT*

### *«TASUA GECƏSİNƏ QƏDƏR XƏSTƏ OLDU».*

***Məşhəd şəhərinin hacı şeyx Məhəmməd Riza Ədadi adlı vaizlərindən biri yazır:***

1378-ci hicri-qəməri ilində oğlumun iki yaşı var idi. Mən onu həkimlərin yanına aparmaqdan yorulmuşdum. Həmin ildə həccə getməli oldum. Qayıtdıqdan sonra uşağı yenə də xəstə gördüm və onu həkimin yanına apardım. Həkim dedi:

Onun sol gözü kor olub, sağ gözü isə tezliklə kor olacaq. Anası bu sözü həkimdən eşitcək çox həyacanlandı. Çünki, görürdü ki, uşağı əvvəlki xəstəliklərindən əlavə gözlərini də əldən vermişdi. Ona görə də sübhə kimi yatmayıb ağlayırdı.

O günün sabahı başqa bir neçə həkimə müraciət etdim. Hamısı əvvəlki həkimin sözlərini təsdiq etdilər. Nəhayət, göz həkimi cənab Qureyşiyə müraciət etdim. O, belə dedi:

Tehrana gedib aşuradan sonraya qədər orada qalacağam. O vaxta qədər sizə müvəqqəti dərman yazacağam. Bunu uşağın sağ gözünə sürtün ki, mən qayıdana kimi xəsarət götürməsin. Tehrandan qayıdandan sonra bəlkə müalicə edə bildik. Amma, sol gözü müalicə oluna bilməz.

Məhərrəm ayının əvvəli idi. Mən və uşağın anası çox narahat idik. Bu arada Qəməri bəni Haşim həzrət Əbul-Fəzl Abbasa (əleyhissalam) pənah aparıb yalvardıq. Nəzir etdik ki, əgər övladım aşura gününə qədər yaxşı olsa o Həzrətin yolunda bir qoyun qurban kəsəcəm. Xəstəlik tasua (9-u) gecəyə qədər davam etdi. Övladımın hətta, oturmağa da hərəkəti yox idi. Amma, aşura günü günorta mənzilə gələndə gördüm Allahın köməyi ilə uşaq sağlamdır və oynamaqla məşğuldur. Gözləri də sağalmışdı. Təkcə rəngində azca ağlıq müşahidə olunurdu. Hal hazırda yeddi yaşı var, həmin ağlıq

müşahidə olunmaqdadır. Elə hesab edirəm bu bir əlamətdir ki, uşaq böyüyəndə bilməlidir ki, onun gözlərinin sağlamlığı həzrət Əbul-Fəzl Abbasın (əleyhissalam) zaminində olub. Beləliklə də onu heç vaxt unutmasın!

## ALTMIŞ BİRİNCİ KƏRAMƏT

### *«ƏTİ BİŞİRMƏK ÜÇÜN HAZIRLADIQ!»*

***Cənab höccətullahLəcrimi Brucuni, mərhum höccətül-islam hacı seyyid Rəhim Mirfuruğidən belə nəql edir:***

Xətib və möhtərəm alim, məşhur vaiz mərhum höccətul-islam vəl-müslümin hacı seyyid Rəhim Mirfuruği Qəhfərxi «Çahar məhal Bəxtiyari» və başqa məktəblərdə təbliğçi olmuşdu. Bir müddət İsfahanda olmuşdu. O, mənim yaxın dostlarımdan idi. Belə nəql edirdi:

On bir dəfə Kərbəlaya ziyarətə getmişəm. Hər dəfə iki ya üç ay orada sakin olmuşam və bütün yerlərini tanıyıram. Günlərin birində qardaşım hacı seyyid Əhməd Mirfuruqi ilə birlikdə Kərbəla bazarına getmişdik. Qayıdanda tanış qəssabdan bir kiloqram qoyun əti aldıq və evə gəldik. Yol arasında o gün ikinci dəfə olaraq həzrət Əbul Fəzl Abbasın (əleyhissalam) hərəmilə rastlaşdıq. Mən qardaşıma dedim:

Mənim ürəyim gəlmir ki, həzrətin hərəmini ziyarət etməmiş bir başa evə gedək. Təxminən sübh saat doqquz olardı. Hər halda həzrət Əbul Fəzl Abbas(əleyhissalam) hərəminə daxil olduq.

Hərəmdə ziyarət, rövzə və müsibət dedikdən sonra mənzilimizə sarı getdik. Evə çatan kimi əti bişirmək üçün hazırladıq. Amma elə ki, yeməyə yaxınlaşdıq gördük qazan tam qaynayır, amma ət qazanın içində bişməmiş halda qırmızıdır. Təəccübləndik. Əti təzədən axşama bişmək üçün ocaq üstə qoyduq. Gecə də qazanı ortalığa gətirəndə təəccüblə gördük ki, ət heç bişməmişdir. Səhər sübh qəssabın yanına

gedib dedik: Dünən sizdən aldığımız ət dünəndən bəri ocağın üstündə bişməmişdir. Bu nədəndir? Bizimlə dost olan qəssab dedi:

Bizim ətimiz pis deyildi! Biz bu ətdən hamıya satmışıq, kimsə gəlib şikayətlənməyib. Təkcə sizsiz ki, bunu idda edirsiniz.

Biz qazanla birlikdə əti ona göstərdikdə doğrusu qəssab özü də təəccüb etdi və dedi:

Bu işdə nəsə bir sirr var.

Fikrə getdim ki, görəsən nə sirridi? Sonradan başa düşdüm ki, qəssabdan əti alandan sonra hərəmə girmişdik. Ət həzrət Əbul Fəzl Abbasın(əleyhissalam) hərəminə daxil olduğuna görə dünya atəşi ona tə`sir etməyib. Həzrətin hörmətinə atəşin ona əsəri dəymir. Biz bu işi O həzrətin kəramətindən hesab etdik və əti aparıb çöldə basdırdıq.

Beləliklə əgər insan xalis niyyətlə və arif halda hərəmə girsə cəhənnəm odundan amanda qalar. Axında Allahdan o mərhumdan ötrü bağışlanmaq istəyirik.

## ALTIMIŞ İKİNCİ KƏRAMƏT

### *«MAZANDARANLI TƏLƏBƏYƏ KÖMƏK!»*

***Cənab Höccətül-islam vəl-müslümin hacı şeyx Əbdülvəhhab Sultani yazır:***

O gecənin əhvalatı unudulmazdır. Bir dəstə əzadar Hüseyn(əleyhissalam) məclisinə daxil olurlar. O məhəllənin ruhanisi mənbərdə 15 dəqiqəyə yaxın həzrət Əbul Fəzl Abbas (əleyhissalam) barəsində və onun əzəmətindən söhbət etdi. Məhəllənin möhtərəm şəxslərindən biri yerindən durur. Bir nəfər 24 yaşlı cavan onun yanında dayandı. Möhtərəm şəxs cavanı tanıtdırmağa başladı: Bu şəxs tələbədir. Bir neçə ildir ki, Tehranda tələbəliklə məşğuldur. Sonra o, cavanın tə`lim vaxtı bədəninə kimyəvi maddələrin sirayət etməsini izah edir.

Mə`lum olur ki, kimyəvi maddələr cavanın əlində imiş. Sonra qaşınma nəticəsində onun bədəni dəri xəstəliyinə tutulur. Tehran həkimlərinin müayinəsindən sonra mə`lum olmuşdu ki, bu cavan əlac olunmaz xərçəng xəstəliyinə tutulmuşdur. Dərhal müalicə və dərman üçün xaricə getməlidir. Cavanın ailəsi imkan həddində onun xaricə getməsinə şərait yaratdılar. Çoxlu pul dəyişib ailəsilə birlikdə Tehranı müalicə niyyəti ilə tərk etmişdi.

O getdikdən sonra cavanın bacısı və anası boş dayanmayıblar. Yaxın qohumları ilə birlikdə tanınmış yer olan «Əbul Fəzl Abbas» adına məkana gəlib nəzir-niyaz etmişlər. Cavanın salamat və sağlam qayıtmasından ötrü burada dua ilə məşğul olublar. Cavan öz müalicəsindən ötrü xaricdəki bir çox həkimlərə müraciət edir. Həkimlər şurası nəzər verirlər ki, İran həkimlərinin tə`yin etdikləri bu xəstəlikdən səndə əsər-əlamət yoxdur. Cavan bir müddət qalıb bu xəstəliyi həkimlərdən də İran həkimlərinin bu xəstəliyi tə`yin etmələrinin tamamilə olmamasını məktub şəkilində ələ gətirir. Bəli! Cavan şəfa üçün xaricə səfərə çıxmışdı. Amma cavanın ana və bacısı «Babul-həvaic» həzrət Əbul Fəzl Abbasın (əleyhissalam) məqamına pənah apardılar. Cavan qayıdarkən gecə ilə məclis təşkil olundu. Qoyun qurban kəsildi. Camaatdan xahiş olundu ki, bir saat gözləsinlər. Tezliklə yemək hazırlanıb «Babul-həvaic. eşqində ehsan verildi. Mazandaranlı cavan şəfa tapmışdı.

***Əssəlamu əla əbdüssaleh vəl-müti lillah və li rəsulih və li əxihi əl Hüseyn (əleyhissalam) və əla mən ittəbəl həqq və rəhmətullahi və bərəkatuh.***

## ALTIMIŞ ÜÇÜNCÜ KƏRAMƏT

### *«ALLAH BALALARINI SAXLASIN!»*

***Cənab höccətül-islam vəl-müslimin hacı şeyx Əbul Həsən İrbahimi Həmədani yazır:***

İslam inqilabından əvvəl bir müddət məhərrəm aylarında Həmədan və Savah məntəqələri arasında islam dininin təbliği ilə və həmçinin Əhli-Beyt (əleyhimussalam) əzadarlığı ilə məşğul idim. O zaman neçə vaxt idi ki, övladım xəstəliyə tutulmuşdu. Tez-tez həkimə aparıb-gətirirdim. Lakin, gündən-günə vəziyyəti xarablaşırdı. Beləliklə, ümüdüm hər yedən kəsildi.

Təxminən, «Tasua» (9-cu) gecəsi idi. Həzrət Əbul Fəzl Abbasın (əleyhissalam) rövzəsini oxudum. Hətta uşağımın xəstəliyi belə yadımdan çıxmışdı. Mənbərdən sonra məsciddən çölə çıxdım. Mənzilə yola düşdüm. O gecə Kərbəlanı yuxuda gördüm. Gördüm ki, xeymələr düzülüb və biz də bu xeymələrdən birinin içindəyik. Bu vaxt döyüş başlayır və uca boylu, uzun qollu Əbul Fəzl Abbasın (əleyhissalam) döyüşən halda müşahidə etdim. Ağanın qədd-qamətindən nə deyim? Nə qədər desəm və qələm yazsa da azdır! Lakin gördüyümü yazıram. Ağanın müqabilində düşmənin sayı-hesabı yox idi. Ağanın qədd-qaməti düşmənlərin qədd-qaməti ilə müqayisədə cavan və nurani bir şəxsin 7–8 yaşlı uşaqlarla bir yerdə olmasına bənzəyirdi. Ağanın şəmşiri də çox qalın və uzun idi. Şəmşir vuranda dərə-təpə yerlə-yeksan olurdu. Ağanın düşmənləri onun müqabilində qaçarkən bir-birinə dəyib həlak olurdular. Biz xeymədə olan halda bütün vücudumuzu qorxu tutmuşdu. Öz-özümə fikirləşdim ki, əgər ağa döyüşü belə davam etdirsə bizim xeyməmiz də yerlə-yeksan olacaq. Bu fikri zehnimdən keçirən kimi ağa şəmşiri bir kənara atıb bizim xeyməmizə gəldi. Buyurdu:

Sizin xeymənizdə su varmı?

Ərz etdim: Bəli!

Buyurdu: «Mənə bir kasa su verin!.»

Mən ona bir qab su verdim. Meyl etdi. İçdikdən sonra türkcə dedi: «Allah balalarını saxlasın!»

Bu yuxudan sonra üç gün ağladım. O vaxta qədər ki, üç gündən sonra səfərdən qayıtdım. Uşağın halını soruşdum: Dedilər üç gündür ki, sağalıb.

Bu gün iyirmi ildir ki, bu hadisədən keçir. Bu illər ərzində bir dəfə də olsa uşaq xəstlənməyib və bu müddət ərzində bir dəfə də olsun həkim yanına getməyib. Bu, həzrət Əbul Fəzl Abbasın(əleyhissalam) bizə bəxş etdiyi kəramət idi.

## ALTIMIŞ DÖRDÜNCÜ KƏRAMƏT

### *«BİRDƏN UZAQDAN ATLI GÖRÜNDÜ»*

***Cənab Məhəmməd Sadiq Bəhirani atası mərhum Məhəmməd Hüseyn Bəhiranidən belə nəql edir:***

Atamın qohumlarından biri təxminən əlli il əvvəl işdən ötrü Küveytə gedir. Dindar bir şəxs idi. Ona şeyx Hüseyn deyərdilər. O, camaatı Küveytə işləməyə aparırmış. Qohumları da onunla birlikdə gedirlərmiş. Yol arasında polislər ona həmlə edirlər. Onlar izi itirməkdən ötrü biyabana üz tuturlar və yolu itirirlər. Bir müddət o tərəf bu tərəfə gedirlər, lakin bir yerə çıxa bilmirlər. Təxminən, bir gecə-gündüz yol gedirlər. Tamamilə əldən düşürlər. Sonra taqətdən düşmüş halda həzrət Əbul Fəzl Abbasa(əleyhissalam) pənah aparıb yalvarırlar. Birdən uzaqdan bir atlının gəldiyini gördük. Buyurdu:

***Şeyx Hüseyn! Hardan gəlirsən? Şeyx Hüseyn nəyə görə narahatsan? Bir salavat çək və əlini gözlərinin üstünə qoy!***

Şeyx Hüseyn belə edir. Birdən özünü Küveyt məscidlərindən birinin qarşısında görür!

## ALTIMIŞ BEŞİNCİ KƏRAMƏT

### *«AĞA CAN! ƏGƏR MƏNƏ KÖMƏK ETMƏSƏN.........!»*

***Ayətullah hacı seyyid Məhdi Hüseyn bir nəfərin dilindən belə nəql edir:***

Mənim südlü bir inəyim vardı. Bazarda təxminən, 500 min tümənə gedərdi. Bu inək bir dəfə xəstələnir. Heyvan həkimi müayinədən sonra dedi:

Tez başını kəs, sonra zərərə düşərsən!

İşi belə görəndə həzrət Əbul Fəzl Abbasa(əleyhissalam) pənah aparıb dua etdim. Özüm də hirslənmişdim. Dedim:

Ağacan! Əgər mənə kömək etməsən daha sənin adına süfrə açmayacağam!

Bundan sonra inək qusdu. Qarnından kilid və dəmir çıxdı. Ondan sonra inək sür`ətlə yaxşılaşmağa başladı. Heyvan həkimi inəyi təzədən müayinə etdikdə dedi:

Bu Qəməri bəni Haşimin kəramətindən başqa bir şey deyildir.

## ALTIMIŞ ALTINCI KƏRAMƏT

### *«HƏZRƏT ƏBUL FƏZL ABBASA(Ə) DUA ETMƏKLƏ NİCAT TAPDIM!»*

***Hacı Həsən və Hacı Abbas Cə`fəri yazırlar:***

Gəmi ilə «Buşəhrdən» Dubaya tərəf hərəkətdə idik. Dubaydan qayıdarkən İrana yaxın sahildə bizləri möhkəm qasırğalı tufan tutdu. Belə ki, dərya tufanından gəmi su ilə domuşdu. Biz hamımız həyatdan əlimizi üzmüşdük. Bununla belə arxayın qəlbimizlə və inamla Kərbəlaya tərəf üz tutub dedik:

Ey Əli (əleyhissalam)-ın övladı! Ey Abbas ibni Əli (əleyhissalam)! Əlimiz sizin ətəyinizdədir!

Duadan sonra tufan sakitləşdi, hava saf oldu və biz nicat tapdıq.

## ALTIMIŞ YEDDİNCİ KƏRAMƏT

### *«BU AĞANIN ƏLİ YOXDUR!»*

***Cənab Əbdül Həmid Bəhrani hacı Əbdünnəbiyyədən belə nəql edir:***

Təxminən 20 il bundan əvvəl Abadan şəhərində yaşayırdım. Xəstələnmişdim. O qədər ağır idim ki, ölüm ayağında idim. Yuxuda atamın mənə bir dənə nar dənəsi verdiyini gördüm. Mənə:

«Bunu meyl et» söylədi.

Sonra mənə buyurdu:

Narı sizə bu verdi.

Mən o ağaya tərəf gedib əllərindən öpmək istədim. Atam dedi:

O ağanın bədənində əli yoxdur!

Dedim: O kimdir?

Buyurdu: O, həzrət Əbul Fəzl Abbasdır(əleyhissalam).

Ondan sonra indiyə qədər xəstələnməmişəm!

### Aç qanlı gözün ey şəhi dövran bacun ölsün!

**Aç qanlı gözün ey şəhi dövran bacun ölsün**
**Dur şamə gedir Zeynəbi nalan bacun ölsün.**

*** * ***

**Cismun yarali isti hava peykərin üryan**
**Fəvvarə kimi qan axıb səhralərə hər yan**
**Oldun bu biyabanda Hüseyn qanuva qəltan**
**Ləb teşnəvu dil xəsteyi ətşan bacun ölsün.**

*** * ***

**Nə haldi bu söylə səni ey şahi Mədinə**

**Düşmüş yarali cismün Hüseyn ruyi zəminə**
**Qol bağli ciyər dağli qızım nazli Səkinə**
**Şamə gedibəm naleyi üryan bacun ölsün.**
*** * ***
**Gəldim nə cəlal iylə Hüseyn Kərbibəlayə**
**Tuş oldu günüm gülşən ara xari cəfayə**
**Başuvi kəsib Şumri dəqa vurdi cidayə**
**Qan cuşə gəlib doldi biyaban bacun ölsün.**
*** * ***
**Bu ərsədə yağ mayə gedib cahi cəlalun**
**Öldürdi bacun Zeynəbuvi dərdi məlalun**
**Qol bağli gəlib qətligaha əhli əyalun**
**Dur sal yola ey şahi şəhidan bacun ölsün.**
*** * ***
**Kim qıldi səni qanuva qəltan anam oğli**
**Kim qıldi bu gül cismuvu üryan anam oğli**
**Kim kəsdi başun ləbləri ətşan anam oğli**
**Qan iylə dolub ərseyi meydan bacun ölsün.**
*** * ***
**Qıl qollari bağlanmış əyaluvə nəzarə**
**Əfqanə gəlirlər bu sitəm cani nəzarə**
**Mümkün döyür nəşüvu qoyum indi məzarə**
**Qol bağli əsirəm gözi giryan bacun ölsün.**
*** * ***
**Xirgahuvi yandırdlar ey mahi Mədiynə**
**Yağ mayə gedib zülmilə həm durri xəziynə**
**Zəncir ilə qol bağli gedir nazli Səkiynə**
**Şamə yola sal ey sənə qurban bacun ölsün.**
*** * ***
**Şəmşiri sənan yarəsi namünda sərasər**
**Nə dəfn kəfən var quri yer cismüvi bəstə**
**Övladi Əli qol-qola bağli hami yeksər**
**Üryan dəvə bu dəstəyi nisvan bacun ölsün.**
*** * ***
**Bu bəzmi əza içrə gəlün şiri fəqanə**

**Göz yaşi olar həşri günü əldə bəyanə**
**Tuti çək Hüsen qəmlərini mülkü bəyanə**
**Hər dəmdə sala bəzmə bu ünvan bacun ölsün.**

## ALTIMIŞ SƏKKİZİNCİ KƏRAMƏT

### *«İMAM HÜSEYN (Ə)-IN ƏZADARLIQ MƏCLİSİ!»*

***Ayətullah hacı Şeyx Əli Əhmədi Miyanəçinin dilindən hekayət:***

«Birisi yuxusunda görür ki, həzrət imam Hüseyn (əleyhissalam), həzrət Əbul Fəzl Abbas (əleyhissalam) ilə birlikdə Kərbəla şəhidlərinə əzadarlıq keçirilən evin yanından keçirlər. İmam Hüseyn (əleyhissalam) qardaşı Əbul Fəzl Abbasa(əleyhissalam) buyurur:

Bu evin sahibindən ötrü savab yaz!

Həzrət Əbul Fəzl Abbas(əleyhissalam) soruşur:

Nə qədər yazım?

İmam Hüseyn (əleyhissalam) buyurdu:

Yaz!.......

Eləcə də keçib getdilər. Həzrət savabı yazır. Yenə də bir evin yanından keçdilər. İmam Hüseyn (əleyhissalam) buyurdu:

Yaz!

O şəxs deyir: Bu vaxt yuxudan ayıldım. Sonra yuxumda gördüyüm şəxsin yanına gedib imam Hüseyn (əleyhissalam)-ın onun barəsində söhbətini ona nəql etdim və vəziyyəti soruşdum.

Əza sahibi cavab verdi: Mən imam Hüseyn (əleyhissalam)-ın məclisindən ötrü tütün almaq istəyirdim. İki cür tütün var idi. Mən bazardan ucuz tütün aldım.

## ALTIMIŞ DOQQUZUNCU KƏRAMƏT

### *«MƏN ABBASIN(Ə) XADİMİYƏM!».*

***Şəhid atası höccətül-islam vəl-müslümin şeyx Əbdürriza Safi nəql edir:***

Sünni oğruları çöllükdə mənə həmlə etdilər. Elə ki: «Mən Əbul Fəzl Abbasın(əleyhissalam) xadimlərindənəm»- dedim, tez məndən əl çəkdilər!

Ümumiyyətlə, yer üzündə istər müsəlman, istər xaçpərəstlər və istərsə də başqa kitab əhllərinin qeybi köməklərə e`tiqadları vardır.

## YETMİŞİNCİ KƏRAMƏT

### *«MƏNİM ƏHVALATIM VƏ HƏZRƏT ƏBUL FƏZL ABBASIN(Ə) KÖMƏYİ»*

***Əhli-Beyt (əleyhissalam)-ın məddahı cənab Məhdi Təəccübi yazır:***

Mən Məhdi Təəccübi, cavanlığımın ilk çağlarında yolumu itirmiş şəxsiyyətsiz bir adam idim. Şah rejiminin həddən artıq açıq-aşkar fitnə-fəsadı yayması çox cavanları düzgün yoldan çıxartmışdı. Xülasə şəkildə ərz edirəm:

Başımı qatmaq və istirahətdən ötrü hara üz aparırdımsa din və əqidə ziddinə olan səhnələrlə rastlaşırdım. Mən şe`r yazır və həmçinin yaxşı şe`r oxuyurdum. Bir müddət də əxlaqsızlığı yayan qəzetlərlə əməkdaşlıq edirdim. Nəhayət, əlacsız bir xəstəliyə düçar oldum. Elə xəstəlik ki, bütün dostlar və hətta yaxın qohumlar da məndən bezib üz çevirdilər. Aşkarcasına hiss etdim ki, mənim ölümümü istəyirdilər.

O çarəsizlik və fəqirli günlərimin birində qərara aldım ki, Tehran ətrafındakı biyabanların birinə pənah aparıb ordaca

ölüm. Bu qərardan sonra anamdan çay istəmək istədim. Lakin onlara o qədər əziyyət vermişdim ki, çağırmağa xəcalət çəkirdim. Evdən təxminən yüz metr yuxarıda çayxana vardı. Öz-özümə dedim ki, hər necə olursa-olsun divardan tutaraq çayxanaya gedib orda çay içim. Evdən 50 metr aralıda həzrət Əbul Fəzl Abbas adına əzadar hey`ətlə rastlaşdım. Bu hey`ət şəhərdə çox məşhur idi. Ora yetişdim. Çayxanada istəkanların çak-çuk və çıqqıltı səsləri gəlirdi. Öz-özümə dedim ki, yol getmək müşkildir, camaatın çay içdiyi yerdə çay içim. Yola düşdüm.

Məddah ucadan həzrət Əbul Fəzl Abbasın(əleyhissalam) şə`ninə şe`r deməklə məşğul idi. Camaat ağlaşırdı. Mən də ağlamağa başladım. Özü də necə ağlamaq?

Məddahlıqdan sonra hamı sakit oldu və çay içməklə məşğul oldular. Şe`r deyən şəxs həzrət Əbul Fəzl Abbasın(əleyhissalam) kəramətlərindən danışırdı. Ağlamaqdan yaxam islanmışdı. Hamının mənə tamaşa etdiyinə görə məclisdən çıxmalı oldum. Öz-özümə dedim ki, əgər həzrət Əbul Fəzl Abbasın (əleyhissalam) bu qədər kəramətləri varsa, mənə də şəfa versin!

Qısası ağa mənə də şəfa verdi. Belə ki, bütün həkimlər heyran qalıb bayram tutdular. Lakin mən cavanlıq üzündən səhv edib yenə də öz pozğun həyatıma qayıtdım. Allahın dərgahına şükr edib düz yola düşmək əvəzinə təəssüflər olsun ki, təkrar günahlara başladım. Nəhayət bir gün yuxuda gördüm ki, böyük bir məntəqədə saysız-hesabsız camaat yığışıb tamaşa edirlər. Hamı qorxusundan titrəyirdi. Baxıb gördüm ki, at boyda bir şir meydanın ortasında dövr edib nə`rə çəkirdi. Hamı da qorxusundan əsirdi. Birdən camaatın arası açıldı böyük və güclü bir şəxs, insanı valeh edən şücaətlə və vüqarla meydana daxil oldu. Heyvan özünü onun ayağına atdı və oturdu. O şəxs, əlini şirin kürəyinə çəkdi. Əhali növbə ilə onun əlindən öpürdü. Mən də cəmiyyət içindən irəli gəlib onun əlindən öpmək istədim. O, tez əlini məndən çəkdi və üzünü məndən çevirdi. Camaatdan soruşdum:

Nəyə görə bu ağa belə edir?

Birdən belə bir söz eşitdim, dedi:

Xəcalət çəkmirsənmi? Məgər bu ağa sənə şəfa verməyibmi? Həya et!

Yuxudan ayıldım. Yuxu nədir? Bir dünyadan başqa bir dünyaya keçdim. Oradaca mehriban olan Allaha hər şeydən tövbə etdim. Bütün pozğun şe`r və qəzəllərimə (yaxşı müştərisi olan halda) od vurub yandırdım. Əhd etdim ki, bundan sonra Peyğəmbər (səlləllahu əleyhi və alehi və səlləm) və onun Əhli-Beyti (əleyhissalam) barəsində şe`r yazacağam. Bu gün 56 yaşım var və Allahın köməyilə öz əhdimdə möhkəməm!

## YETMİŞ BİRİNCİ KƏRAMƏT

### *«QƏRARA ALDIM Kİ, MƏSƏLƏNİN HƏLLİNİ HƏZRƏT ƏBUL FƏZL ABBASDAN(Ə) ALIM!»*

***Cənab höccətül-islam vəl-müslümin hacı seyyid Məhəmməd Cəlai yazır:***

Mən Kərbəlada doğulmuşam. 25 ilə qədər orada sakin olmuşam. Bu müddət ərzində orta məktəb oxuyub diplom almış, sonra hövzədə oxumuşam. Həzrət Əbul Fəzl Abbasdan(əleyhissalam) məni təəccübə gətirən kəramətlər görmüşəm. Bu pak hərəmin yanında olduğuma görə yadıma gəlmir ki, mühüm bir mətləb olsun və ondan ötrü ağaya üz gətirim. Biz onun xidmətində olduğumuza görə bizlərə ağır müşkül üz gətirmirdi. Ola bilsin xırda məsələlər qarşıya çıxsın, lakin, belə məsələlərdə ədəbi gözləyib həzrətə ərz etmirdim. Çünki fikirləşirdim ki, mö`minin belə xırda müşkilləri olmalıdır. Rahatlıq axirətdədir. Hər halda ömür keçirdi. O vaxt gəldi ki, iranlıları İraqdan sürgün etməyə başladılar.Bundan ötrü ancaq altı gün vaxt verilmişdi ki, ölkədən çıxsınlar. Bu da bizim üçün o qədər müşkil hesab olunmurdu. Bu iş hamının

başına gələ bilərdi. Hər halda bu dalğanı da Allah xeyirlə ötürdü. Onlar ki, getdilər getmişdilər. Onlar ki, qaldılar qalmışdılar. Biz də həmin qalanlardan olduq. Bir neçə ildən sonra yenidən bu məsələ ortaya atıldı. Amma bu dəfə Bağdad diktatorunun göstərişinə görə bizim ailəmizi sürgün etməli idilər.

Bizim ailəmiz orada tanınmış ailələrdən idi. Alimlər Nəcəfdən getdikdən sonra atam orada qalmış və tanınmış alim idi. O, hazır deyildi ki, onlarla bir yola getsin. Dövlət çalışırdı ki, əhalini atamın təşkil etdiyi rövzə məclisinə qoymasınlar. Yadımdadır, günlərin birində şəhər başçılarından birisi bizim evə gəlib qapını döydü. Mən gedib qapını açdım. O dedi:

Atan evdədir?

Dedim: Bəli!

Dedi: Mən şəhər katibi tərəfindən gəlmişəm. Atanla görüşməliyəm. Atamın yanına gedib məsələni ərz etdim. Atam cavab verdi: De ki, halı yaxşı deyil. Heç kəslə görüşə bilməz. Dedim:

Atacan, bu onların səni incitməsindən ötrü bir bəhanə olar. O israr edir ki, səninlə görüşsün. Xüsusi qəzəbli tonla buyurdu:

«De ki, Nəcəf-Əşrəfə ziyarətə getməyə hazırlaşır.» Hər halda məsələni gəlib o şəxsə çatdırdım. O nə qədər israr etdisə atam başqa bəhanələrlə görüşü təşkil etmədi.

Ümumiyyətlə, Bə`s hökuməti çalışırdı ki, atamı nəzarətdə saxlayıb yol göstərsin. Ona görə də bu dəfə Bağdaddan başqa bir göstəriş gəlmişdi ki, atamı ailəsi ilə birlikdə sürgün etsinlər. Bu xəbər atam çatdırıldı. Xəbəri gətirən Kərbəlanın böyük şəxsiyyətlərindən biri gətirmişdi. Atam ona dedi:

Bu işin tə`xirə düşməsi və dəyişməsi üçün heç bir yer yoxdur?

O cavabında dedi:

Xeyr! Heç bir yer yoxdur. Mən bütün məs`ullarla söhbət etmişəm. Bu işin dəyişməsi mümkün deyil.

Hər halda mən bu yedə qərara aldım ki, həzrət Əbul Fəzl Abbasa(əleyhissalam) pənah aparam. Fikirləşdim ki, ərəblərin gördüyü işi görəcəyəm. Yə`ni, ayaqyalın, başıaçıq hərəmə girib hacətimi istəyəcəm. Həmin işi gördüm. Ayaqyalın başıaçıq pak hərəmə daxil oldum. İzn duasını oxuyub pak zirehə yaxınlaşdım. Ərz etdim:

Ya Əbul Fəzl! Bir müşkül qabağa gəlib. İstəyirəm çarə qılasan!. Sonra heç bir iş görmədən (namaz, ziyarət) yenidən həmin vəziyyətdə evə qayıtdım. Qayıdandan sonra hər an çalışırdım ki, görəsən işin axırı nə olacaq? Bir gün keçdi, bir həftə keçdi, bir ay keçdi.... daha dövlətdən xəbər olmadı. O hadisədən neçə illər sonra orada qaldıq və o məsələ bir dəfəlik aradan getdi. Sanki belə bir olmayıbmış!!

Bir daha başa düşdüm ki, həzrət Əbul Fəzl Abbas(əleyhissalam) həmişə biz şiələrin halını nəzərə alır. Harda lazım olsa əgər xalis niyyətlə ondan kömək istəsələr cavab verməməsi qeyri mümkündür.

## YETMİŞ İKİNCİ KƏRAMƏT

### *«BURDAN ÇÖLƏ ÇIXIN, YOXSA HAMINIZI ÖLDÜRƏRƏM!»*

***Höccətul-islam vəl-müslimin Hacı Şeyx Əşrəf Kaşani bizə üç kəramət yazıb:***

1.Bəndə həzrət Əbul Fəzl Abbasın(əleyhissalam) kəramətini belə müşahidə etmişəm.

Səkkiz yaşımda ikən valideynlərimlə birlikdə atamın anasından irs qalan evdə yaşayırdıq. Anamın atası Kaşan məntəqəsinin tanınmış rövzəxanlarından idi. Adı seyyid Məhəmməd idi. Onun 6 övladı (4-ü oğul, 2-si qız) vardı. Oğlanlarından ikisi ruhani idi.

Böyük oğlu seyyid Əbul Qasim rövzə oxumaqdan ötrü bir il Semnan məntəqəsinə gedir. Orada bəhailərlə ilə qarşılaşır.

Yolunu azmış bu məzhəbin üzvləri onu zəhərləyirlər. O, dəli olmuş halda Kaşana qayıdır. O vaxt mən səkkiz yaşında idim. Gördüm ki, günlərin birində o, evin üstünə çıxıb öz-özünə belə deyir:

«Hamınız çıxın çölə, yoxsa sizləri öldürərəm!»

Üç ilə yaxın bu divanəlik onda davam etdi. Bu vaxtda onun vəziyyəti elə qorxulu idi ki, bütün Kaşan əhalisi ondan qorxub çəkinərdilər. Nəhayət, məcbur olurlar ki, onu zəncirlə bağlasınlar. Sağalmasına da heç kim artıq ümid etmirdi. Üç ildən sonra zövcəsinin həzrət Əbul Fəzl Abbasa(əleyhissalam) pənah aparması ilə şəfa tapdı. Onun təvəssülü hadisəsi belə olub:

Zövcəsinin atası zahid və mö`min bir şəxs imiş. Dünyasın dəyişərkən qızına deyir: Mən kasıb şəxsəm, əlimdə bir şey yoxdur ki, sənə verəm. Amma elə bir gövhər verirəm ki, min dəfə dünya malından üstündür. Nə vaxt biçarə oldun və nicat yolları üzünə bağlansa get qaranlıq bir otağa iki rəkət namaz qıl və bu iki beyt şe`ri oxumağa başla:

***Ey mahi bəni Haşim, Xurşidi liqa Əbbas!***
***Ey nuri dili Heydər, Şəmi şühada Əbbas!***

***Ba mehnəto dərdi cəm, Mən ru be tu avərdəm!***
***Dəste məne məhzun gir, əz bəhri Xuda Əbbas!***

**Tərcüməsi:**

***Ey bəni Haşimin ayı, Günəşə oxşar Əbbas!***
***Ey Heydərin qəlbinin nuru, şəhidlərin şəm`i Əbbas!***

***Dərdli və qəmli halda, sənə üz gətirmişəm!***
***Mən qəmlinin əlindən tut, Allah xatirinə Ya Əbbas!***

Seyyidin divanəliyindən üç il sonra bu vəsiyyət onun zövcəsinin yadına düşür. Aşağı otağa gedir. Heç bir işıq gəlməyən yer tapır. İki rəkət namaz qılıb duanı oxumağa başlayır. Özünün dediyinə əsasən birdən görür ki, qaranlıq otaq işıqlı olur. Başını qaldıranda başının üstündə kəsilmiş bir əlin durduğunu görür. Səs gəlir ki:

Dur get! Biz seyyid Əbul Qasimə şəfa verdik!

Tez qalxıb tələsik çölə çıxır. Seyyidin başının üstünə gəldikdə görür ki, yuxudadır. Halbuki, o vaxta qədər gözlərinə yuxu getmirdi.

Kaşan əhalisi xəbərdar olurlar ki, həzrət Əbul Fəzl Abbas (əleyhissalam) seyyidə şəfa verib. Onlar bir aya yaxın seyyidin görüşünə gəl-get edirlər. İş o yerə çatmışdı ki, onun əlinin suyundan xəstəliyə şəfa kimi aparırdılar. Harada rövzəxanlıq məclisi olurdusa, birinci onu də`vət edirdilər.

Bu müşahidəni biri də cənab Rəbbaninin (kitabın müəllifi) xahişinə görə ona yazdım.

## YETMİŞ ÜÇÜNCÜ KƏRAMƏT

### *«BİR ƏL GƏLİB MƏNİ GÖTÜRDÜ!»*

2. ***Həzrət Əbul Fəzl Abbasın(əleyhissalam) başqa kəraməti budur:***

Kaşan şəhərində «Möhtəşəm» adlı təzə bir xiyaban açmışdılar. Asfalt çəkməmişdən qabaq yola su tökürdülər. Kaşanda dərinliyi qırx metrə çatan çoxlu quyular var. Məktəb uşaqları səf çəkib xiyabandan keçirdilər. Təsadüfən quyulardan biri uçur və Cavad Əxbari adlı bir uşaq həmin quyunun içinə düşür. Ə`lacsız halda hamı tamaşa edirdi. Maşın gətirib üç gün quyunun torpağını çölə atdılar. Nəhayət, uşağa çatdılar. Gördülər ki, uşaq sağdır. Uşağı quyudan çölə çıxartdılar. Dövrəsini alıb sual-cavab etməyə başladılar. Necə oldu ki, sağ qaldın? Cavab verdi:

Elə ki, quyunun dibinə düşdüm ancaq «Ya Əbul Fəzl Abbas!» deyə çağırdım. Bu vaxt bir əl çıxıb məni quyunun dibində olan taxçanın üstünə qoydu. Dedilər:

Bu neçə günü orda ac necə qaldın?

Dedi: Məndən ötrü süd gətirmişdilər.

Bu aşkar mö`cüzədən sonra Kaşanda bir müddət çırağlar yandı. Hamı uşağın ziyarətinə gəlirdilər.

## YETMİŞ DÖRDÜNCÜ KƏRAMƏT

### *«YA BABUL HƏVAİC! NƏYİM VARDISA ALDILAR!»*

3. Bir vaxtlar günortadan sonralar həzrət Əbul Fəzl Abbasın (əleyhissalam) pak hərəmində, sübhlər isə imam Hüseyn (əleyhissalam)-ın mübarək hərəmində mənbərə gedirdim. Həzrət Əbul Fəzl Abbasın(əleyhissalam) hərəminin kiliddarı Seyyid Həsən idi. Mən mənbərdə həzrət Əbul Fəzl Abbasın(əleyhissalam) ziyarəti barədə söhbətə başladım. Günlərin birində mənbərdən düşərkən hərəmdə namaz qılan bir seyyid məni çağırıb dedi:

Bu gün sizin söhbətlərinizi eşitdim. Gördüm, Həzrət Əbul Fəzl Abbasın(əleyhissalam) ziyarətinin fəziləti barəsində söhbət edirdiniz. Amma, mən özüm müşahidə etdiyim əhvalatı sizə nəql edirəm siz də bunu mənbərdən əhaliyə nəql edərsiniz. O əhvalat bu idi:

Kərbəla ətrafından olan çobanlardan birisi bir neçə baş qoyunu bazarda satıb pulunu cibinə qoyub qayıdırmış. Kərbəladan çıxanda oğrular onun yolunu kəsib pulunu zorla alırlar. Kişi yarı yoldan Kərbəlaya qayıdır və həzrət Əbul Fəzl Abbasın(əleyhissalam) hərəminə daxil olur. Həzrətə xitab edərək buyurur:

Ya Babul həvaic! Nəyim varsa aldılar! Səndən başqa mənim pənah yerim yoxdur. Əhali onun ardınca hərəmə daxil oldular. O, çoxlu ağladıqdan sonra əlini zirehin pəncərəsindən içəri salıb bir neçə dəqiqədən sonra dedi:

Ya Əbul Fəzl! Təşəkkür edirəm!

Pakistan camaatı onu dövrəyə alıb soruşurlar ki, əlidəki nədir? O, əlini açır. Görürlər ki, əlləri qızıl pulla doludur. Onlar qızılı pulla kişidən alırlar. Onun əlində bir ədəd qızıl pul

qalır. Alverçilər onu da almaq istəyirlər, lakin, kişi cavab verir ki

: Əgər Kərbəlanı da qızılla doldurub mənə verəsiniz həzrət Əbul Fəzl Abbasın(əleyhissalam) kərəmindən olan bu qızılı sizə verməərəm!

## YETMİŞ BEŞİNCİ KƏRAMƏT

### *«QATARDAN YIXILDI, AMMA SAĞ QALDI!»*

***Cənab hacı Əbul Qasim Məğazeyi belə nəql edir:***

Mən atamla qatar stansiyasından evimizə tərəf hərəkət etdirdim. Atam buyurdu:

Əbul Qasim! Yaxşı olar ki, kömürlə dolu bu kisələri də evə aparaq. Düşüb kömür kisələrini qatara yüklədim. Sonra atam mənə buyurdu: Sən bu kisələrin üstündə otur, mən qatar rəisi ilə söhbət etməyə gedirəm. Mən kisələrin üstündə oturdum. Atam bir-iki dəfə məni səslədi. Bu vaxt qatar tunelə daxil olurdu. Tuneldən çıxdıqdan sonra gördüm ki, atam qatarda yoxdur. Mən dad-fəryad etməyə başladım. Qatarı saxlatdırdım. Qatar mə`muru dedi:

Mən arxaya qayıtmayacağam. Bəlkə böyük Allah mö`cüzə göstərə atan sağ qalsın. Bu vaxt əgər mən arxaya qayıtsam atan qatarın təkərləri altda qala bilər. Hamının nəzərində bu idi ki, atam sağ qalmayıb. Növbəti dayanacağa qədər hərəkət etdik. Bu stansiyadan teleqraf etdilər ki, tə`cili maşın göndərin cənab Məğazeyinin cənazəsini aparsınlar.

Elə bu vaxt atam gözlənilmədən dayanacağa gəldi. Mən atamdan soruşdum:

Atacan! Necə oldu ki, sağ qaldın?

Cavabında buyurdu:

Mən sizə tərəf gəlirdim birdən qatarın qapısından yerə yıxıldım. Yıxılan anda ancaq

«Ya Sahibəzzaman! Ya Əbul Fəzl Abbas!» deyə fəryad etdim. Birdən hiss etdim ki, kimsə məni götürüb kənara qoydu. Ona görə də görürsən ki, sağ qaldım.

## YETMİŞ ALTINCI KƏRAMƏT

### *«BİR NEÇƏ DƏQİQƏDƏN SONRA TAMAMİLƏ SAĞALDIM.»*

***Cənab höccətül-islam Şeyx Nurabadi Nişapuri bir məktubda bir neçə kəramət yazmışdır:***

1.Nəql edəcəyim mö`cüzə mərhum Ayətullah Seyyid Məhmud Müctehidi Sistaninin başına gəlmişdir. Seyyid günlərin birində bir xəstəliyə tutulur. Yerindən qalxmağa imkanı olmur. Yalnız uzanmış halda qalır. Sanki möhkəm qulunc ağrısı varmış. Yaxşı olduqdan sonra şəfa tapmağının səbəbini ondan soruşduq. O, belə izah etdi ki:

Mən xəstə halında uzanmışdım. Birdən həzrət Əbul Fəzl Abbas (əleyhissalam) yadıma düşdü. Öz-özümə dedim:

Ya həzrət Abbas! Əgər indi dura bilib dəstəmaz alıb namaz qıla bilsəm bir qoyun nəzir edirəm. Bu sözləri deyən kimi vəziyyətim yaxşılaşdı və qalxdım ayağa. Başqa vaxt yaxşı olduqdan sonra qoyun almağa qüdrətim olmur. Özüm də xəstələnmişdim. Öz-özümə fikirləşdim ki, əgər imkanım olsaydı ağaya nəzr edib sağalardım. Elə bu vaxt vəziyyətim yaxşılaşdı və sağaldım.

## YETMİŞ YEDDİNCİ KƏRAMƏT

### *«PARÇA ÖZÜ HƏRƏKƏTƏ GƏLDİ!»*

2. ***Ayətullah hacı seyyid Məhmud Müctehidi öz bacısı qızının dilindən belə nəql edir:***

Günlərin birində nənəm Həzrət Əbul Fəzl Abbasın(əleyhissalam) hərəmində ziyarətdə imiş. Görür ki, Həzərtin zirehinin üstündən bir parça asılı qalıb. Əhvalatı belə nəql edir: Ərəb qadınlarından biri həzrət Əbul Fəzl Abbasa nəzr edibmiş. Parçanı bir qadına verir ki, onu zirehin üstünə atsın. Qadını şeytan hərəmdə vəsvəsə edir və qərara alır ki, parçanı özünə götürsün. Hərəmdən çölə çıxmaq istədikdə birdən parça öz-özünə sürüşüb pak zirehə tərəf hərəkət edir. Bütün zəvvarlar bu haləti müşahidə edirlər. Nənəm də hadisəni gözləri ilə görüb.

## YETMİŞ SƏKKİZİNCİ KƏRAMƏT

### *«HƏZRƏT ƏBUL FƏZL ABBASA PƏNAH APARMAQLA KOR OLMAQDAN NİCAT TAPDIM!»*

3.Bu əhvalat çox maraqlıdır. Mən özüm də bu cərəyanda var idim. Cənab Müctehidi hadisəni dəqiqliklə mənə nəql etmişdir. Hadisə Məşhəd sakini Məhəmməd Əli Xacəvinin şəfa tapmasından gedir. O, cənab Müctehidinin uzaq qohumlarından idi. Hadisə təxminən 1990-cı ildə baş vermişdi. Hadisənin xülasəsi belədir:

Cənab Xacəvi əmisi oğlu ilə birlikdə öz sənətində çalışırmış. Əmisi oğlu Təqi Xacəvi onunla şərik idi. İş vaxtı çəkişin altından bir dəmir qırıntısı çıxıb Xacəvinin sağ gözünə batır. Dəmir gözünə düşən kimi gözü kor olur. Dərhal onu imam Rza (əleyhissalam) adına olan xəstəxanaya aparırlar. Xəstəxanada tez dərman vururlar. Lakin bir nəticə alınmır.

Sonra da Xacəvini Tehrandakı «Lebaf Nejad» adına xəstəxanada yatızdırırlar. Qərara alınır ki, onun o biri gözünün də kor olmamasından ötrü sağ gözünü birdəfəlik çıxartsınlar. Bu hadisə elə olur ki, Məhərrəmin doqquzuncu gününə (tasua) düşür. Qərara alınır ki, Məhərrəmin 12-ci günü onu cərrahiyyə

əməlinə aparsınlar. Bu vaxt cənab Məhdi Müntəcəb adlı şəxs həzrət Əbul Fəzl Abbasa (əleyhissalam) nəzr etdiyi və ondan gördüyü kəraməti Xacəviyə nəql edir. Onu inandırır ki, bir qoyun nəzin etsin. Cənab Xacəvi öz tərəfindən onu vəkil edir və tapşırır ki, mənim əvəzimdən nə cür məsləhət bilirsə elə də etsin.

Cənab Müntəcəb bu hadisəni Müctehidiyiə nəql edir. O, da tapşırır ki: Üç ədəd qoyun nəzir etsin. Birini imam Hüseyn (əleyhissalam)-a, ikincisin həzrət Əbul Fəzl Abbas (əleyhissalam)-a, üçüncüsünü isə imam Rza (əleyhissalam)-a nəzr etsin. Müntəcəb həmin işi görür. Cənab Müctehidi nəql edir ki, hər bir qoyunu kəsdikcə Xacəvinin gözünün bir qisməti yaxşılaşırdı. Belə ki, üçüncü gün onun gözü tamamilə sağaldı. Bu nəzirlərdən sonra daha cərrahiyyə əməlinə ehtiyac olmadı.

İndi də gözünün sağalmasını cənab Xacəvinin öz dilindən eşidək. O, buyurur: Mən xəstəxanada yatmışdım. Yuxuda gördüm ki, şirin su ilə dolu bir hovuzun içindəyəm. Hovuzun içində televizora bənzər bir şeyin içində gördüm ki, bir dəstə qoyunun içindən üç baş qoyunu qurbanlıqdan ötrü ayırırlar. Həmçinin, həmin yuxuda mənə ilham oldu ki, gözlərim yaxşı oldu. Amma mənə elə gəlirdi ki, bu həmin sağlam gözümün də xarab olmasına işarə idi. Çaharşənbə axşamı «Cəmkəran məscidinə (bu məscid Qum şəhərində 12-ci imamın göstərişi ilə tikilib) getdim. Gün çıxandan sonra hiss etdim ki, sağ gözüm görməyə başlayır. Atama dedim və o da çox xoşhal oldu. Çünki, sabah gözümdə cərrahiyyə əməli edəcəkdilər. Buna görə də əməliyyatdan qabaq doktora bir dəfə də təzədən gözlərimi yoxlatdırmaq istədim. Həkimin yanına getdim. Yoxlanışdan sonra həkim mənə dedi:

Sizin sağ gözünüz sağalmaq üzrədir. Daha əməliyyata ehtiyac yoxdur.

Beləliklə cənab Xacəvi, həzrət Əbul Fəzl Abbasa(əleyhissalam) pənah aparmaqla kor olmaqdan nicat tapdı. O, bu hadisəni maşında oturub sürücülük edən halda

danışırdı. Allaha şükr edirdi ki, Əhli-Beyt (əleyhissalam) və o cümlədən həzrət Əbul Fəzl Abbas (əleyhimussalam)-ın bərəkətindən korluqdan nicat tapıb.

## YETMİŞ DOQQUZUNCU KƏRAMƏT

### *«AĞANIN ƏMRİ İLƏ ONUN ADI ABBAS OLACAQ.»*

***Cənab höccətül-islam Nurabadi buyurur:***

4. Mən bu hadisəni cənab Müqimandan soruşmuşam, o da mənə şərh verib. Cənab Abbas Müqiman Məşhəddə tələbədir. Onunla 20 ilə yaxın yoldaşlığım olub. Çox yaxşı tanıyıram.

Nəql edir ki, altı yaşında ağır xəstəliyə düçar oldum. Böyrəkləri çirk edibmiş. Bədəni qeyri-adi şəkildə şişirmiş. Məşhədin və Nişapur şəhərinin həkimlərinə müraciət edir. Heç biri bu dərdə əlac etməyə qadir olmur. Hətta, bə`zi həkimlər müayindən sonra deyirlər ki, ölümə yaxınlaşırsan!

Dindar və əqidəli atası bir müddət onu Məşhəddə imam Rza (əleyhissalam)-ın hərəmində dəxil salır (Əlbəttə, onun əsl adı Məcid olub, həzrət Əbul Fəzl Abbasın(əleyhissalam) əli ilə şəfa tapdıqdan sonra adını dəyişib Abbas qoyur).

Bir müddətdən sonra işinin çoxluğuna görə Məşhəddən Nişapura gəlir. İmam Rza (əleyhissalam)-a oradan belə ərz edir:

«Ağa! Mən Nişapurda da olsam sizin mənə şəfa verməyə qüdrətiniz vardır!.»

Abbas ağanı Nişapura gətirir. Həmin gecə Abbasın atası yuxuda həzrət Fatimə (s.ə)-ı görür və o Həzrət də övladının şəfa tapması müjdəsini ona verir. Həmin gecə Abbas xəstəliyin şiddətindən bədəninin (vərəm halda) ölüm halında olduğunu hiss edir. Yuxudan ayılıb qapıya tərəf qaçır. Fəryad çəkir:

Mənim gözlərimi kim tutmuşdu?

Bu sözü deyəndə hamı Abbası müşahidə edir. Təəccüblə baxırlar ki, o yatdığı yerindən durub qapının ağzında yatıb və deyir

: Biz deyildik! Kim sənin gözünü tutub? Məgər nə görmüsən?

O özü nəql edir ki, iki nəfər ağa burada idi. Onlardan biri belə dedi:

Mən həmin kəsəm ki, atan mənə təvəssül etməklə sənə şəfa aldı. Digəri belə dedi:

Mən də Abbasam. Bundan sonra sənin də adın **Abbas olsun!**

Sonra həzrət Əbul Fəzl Abbas (əleyhissalam) mənim bədənimə əl çəkdi.

Əlbəttə, Abbasın atası həzrət Əblu Fəzl Abbasa (əleyhissalam) bir çıl-çıraq nəzir etmişdi. Şəfa tapdıqdan sonra nəzirini əda etdi. Həmçinin, nəzr edir ki, övladı Məcid (Sonradan adın dəyişir) tasua günü əhaliyə şərbət paylasın. Bununla da bizim əziz dostumuz cənab Abbas Müqiman həzrət Əbul Fəzl Abbasın (əleyhissalam) bərəkətindən təzə həyata başlayır.

## HƏŞTADINCI KƏRAMƏT

### *«BİR ƏLİN MƏNİM DALIMCA GƏLDİYİNİ GÖRDÜM!»*

5. Başqa hadisə cənab Həsən Yusifinin anbar sularında batmasından xilas olmasıdır:

Yusifi Nişapurun kəndlərinin birində sakindir. Yol hamarlayan ağır maşının sürücüsüdür. Hadisəni o özü mənə nəql etmişdir. O, əsl macəraya üç il əvvəl sual şəklində işarə etdi. Buyurdu:

Heç özüm də bilmirəm necə oldu ki, həzrət Əbul Fəzl Abbasın(əleyhissalam) adı birdən mənim dilimə gəldi və mən

nicat tapdım. Çünki, mən bütün giriftarçılığımda imam Rza (əleyhissalam)-ın adını çağırırdım. Heç vaxt olmamışdı ki, müşkül işimdə həzrət Əbul Fəzl Abbasın (əleyhissalam) adını çəkim. Nəql edəcəyim hadisədə isə həyatdan tamamilə ümüdümi üzən halda, birdən bütün vücudumla həzrət Əbul Fəzl Abbası (əleyhissalam) köməyə çağırdım və nicat tapdım!

Hadisə belə olub:

Cənab Yusifi təxminən, 1995–96-cı illərdə «Əsfarin» anbar suyunun qarşısındakı səddə işləyirdi. Hərdən bir işinin yanında suya girib çimirdi. Əlbəttə, üzməyi yaxşı bilmədiyinə görə çalışırdı ki, anbarın dərin yerlərinə getməsin. Amma, başqa işçi dostları üzməyi yaxşı bacarırdılar. Bir gün o və işçi dostları çimmək üçün anbar suyuna girirlər. O da səhvən suyun dərin yerinə gedib çıxır. Dostlardan hər birisi nə qədər çalışırsa onu sudan xilas edə bilmirlər. Çalışmaları nəticəsiz qalır. Təkcə bu işi görürlər ki, təzə nəfəs almaqdan ötrü onu suyun üzünə qaldırırlar. Nəhayət, çox çək-çevirdən sonra suyun dibinə gedir. Suyun dibinə çatanda birdən qəlbində bütün vücudu ilə həzrət Əbul Fəzl Abbası(əleyhissalam) çağırır. Bundan sonra gözümü suyun altında açdım. Təəccüblü idi. gördüm ki, dalımca bir əl gəzir. Tez əldən tutdum. O, məni səddin kənarına çəkdi və mən nicat tapdım. Çünki anbarda işləyənlər suyun üzündə əl-ələ verib mənim nicatımdan ötrü çalışırdılar. Elə də oldu. Allah, həzrət Əbul Fəzl Abbsın(əleyhissalam) bərəkətindən qəti ölümdən mənə nicat verdi.

## HƏŞTAD BİRİNCİ KƏRAMƏT

### *BİRDƏN DAĞ TƏRƏFDƏN İKİ CANAVAR GÖRÜNDÜ!*

***Höccətül-islam Seyyid Əli Musəvi, Məhəmməd Babainin dilindən belə nəql edir:***

1995-ci ilin Məhərrəm ayının doqquzuncu günü əhalidən bir nəfərinin həzrət Əbul Fəzl Abbasa(əleyhissalam) nəzr etdiyi qurbanlıq qoyunu qaçır. Mən və qardaşım qoyunun dalınca getdik. Nə qədər çalışdıqsa onu tutmağa müvəffəq olmadıq. Birdən dağ tərəfdən iki canavar çıxıb qoyunun dalınca getdilər. Biz də canavarların qoyunu parçalamasının qarşısını almaqdan ötrü tələsdik. Təxminən, qoyunun on metrliyində o iki canavar qoyunu tutdular. Onlardan biri qoyunun boğazından tutmuş, ikincisi isə tamaşa edirdi. Elə ki, qoyuna yaxınlaşdım. Canavar qoyunun boğazını buraxdı. Mö`cüzəli idi qoyunun boğazında heç bir cızıq yeri də yox idi. Bundan əlavə qoyunun belində canavarın caynaqlarının yeri qalmışdı. Lakin, heç bir caynaq qoyunun dərisini də cızmamışdır!

## HƏŞTAD İKİNCİ KƏRAMƏT

### *«HƏZRƏT ƏBUL FƏZL ABBAS(Ə) ZƏMANƏTİ!»*

***Cənab hacı Əbul Həsən Şərifi yazır:***

1. Mən bə`zi maşınların üzərində «Həzrət Əbul Fəzl Abbasın (əleyhissalam) zəmanəti» sözlərini oxuyanda öz-özümə şəkk edirdim ki, görəsən bu məsələnin sənədi var ya yox? Düzgündür ya yox?

Həmin fikirlə gecə yuxuya getdim. Gecə aləmi röyada gördüm ki, heç bir insan gözünə dəyməyən bir səhradayam. Bir ədəd qoyunu bir dəstə canavar dövrəyə alıb yemək istəyirdilər. Qoyun hələ diri idi. Fəryad çəkib köməyə səsləyirdi. Ona kömək etməyə heç kəs yox idi. İstədim irəli gedəm. gördüm ki, canavarlar məni də qorxudurlar. Öz-özümə fikirləşdim ki, görəsən bu qoyun kimindir ki, belə giriftar olub? Həmin anda qulağıma səs gəldi ki, həzrət Əbul Fəzl Abbasın(əleyhissalam) malıdır. Təəccübləndim. Görəsən həzrət Əbul Fəzl Abbas (əleyhissalam) nəyə görə öz qoyununu

müdafiə etmir? Bəs «Həzrət Əbul Fəzl Abbasın zamanətində olmaq» məsələsinin nə faydası var. Birdən qarşımda böyük bir atın olduğunu gördüm. Atın üstündə ayaqları yerə dəyən və atın üzəngisindən hündür bir şəxsin oturduğunu gördüm. Lakin çöhrəsini nurun şiddətindən görmək olmurdu. At başını yerə tərəf əyib hərəkətə gəlmək istəyirdi. Lakin gedə bilmirdi. Həmin anda çöhrəsi nurdan seçilməyən şəxsdən sözlər eşitdim ki, buyurdu:

Bizə aid olan şeyi fərq etmir ki, insan yesin ya heyvan. Lakin bizə tapşırılanı qoruyuruq!»

Bu sözü deyib gözdən itdi. Özümə gələndə ayıldım. Başa düşdüm ki, gördüyüm atlı şəxs həzrət Əbul Fəzl Abbas (əleyhissalam) imiş. Bu səhnə ilə mənə başa saldı ki, Əbul Fəzl Abbasın (əleyhissalam) zəmanətində olmaq doğrudur. Bə`ziləri var ki, heyvanla fərqləri yoxdur. Bəlkə də Qur`an ayəsinə görə heyvandan da aşağı səviyyədədirlər:

***«Onlar heyvan kimidirlər, bəlkə də daha çox zəlalətdədirlər». (Ə`raf-179)***

## HƏŞTAD ÜÇÜNCÜ KƏRAMƏT

### *«HÜSEYNİYYƏ ÜÇÜN ƏLƏM TƏŞKİL EDİN!»*

***2. Cənab Şərifi, höccətul-islam vəl-müslimin hacı şeyx Əhməd Mə`rifətdən belə nəql edir:***

Xarici ölkələrdən birində illərlə övladı olmayan bir şəxs vardı. Həzrət Əbul Fəzl Abbas (əleyhissalam) adlı bir Hüseyniyyə (əzadarlıq məclisinin keçirildiyi yer) təşkil olunmuşdu. O, da bu mərasimlərdə iştirak edirdi. Aşura günü Hüseyniyyənin xidmətçisi ondan soruşur:

Nəyə görə həmişə qəmginsiniz?

Cavabında dedi:

«Övladım olmadığına görə həyatımın şirinliyi yoxdur.»

Xidmətçi ona – həzrət Əbul Fəzl Abbasa (əleyhissalam) pənah apar və ona nəzr et – deyə məsləhət verir. Əgər gələn ilə kimi inşaallah övlad sahibi olsanız bu Hüseyniyyəyə bir ələm gətirərsiniz. O şəxs bu sözü qəbul edir. Sonrakı ilin aşura gününə kimi Allah ona bir övlad nəsib edir. O, uşağı qucağına alıb nəzr etdiyi ələmlə birlikdə «Hüseyniyyəyə» gəlir. Bu səhnəni hamı müşahidə edir.

Bir neçə il keçdi. Uşaq böyümüşdü. Hər il ələmi Hüseyniyyəyə aparır, sonradan isə təbərrük üçün evə gətirirdi. Beləliklə 12 il keçir.

12-ci il uşaq həyətdə oynayarkən hovzun içinə düşür. Evdə heç kəs olmdığından əl-ayaq çırpıb canını tapşırır. Anası evə gələndə bu mənzərəni görüb fəryad çəkir. Qonşular yığışırlar. Atasının sorağına gedirlər. Elə ki, atasına xəbər verirlər oğlun hovuzda boğulub ölüb, o buna inanmır. Cavab verir ki, ola bisin başqasının uşağı olsun. Çünki, övladım həzrət Əbul Fəzl Abbasın(əleyhissalam) zamanətindədir. Adını da onun hörmətinə Abbas qoymuşam. Ola bilməz ki, cavan vaxtında ölsün. Bundan əlavə mənim neçə illər övladdan məhrumiyyətimdən sonra Allah mənə o Həzrətə xatir övlad əta edib. Başqa övladım da yoxdur.

Həyətə daxil olanda oğlunu hovuzun içində görür. Halı dəyişir. Heç bir əks-əməl biruzə vermədən evə girir və ələmi gətirib hovuzun kənarına qoyur. Sonra uşağı hovuzdan çıxarıb ələmin kənarına qoyub fəryad çəkir:

«Ya qəməri bəni Haşim! Ya Əbul Fəzl Abbas! Özünüz qəzavət edin. Bu ələmi uşağımın sizin ələmdarınız olmaqdan ötrü nəzr etmişdim. İndi onu kimə təhvil verim? Daha qüdrətim yoxdur ki, onu qaldıram!»

Bu halda hamı gördü ki, boğulmuş uşaq asqırıb yerindən durdu. Ata ələmi onun əlinə verdi. O gündən sonra uşaqda heç bir kəsalət müşahidə olunmayıb.

## HƏŞTAD DÖRDÜNCÜ KƏRAMƏT

### *«HƏZRƏT BUYURDU: BU BAŞI TÜKLÜNÜ O KEÇƏLLƏ DƏYİŞİB HƏCCƏ GÖNDƏRİN!»*

3. ***Kərəc şəhərinin seyyidlərindən birisi gözü yaşlı halda həzrət Əbul Fəzl Abbasdan(əleyhissalam) belə bir kəramət nəql edir:***

Həcc karvanının müdüriyyəti mənim öhdəmdə olan vaxtı günlərin birində Yəzd sakinlərindən biri karivanda xadim işləməkdən ötrü adının yazılmasını xahiş etdi. Mən ona dedim:

Sizin «Beytullahil-hərama» getməyinizə heç bir imkan yoxdur. Çünki, «Hacılara xidmət» işlərini tamamlayıb həcc idarəsinə təhvil vermişəm. Bir neçə gündən sonra hacıların uçuşu başlayır. Şəxs cavabında dedi:

Mən sizə bir nişanə verəcəyəm. Əgər həqiqət olsa sizinlə həccə gedəcəyəm, əgər həqiqət olmasa, Yəzd şəhərinə qayıdıb bir daha sizə mane olmayacağam.

Dedim: Nə nişanən var?

Dedi: Sizdən mə`yus olan vaxt bilet alıb gecəynən Yəzdə qayıtmaq istədim. Avtobusun işıqları sönəndən və səfər həyatından sonra özümdə yaxşı hal bilib həzrət Əbul Fəzl Abbasa (əleyhissalam) təvəssül etdim. O Həzrətdən həcc səfərinə nail olmaq istədim. Birdən mənə elə gəldi ki, həzrət Əbul Fəzl Abbasın (əleyhissalam) müqabilindəyəm və siz də onun kənarındasınız. Həcc istəyimi ona ərz etdim. Həzrət sizə buyurdu:

Xəlilullah! Bu şəxsi də özünüzlə həccə aparın.

Siz dediniz ki, heç bir yol yoxdur. Sənədləşmənin sona yetməsinə görə həcc idarəsi qəbul etmir. Tezliklə hərəkət başlanır. Təzədən o həzrətdən xahiş etdim. Yenə də həzrət sizə tərəf buyurdu:

Bu şəxsi də özünüzlə həccə aparın.

Siz yenə də heç bir imkanın olmadığını söylədiniz. Bu halda həzrət buyurdu:

«Bu başı tüklünü o keçəllə əvəz edib həccə aparın».

İtaət olunar – deyə buyurdunuz.

Bu halda yuxudan oyandım. Gördüm ki, Yəzdə yaxınlaşmışıq. Arxayın oldum ki, bu il həccə gedəcəm.

Yol tədarükünü hazırlayıb ailə-uşaqla vidalaşdım. Bu həmin əlamətlərdir ki, həzrət Əbul Fəzl Abbas (əleyhissalam) sizə buyurmuşdur. İndi özünüz bilərsiniz. Mən gəlmişəm.»

Mən öz-özümə fikirləşdim ki, başında tük olmayan yalnız bir nəfərdir. O da həmişə başına papaq qoyur ki, başqaları onun keçəl olmasını bilməsinlər. Yaxınlıqdakı göyərti satan dükançının yanında lüməkçi işləyirdi. Bu il hacılara xidmət etməkdən ötrü ad yazdırmışdı. Sənədlərini də artıq həcc idarəsinə göndərmişəm. Düşünürdüm ki, həzrət Əbul Fəzl Abbasın(əleyhissalam) əlamətləri əsasında bu şəxsin sənədlərini hansı yolla dəyişmək olar? Elə bu anda həmin keçəl şəxs idarəyə daxil olub bu il həccə getməsinin ləğv olunmasını israr etdi.

Dedi: Nə qədər xərc etmişəmsə istəmirəm, yalnız adımı siyahıdan pozun! Soruşdum: Səbəbi nədir? Cavab verdi ki, mağaza sahibi eşidəndə ki, mən həccə gedirəm mənə dedi ki, daha həccdən qayıdandan sonra başına bir çarə qıl. Mənim dərdimə yaramazsan. Çünki siz həccə gedib-gəlincə mən dükanı bağlı saxlaya bilmərəm. Axı sənə həcc vacib deyil, yalnız xidmət üçün gedirsən!

Qısası nə qədər israr etdimsə faydası olmadı. Ona görə də sizdən xahiş edirəm ki, mənim adımı pozasınız. Onun bu tə`kidini gördükdə, dedim: Bu şərtlə ki, öz e`tirazını mənə yazılı şəkildə yazasan. Onu da qəbul etdi. Mən Yəzdən olan şəxsə dedim ki, keçəl öz e`tirazını yazıb, daha həccə getmir. Siz sənədlərinizi hazırlayın həcc idarəsinə gedəcəyik. Xoşbəxtçilikdən o gün həcc işlərini aparan bizim köhnə qonşumuz və dostumuz idi. Hadisəni ona nəql etdim. O da tam ehtiramla keçəl şəxsin sənədlərini ləğv edib, mənim sənədlərimi onun əvəzində təşkil etdi. Başqa sənədləşmələr də qeyri-adi halda öz yoluna düşdü. Nəhayət, həzrət Əbul Fəzl

Abbas (əleyhissalam)-ın tapşırdığı şəxsi özümlə həccə apardım.

## HƏŞTAD BEŞİNCİ KƏRAMƏT

### *«YA ŞƏFA VERİRSƏN, YA DA MƏN UŞAĞIMLA BURADACA ÖLƏCƏYƏM!»*

***Kərəc şəhərindən Əhli-Beyt (əleyhimussalam) şairi, ustad hacı Əsğər Soltani yazır:***

Təxminən 1976-cı ildə Kərəc şəhərindən turistlərlə birlikdə bir həftəliyə Kərbəlaya ziyarətə getmişdik. Üç gün Kərbəlada qaldıq. Sonra bizi birlikdə Kazimeyn şəhərinə apardılar. Kazimeynə yola düşməzdən əvvəl şairlik həvəsim şö`ləlndiyinə görə Allahın köməyi ilə həzrət Əbul Fəzl Abbasın(əleyhissalam) şə`nində yaxşı bir məddahlıq məclisi keçirtdim. Dəstə başçısı hacı seyyid Fəzlullah Ali Tə`mə mənə dedi:

Biz xidmətçilər hamımız söz qoymuşuq ki, ildə bir dəfə dəyişən həzrət Əbul Fəzl Abbasın(əleyhissalam) hərəminin üstündəki ələmi hərəmə verməyək. Əlbəttə, ələmin uzunluğu səkkiz metrdir. Siz cümə gecəsi bura gəlin, yaxşı məclislə bu işi yoluna qoyaq. Mən cümə gecəsi Kazimeyndə idim. Orda qərara aldım ki, qaçaq yolla dördüncü günü Kərəblaya gedim. Nəhayət çətinliklə Kərbəlaya gəldim. Ziyarət, dua oxuyandan sonra xidmətçi mənə dedi:

Bizim məclisin rəisi Səddamın də`vəti ilə Bağdada gedib. Siz sabah cümə günü gəlin, biz də qəbul etməkdən başqa çarəmiz yoxdur. Həmin anda gecə saat 12 radələri olardı. Birdən həzrət Əbul Fəzl Abbasın(əleyhissalam) hərəminin qapısı ağzından bir qadının ucadan ağlamaq səsini eşitdik. Yaxına getdik. 7-8 yaşlı bir qız uşağını yaşıl parça ilə həzrət Əbul Fəzl Abbasın (əleyhissalam)zirehinə bağlanmışdı. Anası ərəbcə deyirdi:

«Bura ümid və şəfa evidir! Həkimlər mənim uşağıma tez rədd cavabı verdilər. Əgər sən də bizə şəfa verməsən səninlə maddi həkimlər arasında nə fərq var? Qısası sadə və ciddi deyirəm: Ya şəfa verirsən, ya da mən uşağımla birlikdə buradaca öləcəm!»

Biz bu səhnəni müşahidə etdikdə doğrusu çox narahat olduq. Növhə oxuyub, dua etdik və gecə ikən Kazimeynə getdik.

Cümə günü günortadan sonra nə qədər dedimsə, gəlin ələmdən ötrü Kərbəlaya gedək, heç kəs razı olmadı. Hamısı bir ağızdan dedilər: Bizi mə`murlar sorğu-suala tutacaqlar. Çünki, o vaxtı İran dövləti (şah) zəvvarlarla birlikdə xüsusi mə`murlar da göndərirdilər. Nəhayət, həzrət Əbul Fəzl Abbas(əleyhissalam) xatirinə ələmi almaqdan ötrü təkcə Kərbəlaya yola düşdüm. Həzrət imam Hüseyn (əleyhissalam)-ın hərəminə daxil oldum. Orada saya gəlməz qədər camaatın cəm olduğunu müşahidə etdim. Soruşdum ki, nə olub? Dedilər:

Dünən axşam həzrət Əbul Fəzl Abbas(əleyhissalam) ölümcül bir qıza şəfa verib. Köçərilərin böyük qəbiləsindən olan anası gedib qəbiləsi ilə birlikdə burada ehsan verməkdən ötrü qoyun gətiriblər. Şadlıq edirlər. Mən xidmətçinin köməyi ilə qızın anasını tapdım. Gördüm ki, dünən ölümcül halda olan qız bu gün qəşəng libas geyib oturmuşdu. Anası da özünü bəzəmiş halda idi. Mən xidmətçidən xahiş etdim ki, qızın necə şəfa tapmasını soruşsun. O, bunu soruşanda qız ağlamağa başladı və dedi:

Bir aya yaxın idi ki, nə danışır, nə də yemək yeyirdim. Yalnız başımı tərpətməklə fikrimi çatdırırdım. Bir gün gördüm qapı açıldı. Gözəl bir kişi əlində süd mənə tərəf gəlir. Buyurdu:

Bu südü iç yaxşı olarsan! Anana da de ki, mənim hərəmimdə heç kəs ölməz. Bu qədər fəryad etməsin! Sonra mənə dedi: Qalx!

Mən özüm də bilmədən qalxdım. Başıma bağlanmış yaşıl parça açıldı, o möhtərəm də gözdən itdi. Anam birdən məni belə halda müşahidə etdikdə fəryad çəkib özündən getdi. Nəhayət, ağam Həzrət Əbul Fəzl Abbas(əleyhissalam) məni naümid qoymadı. Mən nə qədər ki, sağam, bu hərəmin kəniziyəm.

Bu sözləri eşitdikdə biz də ucadan ağladıq. Sonra ələmi mənə verdilər. İrana gələndə dostlar görüşümə gəldilər. Ələmi qayçı ilə kəsib tikə-tikə etdik. Hərəyə bir az düşdü. İndi ondan bir metrə yaxını da mənim mənzilimdədir. Nə deyim, bu böyük Əhli-Beyt (əleyhissalam) dəstəsi bundan da böyük şəfaətlər bəxş etmişlər. Şəkk edənə lə`nət!

## HƏŞTAD ALTINCI KƏRAMƏT

### *«İSTİ KƏRPİCLƏR ÜSTÜNDƏ DƏRDDƏN NALƏ EDİRDİM!»*

***«Azad İslam» universitetinin müəllimi cənab Əhməd Şahpuri Ərani yazır:***

1950-ci il idi. Zilhiccə ayında böyük həcc mərasimi yaxınlaşırdı. Nəcəfül-Əşrəf elm ocağının qədim tələbələrinin adəti bu idi ki, Nəcəfdən Kərbəlaya ziyarət məqsədi ilə dövrə ilə hərəkət etsinlər. Ələbttə, onu da qeyd edək ki, bu hərəkət dəstə-dəstə icra olunurdu. Bir dəstə Kufə kənarından olurdu. Bu yolda yamyaşıl xurma bağları və tikili evlər vardı. Bə`zi yerlərdə yalnız qumluq olub başqa imkanatlar olmadığından yalnız maşınla yol getmək mümkün idi. O vaxt Kərbəla ilə Nəcəf arasındakı yol asfalt deyildi. Hər halda karvanlar Kufə kənarından dörd fərsəxlikdə gecələr qalıb yollarına davam etməklə hərəkət etməli idilər.

O ili bir dəstə tələbə həzrət Ayətullah Şeyx ağa Bozorg Tehrani ilə birlikdə Nəcəfdən Kərbəlaya yola düşdük. Onunla

birlikdə yoldaşlıq bizim üçün böyük səadət idi. Nəhayət, Ərəfə gecəsi Kərbəlaya yetişdik.

Mən Kərbəlaya çatanda xəstələndim. Səbəbi də günəşin tə`sirindən idi. Möhkəm bel ağrısına tutulmuşdum. Heç hərəkət edə bilmirdim. Başqa tərəfdən dostlar Ərəfə gecəsinin əməllərinə, Ərəfə qüsluna, xüsusi Ərəfə ziyarətinə və imam Hüseyn (əleyhissalam) ziyarətinə hazırlaşırdılar. Hamı getmişdi və məni unutmuşdular. Gecənin əvvəli idi. Kərbəlanın havası saflaşmışdı. Ulduzlar asimanda parıldayırdı. Mən də ağrıdan öz-özümə qıvrılmışdım. Birdən gözlərim həzrət Əbul Fəzl Abbasın (əleyhissalam)pak hərəminin günbəzi gözümə sataşdı. Şiddətli bel ağrısı, təzə və qəriblikdə məktəbin damının isti kərpicləri üstündə nalə edirdim. Qəməri bəni Haşimin(əleyhissalam) hərəminə baxaraq avamcasına heç bir müqəddiməsiz gözlərimdən yaş sel kimi axmağa başladı. Öz dilimdə həzrətə xitab edərək bir neçə kəlmə söz dedim:

«Ağa! Salam! Mən bir qərib tələbəyəm. Sizi ziyarət etmək məqsədilə Nəcəfdən durub bura gəlmişəm. Bütün dostlarım ziyarət etməyə müvəffəq oldular, amma mən bu gecənin fəzilətindən məhrumam. Əgər mənə şəfa versəniz çox razı olaram. Əgər bu gecə mənə şəfa verməsəniz bir daha adınızı çəkməyəcəm. Çünki, hər kimin hacəti varsa biz onu sizin evinizə tərəf göndəririk. İndi də mən özüm sizə möhtacam!»

Qısası, bir an içində bilmədim yuxuya getdim, ya oyaq idim, amma kimsə mənə dedi ki:

Nəyə görə hərəmə getmirsiniz? Qalx! Dostlarına qoşul! Birdən özümə gəldim. Yerimdən qalxdım. Gördüm ki, tamamilə sağlamam. Sanki heç xəstələnməmişdim. Heç bel ağrım da yox imiş. Dəstəmaz aldım. «Məfatehül-cinan» kitabını götürüb hərəmə yola düşdüm. Ərəfə gecəsi və imam Hüseyn (əleyhissalam)-ın xüsusi ziyarəti əməllərini yerinə yetirdim. Ziyarət arasında dostlarımı gördüm. Dedilər:

Məgər sən xəstələnməmişdin? Halın yaxşı deyildi?

Dedim: Yaxşılaşdım. Şəfa aldım.

Mənim bu pak nəsildən müşahidə etdiyim kəramətlərdən biri bu idi.

## HƏŞTAD YEDDİNCİ KƏRAMƏT

### *«YA ƏBUL FƏZL! BURA SƏNİN İŞİNDİR!»*

***Cənab Şeyx Məhəmməd Rza Xurşidi belə nəql edir:***

Mənim Qur`an müəllimim pak şəxsiyyətli bir insandır. Təxminən, 40 il Kumeyl, Nüdbə və Səmat dualarında iştirak etdiyim hacı Məhəmməd Hüseyn Məhdəvi Şirvani Babil şəhərinin sakinidir. Bir neçə dəfə bu əhvalatı müxtəlif yerlərdə nəql etmişdir. Mən də ondan eşitmişəm. O buyurur:

Bir gün bazardan gələndə tanışlardan birisi məni çağırıb dedi: Xarici ölkədə oxuyan filankəsin oğlu son vaxtlar İrana Babil şəhərinə ata-anasını görməyə gəlib. Mənə nəql edir ki, bir neçə gün əvvəl Babil şəhərinin ətraf kəndlərindən birində bir kəramətin şahidi olmuşdur. Kəramət belə olub:

İşçilərdən biri özü də bilmədən otruduğu budağı kəsməyə başlayır. Ağac çox hündür, aşağısı isə dərin bir dərə idi. Ona görə də ağacın qırılması ilə işçinin üzü aşağı düşməsi bir oldu. Ondan yalnız Mazandaran ləhcəsi ilə bu səs gəldi:

Ya Əbul Fəzl Abbas! Bura sənin işindir!

Onun yıxıldığı məqama görə göydə bir neçə dəfə mayallaq aşıb dərədə dağa-daşa dəyərək yerə düşməliydi. Öz-özümə dedim ki, gedim bu şəxsin tikələrin dərənin dibindən gedim yığım. Lakin, elə ki, kənardan dərənin dibinə baxdım, gördüm ki, dərənin dibində ayaq üstə durub ətrafına baxır. Sanki kimisə axtarırdı.

Hər halda ip gətirib ucunu dərənin dibinə atıb başqa tərəfini belimə bağlayıb onu çəkməyə başladım və çəkib yuxarı çıxartdım. Çölə çıxdıqdan sonra gördüm ki, həyacanlı halda ətrafa baxıb deyir:

Ağa hanı!? Ağa hanı!? Ağa hanı!?

Soruşdum:

Nə danışırsan? Ağa kimdir?

Dedi: Elə ki, dərənin dərinliyinə düşəcəyimi hiss etdim, bildim ki, burada yalnız Əbul Fəzl Abbası (əleyhissalam) çağırmaq lazımdır. Ona görə də ağanı çağırdım. Daha sonra nə olduğunu bilmədim. Yalnız onu hiss etdim ki, bir ağa gəlib məni götürüb rahatlıqla dərənin dibində bir daşın üstünə qoydu və dərhal yoxa çıxdı.

## HƏŞTAD SƏKKİZİNCİ KƏRAMƏT

### *«ARXAYIN OL! BU UŞAQ SAĞALACAQ!»*

***Cənab höccətul-islam vəl-müslimin hacı seyyid Məhəmməd Təqi Ğərəvi anasından onun uşaqlıqda başına gələn hadisəni belə nəql edir:***

1. Seyyid Məhəmməd Təqi anadan olanda ana südü yemir, yə`ni ana döşünü götürməyə qadir olmur. O, yeddi aylığında dünyaya gəlmişdi. Ondan əvvəl bir qardaşı ölmüşdü. Anası onun sağalmasından ötrü həzrət Əbul Fəzl Abbasa(əleyhissalam) pənah aparır. Nəzr edir ki, uşaq sağ qalsa o Həzrətin məqdəminə bir qoyun təqdim edəcək.

Bu nəzirdən sonra bir gecə ana sübh azanına yaxın yuxuda görür ki, bir tülkü bir ağ xoruzu aparır. Bu halda tez-tez çağırır:

Ya Əbul Fəzl Abbas! Ya Əbul Fəzl Abbas!

Həzrət qəməri bəni Haşimə (əleyhissalam) təvəssül etdikdən sonra uca qamətli bir seyyid xoruzu tülküdən alır və anaya verir. Bu səhnəni müşahidə etdikdə ana birdən yuxudan ayılıb uşağın atasını oyadıb deyir: Sən ətir iyini duyursan? Kişi cavab verir ki, bu, səhər yelinin ətridir. Sübh namazını qıldıqdan sonra ana gördüyü yuxusunu ərinə nəql edir. Kişi buyurur: Arxayın ol ki, bu uşaq sağ qalacaq! Həzrət Əbul Fəzl Abbasın(əleyhissalam) bərəkətindən sağ qalacaq.

Kitabın müəllifi yazır: Cənab seyyid Məhəmməd Təqi Ğərəvi bu gün Qur`an və Əhli-Beyt (əleyhimussalam)-ı təbliğ edən ən böyük alimlərdən biridir.

## HƏŞTAD DOQQUZUNCU KƏRAMƏT

### *«O HƏZRƏTDƏN ÖTRÜ QOYUN NƏZR ETDİM!»*

2**. *Cənab Ğərəvi özü buyurur:***

Mən bir neçə dostumla birlikdə Qumdan Tehrana gedirdim. Yol arasında tam sür`ətlə qarşı tərəfdən gələn maşınla üzləşdik. Təhlükəli vəziyyət idi. Düz sürmək qorxulu idi, tormuz etsəydim hadisə baş verəcəkdi, ona görə də maşını yolun sağına tərəf döndərdim. Bu arada anamın həzrət Əbul Fəzl Abbasa(əleyhissalam) olan təvəssülü yadıma düşdü. Mən də o Həzrətin ətəyindən yapışdım. O Həzrətdən ötrü qoyun nəzr etdim. Bir anda maşın dəhşətli qəzadan nicat tapdı!

## DOXSANINCI KƏRAMƏT

### *«MƏN ANADAN OLANDA ŞİL OLMUŞAM!»*

3. ***Həmçinin cənab Ğərəvi buyurur:*** 1412 (hicri qəməri) ilin Məhərrəm ayının on günlüyü idi. Kərəc şəhərində cənab Rəfizadənin evində mənbərdə söhbət edirdim. Doqquzuncu günü söhbət etməkdən ötrü məni Hindistan və pakistanlıların məclisinə apardılar. Məclisdə hindlilər çox idilər. Ev sahibi pakistanlı olduğuna görə onların adəti əsasında namaz və ziyarətdən sonra həzrət Əbul Fəzl Abbas (əleyhissalam)-ın duasını oxuduq. Mənbərdən sonra məclis sahibi maraqlı bir hadisəni nəql etdi. O, buyurdu:

Mən anadan olanda şil olmuşam. Atam dövlətli olduğuna görə mənim müalicəmdən ötrü bütün mütəxəssis həkimlərə

göstərir. Lakin heç bir faydası olmur. Anam atama deyir: Mən həzrət Əbul Fəzl Abbasın(əleyhissalam) əzadarlığına gedirəm. Ağadan şəfa alıb gələcəyəm. Sonra əlavə edir: Əgər oğluma şəfa verməsə bir daha mənzilə gəlməyəcəm.

Bəli! Anam həzrət Əbul Fəzl Abbasa(əleyhissalam) dua edir və mən şəfa tapıram.

## DOXSAN BİRİNCİ KƏRAMƏT

### *DEDİ: SİZİ ALLAHA AND VERİRƏM, SİZ DƏ «YA ƏBUL FƏZL!» DEYİN.*

***Höccətul-islam vəl-müslimin hacı şeyx Məhəmməd Nəcəfi Zəncani öz xatirəsində Zəncan alimlərindən belə yazır:***

Təxminən 1950-ci ildə mübarək Ramazan ayında təbliğdən ötrü Qum şəhərindən Zəncanın Tarim məntəqəsinə getmişdim. Oranın Zəhturabad kəndində vəzifəmi yerinə yetirib Ramazan ayı qurtarandan sonra Zəncana gəlməyə hazırlaşdım. O vaxt kənddə at və qatırdan başqa nəqliyyat vasitəsi yox idi. Ona görə də bir neçə nəfərlə birlikdə bir arabanı kirayə edib Zəncana tərəf hərəkətə başladıq. Onlar mənə çox hörmət göstərib əşyalarımı da yüklədilər. Özümü də bir qatıra mindirdilər. «Qızıl üzən» çayını keçdikdən sonra dağdan keçməliydik. Qarşıda bizi qorxulu və təhlükəli yollar gözləyirdi. Onlar istirahət (həm özləri həm də heyvanları yedizdirmək) üçün dayandılar. Bu vaxt yükünün əyilməsinə görə qatırlardan biri az qalırdı üzü dərəyə yuvarlansın. Hamılıqla dedik ki, əgər dərənin dibinə düşsə daha sağ qalmaz. Qatırın sahibi cavan və kasıb bir oğlan idi. O, yanıqlı qəlblə fəryad etdi:

Ya Əbul Fəzl Abbas, özün kömək ol!

Sonra bizə üz tutub dedi:

And verirəm Allaha, siz də «Ya Əbul Fəzl Abbas! deyin.

Biz də hamılıqla fəryad etdik: Ya Əbul Fəzl Abbas!

Bir an içində qatır ayaqları üstə düzəldi və belindəki yükü yerə ilişib dayandı. Əgər bir az da hərəkət etsəydi dərənin dibinə düşəcəkdi. O vaxt daha sağ qalmazdı.

Yükləri açıb qatırı çəkib xilas edərək yola çıxartdılar. Qatır sahibi ağlayaraq həzrət Əbul Fəzl Abbasın (əleyhissalam) kəramətini yad edirdi.

## DOXSAN İKİNCİ KƏRAMƏT

### *«BU İŞ 25 DƏFƏ TƏKRAR OLDU!»*

***Həzrət Ayətullah seyyid Məhəmməd Əli Ruhani Qumi izhar edir:***

***Mərhum atam buyurur:***

Günlərin birində həzrət Əbul Fəzl Abbasın(əleyhissalam) pak hərəmində idim. Əlində bir miqdar pul olan bir kişi içəri girib həmin pulları zirehin içinə atmaq istədi.

Xidmətçilərdən biri gəlib israrla pulun ağanın adı ilə ona verilməsini tələb etdi. O isə cavab verir ki, mən nəzr etmişəm ki, pulu zirehin içinə özüm atım. Heç cür razılaşmadılar. Axırda kişi xidmətçiyə dedi:

Mən pula bir ip bağlayacağam. Əvvəl mənim nəzirim əda olsun, sonra özün çəkib ordan çıxardarsan.

Xidmətçi bu fikri qəbul edir. Pul sahibi pulu ipə bağlayıb zirehin içinə atır. Sonra xidmətçi nə qədər dartırsa pul geri çəkilmir və ilişib qalır.

Atam əlavə edir: Bu iş 25 dəfə təkrar oldu. Hər dəfə ipi çəkdilərsə ilişib qaldı. Nəhayət, xadim dedi: Ya Qəməri bəni Haşim! Pul sizindir, lakin ip isə bizim. Heç olmasa ipi bizə ver. Bu halda pul zirehin içində qalır, ipi isə dartıb çıxarırlar!

## DOXSAN ÜÇÜNCÜ KƏRAMƏT

### *«ƏSSƏLAMU ƏLƏYKƏ YA ƏBUL FƏZL ABBAS!»*

***Höccətul-islam vəl-müslümin hacı seyyid Əli Mirhadi yazır:***

Son iki ildə İran İslam cümhuriyyətindən olan dostlarımla birlikdə Loristan şəhərinin çöllükdə yaşayanların içinə səfərə getmişdim. Bu səfərdə böyük nazirlərdən biri bizə yol göstərirdi. Mən doğurdan da bu köçəri həyat sürənləri Əhli-Beyt (əleyhissalam)-a ən böyük məhəbbət bəsləyənlərdən gördüm. Amma, nazirlərdən biri bu tayfanın həzrət Əbul Fəzl Abbasa(əleyhissalam) olan xüsusi məhəbbətlərini belə şərh etdi:

Günlərin birində köçərilərdən biri bizim evə gəlib xahiş etdi ki, mənim dilimdən Əmirəl-mö`minin (əleyhissalam)-a və həzrət Əbul Fəzl Abbasa(əleyhissalam) bir ərizə yazım.

Dedim:

Mənim bu işi görməyə cür`ətim yoxdur. O gedib məktubu başqasına yazdırır. Ərizənin mövzusu bu idi:

Ya Əmirəl-mö`minin! Mən istəyirdim ki, oğlum əsgərliyə getməsin. Bundan ötrü övladın həzrət Əbul Fəzl Abbasa (əleyhissalam) bir qoyun nəzir etdim. Lakin faydası olmadı. Oğlumu əsgərliyə apardılar. (Onun sözü belə olur) Nəyə görə həzrət Əbul Fəzl Abbas(əleyhissalam) mənim nəzrimi qəbul etməyib və mənim oğlumu əsgərliyə aparıblar.

Məktub yazıldı. Dedim:

İndi bu məktubu həzrət Əli (əleyhissalam)-a necə göndərəcəksən?

Dedi:

Çayın suyuna atsam həzrətin əlinə yetişər. Həmin işi görür. Bir aydan sonra oğlu əsgərlikdən azad olub evə qayıtdı!

## DOXSAN ALTINCI KƏRAMƏT

### *«BİR BAŞA SU PAYLANAN EVƏ GETDİM!»*

***Cənab siqətul-islam hacı seyyid Məhəmməd Baqir Gülüstani şəhid oğlu barəsində ,həzrət Əbul Fəzl Abbasın(əleyhissalam) kəraməti haqqında yazır*:**

1.1957-ci ildə Nəcəfül-Əşrəfdə Allah mənə bir oğul payı əta etdi. Adını Məhəmməd Hüseyn qoydum. O vaxt Həzrət Əbul Fəzl Abbasın(əleyhissalam) pak hərəminin yanında su paylanan bir ev var idi. Həmçinin, hərəmin ətrafında çoxlu adamlar vardı. Hər tərəf ziyarətə gələnlərlə dolu idi. Müxtəlif hey`ətlər dəstə-dəstə hərəmə daxil olub əzadarlıq edirdilər. Mən oğlumun anadan olduğu üçüncü günü su paylanan evdə məşğul idim. Böyük qardaşım mərhum höccətul-islam hacı seyyid Cə`fər Gülüstani su paylanan evə gəlib dedi: Nə oturmusan oğlun əldən gedir?!

Dedim: Nəyə görə?

Cavab verdi:

Bu uşaq üç gecə-gündüzdür ki, sidiyə getməyib ağlayır.

Qardaşımla birlikdə evə yola düşdüm. Uşağı götürüb Kürəvi adlı tanınmış həkimin yanına apardım. Həkim dedi:

Bu uşağın sidik yolu anadan gəlmə yoxdur. Mən cərrahiyyə əməlini yerinə yetirə bilmərəm. Uşağı tez bu gecə Bağdada çatdırmasan tələf ola bilər.

Ordan çıxıb Nəcəfdəki həkim Şövkətin yanına girdim. O da həmin sözləri təkrar etdi. Ondan sonra üçüncü həkim tanışım cərrah, Xəlil Cəlilinin yanına tələsdim. O da öz növbəsində uşağın, yalnız Bağdadda cərrahiyyə əməliyyatı olunmasını tə`kid etdi.

Məhərrəmin yeddinci gecəsi idi. Həzrət Əbul Fəzl Abbas(əleyhissalam) adına su paylanan evin qapısı həzrət Əli (əleyhissalam)-ın hərəminə tərəf açılırdı. Daha başqa yerə getmədim. Həkim Xəlil Cəlilin yanından bir başa Əbul Fəzl

Abbas (əleyhissalam) adına su paylanan evə gəldim. Oranın suyundan bir neçə damcı uşağın ağzına sürtdüm. Həzrət Əbul Fəzl Abbas (əleyhissalam) adına yaşıl rəngli bir parça nəzir gətirmişdilər. Onu götürüb uşağın qundağına doladım. Həzrətə xitabən dedim:

Ya Əbul Fəzl Abbas! Bilirsiniz ki, sidq ürəklə xidmət edirəm. Bu uşağın şəfasını sizdən istəyirəm!

Sonra evə gedib gözlədik. Sübh azanında anam məni yuxudan oyatdı. Dedim nə olub? Uşaq öldümü? Cavab verdi ki:

Uşaq oynayır!.

Gedib gördüm ki, sidik yolu artıq açılmışdır. Allaha şükür, həzrət ƏbulFəzlin (əleyhissalam) adına olan sudan bir damcı içdikdən sonra uşağın gündən-günə halı yaxşılaşdı. Heç bir narahatçılığı olmadı. Nəhayət, 1982-ci ildə bir il, onbir ay cəbhə bölgəsində vuruşduqdan sonra şəhadət şərabını içdi.

## DOXSAN BEŞİNCİ KƏRAMƏT

### *«ŞİŞDƏN BİR ƏSƏR DƏ QALMADI.»*

***Aşağıdakı kəramət şəhid Seyyid Nasir Gülüstanidə göründü:***

2. 1961-ci ildə Allah mənə başqa bir oğul da verdi. Adını seyyid Nasir qoydum. Uşaq üç aylığına çatanda sinəsinin iki tərəfində qoz boyda iki şiş əmələ gəldi. Həkimlərə müraciət etdik. Həkim müayinədən sonra dedi:

Bu şişdir. Cərrahiyyə olunmaqdan başqa çarəsi yoxdur. Amma, uşağın yaşı çox az olduğuna görə və cərrahiyyə əməliyyatına taqəti olmadığına görə bir neçə il gözləyin sonra əməl olunsun.

Uşağı götürüb aşura günü su paylanan evə apardım. O yerin torpağından götürüb həzrət Əbul Fəzl Abbasdan(əleyhissalam)

şəfa almaq niyyəti ilə sinəsinə sürtdük. Bir neçə gündən sona gördük ki, uşağın sinəsində bu iki şişdən əsər-əlamət qalmayıb. Bu uşağım da 1986-cı ildə şəhidlik məqamına yetişib.

## DOXSAN ALTINCI KƏRAMƏT

### *«QIZIM ŞƏFA TAPDI!»*

***Qızım Məryəm Gülüstani barəsində həzrət Əbul Fəzl Abbasın(əleyhissalam) kəramətini müşahidə etmişəm. Hadisə belə olub:***

3. İki yaşında olarkən ayaq ağrılarından şikayətlənib nalə çəkirdi. Nəhayət, onu həkimin yanına apardım. Qızım o qədər ağrı hiss edirdi ki, heç kəs cür`ət edib ayağına əl vura bilmirdi. Həkim onun ayaqlarını müayinə etdikdən sonra dedi:

Ayaqlarının şəkli çəkilməlidir. Şəkli çəkəndə gördük ki, uşağın ayağının sümükləri ayağın ucundan tutmuş topuğuna qədər iynə ucu kimi kök atıb və bu xırda sümüklər ətə batıb uşağa əziyyət verir.

Həkim buyurdu:

Ayağın ətini kəsib sümüyü çölə çıxartmalı (üstünü açmalı) və sümük köklərini qaşıyıb təmizləməliyik. Lakin uşağın yaşının azlığına görə bu əməliyyatı etmək olmaz.

Uşağı şiddətli ağrı içində qaldırıb həzrət Əbul Fəzl Abbas(əleyhissalam) adına «su paylanan» evə apardıq. Qapının ağzında bir nəfər oturub möhür-təsbeh satırdı. Ondan xahiş etdim ki, sandığını kənara çəksin. Onun altından bir az torpaq götürüb uşağın ayağına sürtüb evə gəldik. Bu halda da başa düşdüm ki, uşaq daha ayaqlarından şikayət etmir və Allahın rəhmətinə görə həzrət Əbul Fəzl Abbas(əleyhissalam) bərəkəti ilə qızım şəfa tapıb. Onunla da qızımda bu dərddən əsər-əlamət qalmadı.

## DOXSAN YEDDİNCİ KƏRAMƏT

### *«BUNLARDAN KİM SAQQALINI QIRXIB?!»*

***Qum elm ocağının tələbəsi cənab Mənzur Hüseyn İlqari pakistanlı yazır:***

Pakistanın «Sənd» şəhərinin zindan rəisi Qumda həzrət Mə`sumənin(salamullahi əleyha) hərəmində oturmuşdu. O, Pakistanda ədalətli, imanlı və tanınmış şəxslərdən idi. Bir çox mö`minləri dövlət zindanlarından azad etmişdi. O, öz şəhərində Ayətullah Şeyx Qulam Məhdi Nəcəfi və Ayətullah Seyyid Səmər Həsən Zeydidən dərslər almışdı. Mənə belə bir hadisəni nəql etdi:

1971-ci ildə həzrət Əbul Fəzl Abbasın(əleyhissalam) hərəmində oturub ziyarət və dua oxumaqla məşqul idim. O vaxt mən saqqalımı qırxdırmışdım. Birdən çöhrəsi nurani, uca boylu və əzəmətli bir şəxs mənim müqabilimdə dayandı. Mən onunla danışmağa cür`ət etmədim. Nəhayət, mənə dedi:

«Ey Mənzur Hüseyn! İman kəlməsini dilinə gətir.»

Mən iman kəlməsini dilimdə cari etdim.

Sonra məndən soruşdu:

«Kim sənə deyib ki, iman gətirməkdən ötrü bu kəlmələri deməlisən?» Cavab verdim: Həzrət Məhəmməd (səlləllahu əleyhi və alehi və səlləm). Soruşdu:

«De görüm Əmirəl-mö`minin Əli (əleyhissalam)-ın və imam Hüseyn (əleyhissalam) və bu hərəmin sahibi həzrət Əbul-Fəzl Abbasa(əleyhissalam)-ın vilayətinə iman gətirmisənmi?»

Dedim: Əlhəmdulillah! Bəli!

Dedi: «Bunlardan hansı biri saqqalını qırxıb?»

Mən cavab vermədim. Çox peşiman oldum. O, nurani şəxs zirehə tərəf getdi və gözdən itdi.

## DOXSAN SƏKKİZİNCİ KƏRAMƏT

### *«EY XIRDA MƏŞQİN SAHİBİ! MÜŞKÜLÜMÜ HƏLL ET!»*

***Cənab şair və məddah Məhəmməd Əllamə bir neçə kəramət yazıb:***

1.Kərbəlaya ziyarətə getmişdim. Həzrət imam Hüseyn (əleyhissalam)-ın hərəminin qapısının ağzında durmuşdum. Birdən ucadan ərəblərdən birinin səsini eşitdim. Divanə bir qızın arabada olduğunu gördüm. Qohumları onun ətrafını tutmuşdular. O, fəryad çəkib bütün ətrafındakıları pərişan edirdi. Bu hadisədən bir neçə gün keçmişdi, gördüm ki, onu həzrət imam Hüseyn (əleyhissalam)-ın hərəmindən həzrət Əbul Fəzl Abbasın(əleyhissalam) hərəminə aparırlar. Bir gün gördüm ki, həzrət Əbul Fəzl Abbas(əleyhissalam) hərəmində cəmiyyət toplaşıb.

Soruşdum: Nə xəbərdir?

Dostlar dedilər:

Qızın atası çox zəhmətlə qızın zirehin yanında otuzdurubmuş. Özü də həzrətə dua edirmiş. Qarışıqda gedib gördük ki, atası xüsusi ərəb adəti ilə Həzrətə dua edir. Hər dəfə Əbul Fəzl Abbasın(əleyhissalam) bə`zi ad və kunyələrini çağırırdı. Bə`zən deyirdi:

Ey Zeynəbin qardaşı! Və ya: Ey Hüseynin Ələmdarı! Ey xırda su məşqinin sahibi! Mənim müşkilimi həll et!

Birdən qız oturduğu yerdən qalxıb dedi: Ata can mənə ziyarəti Abbas oxu! Bununla da qız şəfa tapır.

## DOXSAN DOQQUZUNCU KƏRAMƏT

### *«ALLAHDAN SƏNƏ ŞƏFA İSTƏDİM!»*

2. ***Dostlardan biri nəql edir:***

Məhərrəmin doqquzuncu günü rövzə oxumaqdan ötrü Tehranın «Bu Əli» adlı xəsətəxanasına getdim. Gördüm ki, cavanlar vəziyyətləri ağır halda yataqlarının üstünə qara bayraq vurmuş, əzadarlıq etməyə qüdrətləri yoxdur. Cavanlardan biri məni səsləyib buyurdu:

Qardaş! Mən də cavanam. Arzu edirdim ki, bütün cavanlar kimi həzrət Əbul Fəzl Abbasdan(əleyhissalam) ötrü əzadarlıq edim!........

Doqquzuncu və aşura günü keçdi. 40-cı günü bazarda növhə oxuyurdum. Cavanlardan biri yaxşı sinə vururdu. Məni görüb yaxın gəldi və dedi:

Məni tanıyırsınızmı?

Dedim: Xeyr!

Cavab verdi: Yadınızdadırmı tasua günü mənim yatağımın başına gəlmişdin? Gecə siz getdikdən sonra həzrət Əbul Fəzl Abbas (əleyhissalam) sanki gözümə göründü və mənə buyurdu: Dur!

Dedim: Taqətim yoxdur!

Dedi: Allahdan səndən ötrü şəfa istəmişəm!

Allaha çox şükür ki, şəfa hasil oldu.

## YÜZÜNCÜ KƏRAMƏT

## *«XIRDA QƏBİR İDİ!»*

3. Mən Təbriz vaizlərindən biri mərhum şeyx Əli Əkbər ilə birlikdə günortadan sonra həzrət Əbul Fəzl Abbasın (əleyhissalam) hərəmində mənbərdə söhbətə getmişəm. Söhbətə çoxlu zəvvar gəlirdi. Günlərin birində xidmətçilərdən biri mənə dedi:

Hərəmin kiliddarı səni çağırır. Getdim. Soruşdu:

Bir şey istəyirsən?

Buyurdum: Xeyr! Əgər israr edirsənsə hörmət göstərib məni hərəmin zirzəmisinə aparın. Orada həzrətin pak qəbrini

yaxından ziyarət edim. Bir gün sonra iki nəfər dostların köməyi ilə zirzəmiyə getməyə icazə aldıq. Qüsl edib getməyə hazırlaşanda iranlı bir şəxs (Mazandaran əhli) gəlib Allaha and verdirdi ki, hara gedirsə onu da özümlə aparım.

Nəhayət, Əlqəmənin yanından keçib həzrətin zirzəmidə olan əsl qəbrinə gəldik. Xırda bir qəbir idi. Dedim:

Əbul Fəzl Abbas (əleyhissalam)-a o qədd-qamətlə bu xırda qəbir nədir? Sonradan yadıma düşdü ki, axı imam Zeynülabidin (əleyhissalam) o Həzrətin tikə-tikə olmuş bədənini cəm edib dəfn etmişdir!!!

## YÜZ BİRİNCİ KƏRAMƏT

### *«ÖLMÜŞ UŞAQ DİRİLDİ!»*

***Cənab höccətul-islam vəl-müslümin seyyid Hüseyn Hüseyni Tehrani yazır:***

Dostlardan biri nəql edir: Həzrət Əbul Fəzl Abbasın (əleyhissalam) hərəmində ziyarətlə məşğul idim. Köçəri ərəblərdən birinin iplə bağlı bir şeyi pak zirehin yanına qoymağını müşahidə etdim. Sonra özü çəkilib kənarda oturdu. Daha sonra bir kişi ilə qadın xüsusi libasla gəlib iplə bağlı qutunun başı üstə durdular. Mübarək zirehdən tutub şiddətlə təkan verib ərəbcə nə isə dedilər:

Bir neçə andan sonra qutu tərpənməyə başladı. İplər qırıldı və təəccüblə gördük ki, qutunun içindən 10-12 yaşlı bir uşaq çıxdı.

Bu hadisəni müşahidə edənlər təəccüblə əvvəlcə qutunu gətirən birinci kişidən hadisənin əsl sirrini soruşdular. O dedi:

Ərəbin köçəri qəbilə başçılarından olan bu kişi və qadının uşaqları olmurdu. Qəbilə başçılığı onların adətinə görə irsi olur. Bir müddət sonra Allah onlara bir oğlan uşağı əta edir. Lakin, bir müddətdən sonra uşaq xəstələnir. Nə qədər müalicə edirlərsə faydası olmur. Təkcə yolu bunda görürlər ki, uşağı

həzrətin hərəminə gətisinlər. İki günlük yol arasında uşaqdan göz olmağı (onların xadimi olduğuma görə) mənə tapşırmışdılar. Yol arasında uşağın vəziyyəti ağırlaşdı və dünyasını dəyişdi. Onu bu qutuya qoyub ağzını da bağladım. Lakin ata-anasının qəlbləri qırılmamaqdan ötrü hadisəni onlara xəbər vermədim. Əslində iki gün idi ki, onların uşaqları ölmüşdü. Siz öz gözünüzlə gördünüz ki, həzrət Əbul Fəzl Abbas (əleyhissalam) bərəkətindən Allah çıxmış ruhu necə təzədən bədənə qaytardı və uşaq tam sağlam oldu. Bu vaxt uşağın ata-anası qərara alırlar ki, onu Kərbəlada olan böyük alimlərdən birinin yanına aparsınlar.

Şeyx oğlandan soruşdu: Nə gördün?

Cavab verdi: Mən ölmüşdüm. Ata-anam həzrət Əbul Fəzl Abbasa(əleyhissalam) dua etdikdə, Ruh mələyi məni göydə yaxşı və gözəl bir otağın qapısının ağzına aparıb dayanmışdı. İki qolları bədənində olmayan bir ağa bizə yaxınlaşdı. Mələk o ağadan hacət istədi. Ağa otağın içinə daxil oldu. Otağın içində cəlal və əzəmətlə oturmuş bir nəfər iar idi ki, dizinin üstündə iki oğlan uşağı oturmuşdu.

Qəməri bəni Haşim(əleyhissalam) onlara dedi:

Bu işi də yola verin.

Cavabında buyurdular: İş qurtarmışdır!

Həzrət Əbul Fəzl Abbas (əleyhissalam) cavabında buyurdu:

Əgər belədirsə buyurun ki, «Babul həvaic» ləqəbini mənim üstümdən götürsünlər. Mən «Babul həvaic» olmasam əhali naümid qayıtsın! Gördüm oturan ağa əlini qaldırıb dua etdi. Həzrət razı və sevincək halda bizə tərəf gəldi. Mənim yanımda olan mələyə buyurdu: Onun ruhunu bədəninə qaytarın!

Bununla da mən həyata qayıtdım!

## YÜZ İKİNCİ KƏRAMƏT

### *«ÖVLADIMA HƏZRƏT ƏBUL FƏZL ABBAS(Ə) ŞƏFA VERDİ!»*

***Ayətullah hacı seyyid Hüseyn Musəvi Kermani yazır***:

Uşağım xəstlənmişdi. Hansı həkimə aparırdımsa kor bağırsağının kəsiləcəyini tə`yin edirdilər. Doğrusu həkimlərin analizinə arxayın olmadım. Uşağı Tehrana həkimə apardım. Həkim analiz verilməsini tə`kid etdi. Üç gündən sonra analizin cavabı veriləcəkdi.

Analizin cavabını səhəri gün alacağdım. Gecə gözümə yuxu getmədi. Fikirləşirdim ki, əgər uşaq cərrahiyyə olunsa nə edəcəm? Çox həyacanlı idim. Gecə yarıdan sonra yerimdən qalxıb dəstəmaz aldım. Namaz qılmağa başladım. Sübh namazına yaxın qəlbimdə dedim:

Nəyə görə Həzrət Əbul Fəzl Abbasa(əleyhissalam) nəzr etməyim? Ağlamağa başladım. Dedim:

İlahi! On dörd Mə`sum (əleyhimussalam)-a, həzrət Əbul Fəzl Abbasa (əleyhissalam) xatir bu uşağa şəfa ver!

. Bundan əlavə həzrət Əbul Fəzl Abbasa(əleyhissalam) bir qoyun qurban nəzir etdim. Səhəri analizin cavabı dalınca getdim. Cavabı alıb həkimə apardım. Həkim baxdıqdan sonra buyurdu: Analizdə kor bağırsaqdan əsər-əlamət görünmür. Uşağınız tamamilə sağlamdır. Az yediyinə görə zəifləmişdir. Öz-özümə dedim: Budur həzrət Əbul Fəzl Abbasın(əleyhissalam) Allah dərgahında hörməti. Allahummə səlli əla Mühəmmədin və ali Mühəmməd!

## YÜZ ÜÇÜNÜCÜ KƏRAMƏT

### *«Şİ`Ə BİR CAVAN QAÇIR!»*

***Höccətul-islam seyyid Şəhriyar Riza Abidi Pakistani nəql edir:***

Hindistanda cavan bir şi`ə ilə sünni arasında mübahisə düşür. Cavan şi`ə polisi görüb qaçır və bu polis onun ardınca düşür. Cavanın evini polis tanıdığına görə evə kimi onun ardınca gəlir. Oğlan mənzilə girib stolun altında gizlənir. Oğlanın anası və bacıları həzrət Əbul Fəzl Abbasa(əleyhissalam) dua oxumağa başlayırlar. Polis evə girəndə hər tərəfi axtarır. Hətta, oğlan olan stolun da altına baxır, amma oğlandan əsər-əlamət tapmayıb çıxıb gedir.

## YÜZ DÖRDÜNCÜ KƏRAMƏT

### *«HƏZRƏT ƏBUL FƏZLİN(Ə) KƏRAMƏTİNDƏN DÜKANA HEÇ BİR ZƏRƏR DƏYMİR.»*

***Tehrandan «Ənsarul Əbbas» hey`ətinin başçısı Hacı Hüseyn yazır:***

Hacı Həsən, bizim hey`ətin həzrət Əbul Fəzl Abbas (əleyhissalam) adına ələmini saxlayır. Bazarda bir dükanı var. Bir müddət əvvəl bazarda yanğın olur. Belə ki, bazarda onun ətrafında olan dükanların hamısı yanır. Amma onun dükanına heç bir şey olmur. Səhəri hamı bazarda bu mənzərəni təəccüblə müşahidə edir. Bundan başqa bütün dükanlar yanmışdı. Həzrətin kəramətindən dükan amanda qalmışdı.

## YÜZ BEŞİNCİ KƏRAMƏT

### *«SƏN NƏ İŞ GÖRÜRSƏN?»*

2. Bir il bundan əvvəl xanımlardan birinin mə`dəsində xərçəng şişi əmələ gəlmişdi. Günü-gündən arıqlayıb zəifləyirdi. Həkim müayinə və aparat yoxlanışından sonra qərara alındı ki, cərrahiyyə əməli olunsun. O, cərrahiyyədən bir gün əvvəl həzrət Əbul Fəzl Abbas (əleyhissalam) ələmini öpdükdən sonra izhar edir:

Ağa can! Siz, şi`ə olmayanlara belə şəfa verirsiniz. Mən ki, sizin dostlarınızdanam, məni naümid etməyin!

Səhəri sübh hiss edir ki, vəziyyəti yaxşıdır. Xəstəxanaya müraciət etdikdə həkim onun vəziyyətinin dəyişdiyini hiss edib təzədən müayinə etmək qərarına gəlir. Mə`dəsinin şəklini çəkir. Təəccüblə görür ki, dünənki şişdən əsər-əlamət yoxdur. Şiş bir dəfəlik aradan getmişdi. Soruşur:

Nə iş görmüsən?

Xəstə cavab verir: Həqiqi həkimə müraciət etdim və şəfa tapdım. O həkim qəməri, bəni Haşim Həzrət Əbul Fəzl Abbasdır (əleyhissalam).

## YÜZ ALTINCI KƏRAMƏT

### *«ONUN SAĞALMASINA HEÇ BİR ÜMİD YOX İDİ!»*

1995-ci ildə Hacı Salihi adlı bir şəxs bildirir ki, qəlbimin damarları tutulduğuna görə çətin və ağır bir cərrahiyyə əməlinə hazırlaşırdım. Həzrət Əbul Fəzl Abbasa(əleyhissalam) dua etdm. Həkimlər mənim sağalmayacağımın hökmünü vermişdilər. Onlar cərrahiyyə əməlinin də müvəffəq olmamasını bilirdilər. Lakin, yaxın qohumlarının israrına görə onu cərrahiyyə əməlinə aparırdılar. Bir gün sonra həkimlər

xəstəni tamamilə sağlam şəkildə görürlər. Hamısı bildirirlər ki, bu iş yalnız mö`cüzə vasitəsilə ola bilər.

Hacı Salihi indi fabriklərdən birində işləyir. Hər il həzrət Əbul Fəzl Abbasın(əleyhissalam) adına ehsan verir.

## YÜZ YEDDİNCİ KƏRAMƏT

### *«EHTİYAC ƏLİNİ ÜMMUL BƏNİNİN ÖVLADINA UZAT!»*

3. 1994-cü ildə Haciyə xanım əlində iki əsa vasitəsilə uzun müddət xərçəng xəstəliyindən əzab çəkib sürünürdü. Bizim əzadarlıq hey`ətinə müraciət etdi. Həzrət Ümmül Bənin övladına (əleyhissalam) ehtiyac əlini uzatdı. O, bizim hey`ətin başçısına xahiş etdi ki, məddahlara və rövzəxanlara xahiş edin ki, Allaha xatir həzrət Əbul Fəzl Abbasdan(əleyhissalam) şəfa istəsinlər. Onun xahişi qəbul olundu.

Sonrkı həftə həmin qadın əlində heç bir əsa olmadan cümə günü bizim hey`ətə müraciət etdi. Əlində şirni qutusu var idi. Hədsiz sevinclə dedi ki, Həzrətdən şəfa aldım! Bu iş bizim hamımızın sevincinə səbəb oldu.

## YÜZ SƏKKİZİNCİ KƏRAMƏT

### *«HƏZRƏTDƏN NAÜMİD OLMAMAQDAN ÖTRÜ SEL KİMİ GÖZ YAŞI LAZIMDIR.»*

4. 1998-ci ildə Məşhəddən müəllimlərdən biri zəng etdi ki, əsgərliydə olan oğlu Tehranda xəstəxanadadır. O, hər iki böyrəklərini əldən verib bihuş halında qalmışdır. Nə qədər ki, dünyasını dəyişməyib gəlin görün!

Ata həmin gün hərəkət etdi. Sübh tezdən Tehrana çatdı. Dostlardan birinin mənzilinə dəyib dərhal xəstəxanaya yola

düşdü. Oğlunu bihuş halda müşahidə etdi. Ağlar və narahat halda dostunun mənzilinə qayıtdı. Dostu ona bildirir ki, sabah sübh «Ənsarul Abbas» adına hey`ət dua məclisi keçirəcək. Bu vaxta kimi çoxları həzrət Əbul Fəzl Abbasdan(əleyhissalam) şəfa almışdır. Sən də bu dua məclisində iştirak et. Ata sübh tezdən mərasim keçirilən yerə gedir. Həzrət Əbul Fəzl Abbasın(əleyhissalam) ələmini gördükdə göz yaşlarını saxlaya bilmir. Ağadan xahiş edib yalvarır ki, onu naümüd etməyib oğluna şəfa versin.

Həmin gün axşamüstü xəstəxanaya gəlir. Tam təəccüblə oğlunu öz yataq taxtı üzərində sağlam şəkildə oturduğunu görür. Onu qucağına alıb halını soruşanda əsgər oğlu cavab verir:

Bu gün heç bir şeyi hiss etmədiyim halda birdən yaşıl bir parlaq nur gördüm. Göydən iki göy rəngdə nur aşağı enirdi. Hər an mənə yaxınlaşırdı. Elə ki, nur tamamilə mənə yaxınlaşdı. Hər ikisi xurmaya bənzər kimi mənim bədənimdən böürəklərimə daxil oldular. Dərhal huşa gəldim və əhvalımın yaxşı olduğunu müşahidə etdim. İndi heç bir narahatçılığım yoxdur.

Bir həftə sonra ata-oğul bizim əzadarlıq hey`ətinə gəlib hadisəni mikrafonla əhaliyə e`lan etdilər.

## YÜZ DOQQUZUNCU KƏRAMƏT

### *«BU AĞA ƏBUL FƏZL ABBASDIR!. SƏNƏ ŞƏFA VERMƏYƏ GƏLİB.»*

***Xanım Fatimə Rüstəmpurun 1998-ci ildə həzrət Əbul Fəzl Abbas (əleyhissalam)vasitəsilə şəfa tapmağım aşağıdakı kimidir:***

Xəstənin adı: Xanım Fatimə Rüstəmpur.

Yaşadığı yer: Kerman şəhəri, Mütəhhəri parkı, Seyyid şühəda küçəsi-12. Hazırlıq institunun cənub tərəfi: 14. Cənab Nəzərinin mənzili.

Xəstəlik müddəti: 5 ay.

Həkimə müraciəti: 1998-ci il.

Xəstəliyi: Xərçəng.

Müalicə həkimi: Doktor Mənsuri «Xərçəng xəstəliyi üzrə mütəxəssis.

Hadisəni xanımın övladı xanım Təyyibə Nəzəri nəql edir:

48 yaşlı anam əvvəllər sağlam idi. Təxminən beş ay bundan əvvəl mənə elə gəldi ki, anamda xəstəlik vardır. Əllərində və qoltuğunun altında olan ağrılarından şikayətlənirdi. Bu işin böyüməsini gördükdə həkimə müraciət etdik. Həkim bizi analiz otaqlarına yolladı. Analizin cavabından sonra qərara alındı ki, cərrahiyyə əməli ilə bu şişi götürmək lazımdır. Cərrahiyyə zamanı mə`lum oldu ki, bu götürüləsi şiş deyildir. Artıq şiş boyun hissəsinə də təcavüz etmişdi. Boyun və sinə tərəfdən şişin əsərləri görünürdü. Heç bir əməliyyat etmədən kəsilən yeri tikib anamı evə göndərdilər.

Allahdan başqa hər yerdən ümüdümüz üzülmüşdü. Qəlblər yalnız Allahı nəzərə alırdı. Anamın əllərinin ağrısı şiddətlənəndə kimyəvi keyitmə dərmanından ötrü həkim Mənsuriyə müraciət etdim. O, dedi:

Allahın köməyi ilə dərman verməyə başlayaq. Ancaq sağalmağa heç bir ümüd yoxdur. Sağ qalmayacaq.

Hamımız narahat idik. Hərə bir söz deyirdi. Həkim evdə müalicə üçün bir həftəlik nüsxə yazdı. Tapşırdı ki, sonradan xəstəxanaya müraciət edərsiniz!

Bu arada anamın qonşularından biri yuxuda görür ki, həzrət Əbul Fəzl Abbas(əleyhissalam) adından su paylayan bir nəfər bir dəstə qoyun otarmaqla məşğuldur. Xanım Rüstəmpur (anam) sağlam halda qoyunların böyüyündən birini tutub su paylanan evin qabağında qurban kəsir. Sonra ziyarət oxumaqla məşğul olur. Bu yuxudan sonra biz bacı-qardaş qərara aldıq ki, bir qurbanlıq aparıb ziyarətgahda kəsib ehsan verək. Üçüncü

gün Kermandan, imam Rza (əleyhissalam)-ın nəvələrindən birinin ziyarətgaha hərəktə gəldik. Axşama iki saat qalmış İmamzadə ziyarətgahına çatdıq. Orada əvvəlcə on dörd Mə`suma(əleyhimussalam) dua oxuduq. Sonra aşura ziyarəti oxuduq daha sonra bir qoyun qurbanlıq kəsib Kermana qayıtdıq.

Anam yorulub saat səkkizdə yuxuya getdi. Yuxuda görür ki, şəhid oğlu ilə bir nəfər üzü niqablı böyük şəxsiyyət otağa daxil olurlar. Oğlu deyir: Ana! Bu ağa «Həzrət Əbul Fəzl Abbasdır(əleyhissalam). Sənə şəfa verməyə gəlib. Bu vaxt hiss etdim ki, ağa əlini şişin üzərinə vurdu. Buyurdu: Sənin xəstəliyin yoxdur! Sağalmısan! Qalx!

Uşaqlar nəql edirlər: Axır vaxtlarda yerdən başqalarının köməyi ilə güclə qalxan anam, ağlar halda sür`ətlə yuxudan oyanıb oturdu və dedi:

Ağa Əbul Fəzl Abbas (əleyhissalam) burda idi. Mənə şəfa verdi. Baxıb gördük ki, şişdən heç bir əsər-əlamət yoxdur. Həkimlərə də müraciət etdik. Keçmiş xəstəlikdən əlamət yox idi.

## YÜZ ONUNCU KƏRAMƏT

## *«QULAĞIMA OXŞAMA SƏSİ GƏLDİ!»*

***Höccətul-islam vəl-müslimin Hacı-şeyx Barat Əli Xudayi Ərdəbili yazır:***

1. Mərhum Kərbəlayi Əhəd nəql edir: Mən 8–9 yaşımda Kərbəlanın «Salikin» adlı yolu tərəfdə qoyun otarırdım. Karvan başçılarının avazlı səsləri mənim ruhumu Kərbəla tərəfə çəkirdi. Kərbəla ziyarətini həddən artıq istəyirdim.

Bir gün gördüm ki, karivan dəstləri dalbadal hərəkətdədirlər. Adətə görə, hər karivanın bir başçısı və hər birinin əlində isə həzrət Əbul Fəzl Abbas(əleyhissalam) adına ələmləri olardı. Qışlağın təzə gəlmiş əhalisi ələmin dalınca

müşayət edib göz yaşlarını saxlaya bilmirdilər. Bir az gedib sonra qayıdırdılar. Mən də inəkləri və qoyunları kəndə tərəf ötürüb ələmin ardınca getdim. Amma ,başqaları kimi bir azdan qayıtdım. Bu o vaxtımda idi ki, anamın qucağından bir anda olsun belə ayrı düşməyimə razı deyildim.

Bəli! Bundan sonra qərara aldım ki, piyada Kərbəlaya gedən karivanlarla yola düşüm və onlara xidmət göstərim. Bununla da Nəcəf-Əşrəfə və başqa imamların(əleyhimussalam)-ın da ziyarətinə gedə bildim.

Yol boyu mən həmişə piyada olardım. Günün yandırıcı istisi bizə dəydiyinə görə qədəmlərimizi tez-tez atırdıq. Karivandan dala qalmaq təhlükəsini həmişə nəzərə alırdım. Əgər karivandan geri qalsan qaçaqçılıqla məşğul olan təhlükəli ərəblərin əlində əsir olmaq qorxusu vardı. Tez və sür`ətlə hərəkətin, o cümlədən yeməyimin münasib olmaması səbəb oldu ki, yol arasında zəhərləndim. Yoldaşlarım məni qusmaq və qarın ağrısı olan vəziyyətimdə bir mənzilə əziyyətlə çatdırdılar. Halım həddən artıq xarab olduğuna görə məni karvansaraların birində qoyub qəlbi yanıq halda vətənə tərəf hərəkət etdilər. İndi bihuş halda karvansaranın bir tərəfində qalmışdım. Nə yeməyim var, nə də suyum. Əslində hər an Əzrailin gəlməsini gözləyirdim. Huşsuzluğum günortadan səhər sübhə kimi çəkdi. Sübh özümə gəldim. Uşaq çağlarım idi. Qəriblik hiss edib göz yaşı axıtmağa başladım. Gileyli halda Nəcəfi-Əşrəf şahı həzrət Əli (əleyhissalam)-a və Kərbəla Sərdarına(əleyhissalam) belə xitab etdim:

Ya Əmirəl-mö`minin! Ya Qəməri bəni Haşim! Sizin eşqiniz məni vadar etdi ki, ata-anamdan, qardaşımdan və bütün qohumlarımdan ayrılıb sizə tərəf gələm. İndi bu çöllükdə və bu karvansaranın bir guşəsində ölüm halındayam. Hamıdan əvvəl anamın gözləri mənim intizarımdadır. Əgər mən belə halda ölsəm və adsız, əlamətsiz dünyadan getsəm, onun qəlbinin yarası heç vaxt getməyəcək. Qonaq qəbul etməklik ədəbindən uzaqdır ki, onlar gəlib məni biyabanda belə halətdə görsünlər!

Sonra qüdrətsizlik və zəifliyin şiddətindən giley dilimi bağlayıb bihuş halda uzandım. Həmin halda xoş bir avaz qulağıma gəldi. Deyirdi:

«Kərbəlayi Əhəd!»

Gözümü açıb başımın üstündə böyük bir atlını gördüm. Mənə buyurdu: Nəyə görə burda qalmısan? Zəif halətimlə dedim: «Ağa! Ölürəm!»

Elə sandım ki, tanış zəvvarlardan biridir. Mənim ölüm xəbərimi anama sən çatdırarsan. Atlı əyilib yəhər üstə olan halda mənim əlimdən tutub möhkəm sıxdı. Bununla sanki mənə təzədən ruh verildi. Sonra buyurdu:

Karvan heç də burdan uzaqda deyil, qalx onlara çataq!

Hərəkətinin keyfiyyətini başa düşmədim. Lakin çox çəkmədi ki, yorğunluq məndən yox oldu. Təzədən mənə güc-qüvvə gəldi. Özümü bulaq kənarında oturmuş dostlarımın yanında gördüm. Dostlarım məni görən kimi şövq və sevincdən ağlamağa başladılar. Necə gəlməyimi soruşdular. Mən də bütün əhvalatı onlara nəql etdim.

Mənə elə gəlirdi ki, karivandan ayrıldığım bir gündən çox deyildi. Amma onlar iki gündən çox ayrıldığımı deyirdilər. Əlamətlər də onların dediyini təsdiq edirdi. Çünki, mən İraq torpağında torpağa düşmüşdüm. Onlara isə İranın Həmədan şəhərində birləşmişdim. Ondan sonra yaxşılaşmaqdan ötrü yavaş-yavaş hərəkət edirdim. Məni növbə ilə ata mindirdilər. İcazə vermədilər ki, bir addım da piyada yol gedim. Nəhayət, sağ-salamat və sağlam ata-anama təhvil verdilər. Təəccüblü əhvalatı da qohumlarıma nəql etdilər.

Ondan sonra qarşıya çıxan bütün çətinliklərimdə həzrət Əbul Fəzl Abbası(əleyhissalam) köməyə çağırırdım və o da kömək olurdu.

## YÜZ ON BİRİNCİ KƏRAMƏT!

### *«ƏVƏZSİZ ƏLƏMDAR!»*

***Mərhum Kərbəlayi Əhəd başqa bir kəraməti nəql edir:***

Mənim evlənmək, əqd mərasimim qış fəslində olub. O vaxt ən adi şəraitdən belə məhrum idik. Bir kəndçi otağından başqa evim yox idi. Hər tərəfdən kasadlıq idi. Bir müddət sonra qüsl etməkdən ötrü kəndin yaxınlığında 500 metr eni olan və sonu dənizə tökülən çaya getdim. O vaxt çayın üzünü bir metrə qədər buz örtüyü tutmuşdu. Kənd əhalisi su götürməkdən ötrü çayın bir guşəsində dəlik açmışdılar. Buzun qalınlığından əlavə çayın iki metrə qədər də öz dərinliyi var idi. Çay sür`ətlə axırdı. Mən çayın kənarında soyunub qüsl edirdim. Bir müddət gecələr belə qüsl etdim.

Gecələrin birində qüsl etməkdən ötrü buzun dəliyindən çaya girdim. Bir az sonra hiss etdim ki, suyun tə`siri güclüdür. Məni aparmaq üzrədir. Çox çalışdım ki, sudan kənara çıxam, amma faydası olmadı. Nəhayət, su məni ağuşuna alıb apardı. Harda başımı sudan çıxarırdımsa başım buza dəyirdi. Suyun soyuğu sümüyümə yeridi. Özüm də boğulmaq üzrə idim. Fikirləşdim ki, su məni 200 metr kənddən uzaqlaşdırıb. Başım buza dəyməkdən yara olmuşdu. Qısası hər tərəfdən yolumun bağlandığını görüb ölümümün gəldiyini yə`qin etdim. Təzəcə evlənməyim və gəlinin başsız qalmağı, cənazəmin Xəzər dənizində balıqlara yem olması məni çox narahat etdi. O batqın halımda ürəkdən həzrət Əbul Fəzl Abbası(əleyhissalam) köməyə çağırdım. Onun ətəyindən tutmaqla əvəzsiz Ələmdar mənə nicat verdi. Belə ki, birdən başım qanlı halda buzun dəliyindən çölə çıxdım. Mö`cüzə idi. Əl-ayağım donan halda libasımı geyinib təzə həyat tapdım. Çaydan çıxandan bir iki ay sonra tamamilə sağaldım. O cəhətdən həmişə həzrət Əbul Fəzl Abbasa(əleyhissalam) salam və salavat göndərirəm.

## YÜZ ON İKİNCİ KƏRAMƏT

### *«GÖRDÜM İKİ ƏLİ KƏSİKDİ.»*

***Höccətul-islam Hacı seyyid Abbas Mircə`fər yazır:***

1983-cü ildə Məkkədən qayıtdıqdan sonra böyrəklərimdə ağrı hiss etdim. Bir neçə gün Tehranın Şəhriyar adlı xəstəxanasında yatdım. Amma bir nəticə hasil olmadı. Ordan Tehranın «Cihad» xiyabanındakı «Səccad (əleyhissalam)» adına xəstəxanaya köçürdülər. Mütəxəssis həkim nəzarətində böyrəklərimdə cərrahiyyə əməli olundu. Əməliyyatdan 19 gün sonra xəstəxanada yatmalı oldum. Sonra xəstəxanadan çıxıb müqəddəs Qum şəhərinə Həzrət Mə`sumə (s.ə) ziyarətinə gəldim.

Quma gəldikdən sonra sağ böyrəyimdən ağrı tutdu. Yenə Tehrandakı «Səccad (əleyhissalam)» xəstəxanasına müraciət etdim. Həkim müayinə etdikdən sonra dedi: Kor bağırsaqdır. Partlamaq üzrədir. Tezliklə əməl otağına apardılar və cərrahiyyə əməli etdilər. 18 gün də bu vaxt qaldım. Elə bu hadisədən sonra təzə bir xəstəlik tapdım. Həkimlər müayinədən sonra qəti qərara gəldilər ki, hər iki xayalıq götürülməlidir. Yanımda qardaşım və zövcəm həkimə e`tiraz etdilər ki, bu kişi 40 gündür ki, cərrahiyyə halında yatır. Daha dözə bilməz. Həkim cavab verdi ki, mən Amerikada beş belə cərrahiyyə əməli etmişəm, onlardan ikisi sağalıb. O, cavan olduğuna görə söz verirəm ki. 80% həyatını davam etdirəcək. Həmin gecə tibb bacıları və həkimlər məni cərrahiyyə əməlinə hazırlaşdırırdılar. Xəstəxananın taxtında yatıb vəziyyətimin necə olacağını düşünürdüm. Bu arada mən on iki imama, uşaqlar və həyat yoldaşım isə Həzrət Əbul Fəzl Abbasa(əleyhissalam) dua etdik. Təvəssül duasına başlamışdım. İmam Rza (əleyhissalam)-a çatanda heç bir şey

başa düşməyib yuxuya getdim. Gecə saat on birin yarısı idi. Yuxuda gördüm ki, başımın üstündə bir əl qərar tutub. Dedim: Ağa belə niyə edirsiniz? O, cavabında dedi:

Nə olub bu qədər səs-küy salmısınız?

Dedim: Ağa! 38 gündür ki, xəstəxanada yatıram. İndi ikinci dəfə cərrahiyyə əməli etmək istəyirlər! Həmin halda yuxuda gözlərimi açdım. O, buyurdu: «Bir şey olmaz!»

Mən soruşdum: Siz kimsiniz? Cavab verdi ki: «Məni tanımırsınız?»

Həzrətə baxanda gördüm ki, iki əli də kəsikdir. Ona tərəf əl uzadıb qucaqlamaq istədim:

«Ağa qurbanın olum!» Tanıdım ki, Həzrət Əbul Fəzl Abbasdır(əleyhissalam).

Mən çox insanlar görmüşəm, amma bu gözəllikdə görməmişdim. Qara saqqalı, cazibəli və nurani sifəti vardı. Başında da yaşıl əmmaməsi.

Yuxudan ayıldım və əlimi yavaşcadan ağrıyan yerə qoydum. Ağrı-acıdan əsər-əlamət yox idi. Ağlamağa başladım. Zövcəm ayılıb soruşdu:

Nə olub? Sən iki cərrahiyyə əməliyyatından çıxmısan. Narahat olma, yenə də yaxşı olar.

Dedim: Yox ay xanım! Həqiqi həkim gəlib şəfamı verib!

Sübh tibb bacıları gəlib cərrahiyyə işini hazırlamağa başladılar. Mən onlara dedim:

Siz zəhmət çəkməyin! Həqiqi həkim gəlib mənə şəfa verdi!

Saat sübh 9-da həkim gəldi. Ərz etdim: Həkim qardaş! Əsl həkim şəfamı verib. Həkim məni bir daha müayinə edib dedi: Siz azadsınız! Çıxıb gedə bilərsiniz.

## YÜZ ON ÜÇÜNCÜ KƏRAMƏT

### *«ƏRƏB QADIN UŞAĞI GÖTÜRÜB GETDİ.»*

***Höccətul-islam vəl-müslümin Hacı-şeyx Cə`fər Nasiri İsfahani yazır:***

Cavan vaxtlarımda möhkəm xəstələnmişdim. Fani dünya gözümdə heçə dönmüşdü. Çox istəyirdim ki, bu dünyanı tərk edib axirətə gedim. Hətta, bə`zən öz ölümümdən ötrü dua edirdim. Bir gün dostlarım Nəcəf səfərindən əvvəl mənimlə vidalaşmağa gəldilər. Söhbət arasında mənə dedilər ki, səni də özümüzlə Kərbəlaya apara bilərik.

Dedim: Siz bilirsiniz ki, mənim yeriməyə qüdrətim yoxdur.

Dedilər: Bizim maşınımız var. Hara istəsən səni apara bilərik. Çox israr etdikdən sonra razılaşdım. Çətinliklə Kərbəlaya gəlib çıxdıq. Dostlarım məni qolları üstə alıb İmamın(əleyhissalam) hərəminə gətirdilər.

Əvvəlcə həzrət Əbul Fəzl Abbasın(əleyhissalam) pak hərəminə getdim. Hərəm xəlvət idi. Məni bir guşədə yerə qoyub özləri başqa iş dalınca getdilər. Çox keçmədi ki, gözlərimə nur gəldi. Sanki zaman və məkanda mənə öz tə`sirini göstərirdi. Özümdən getmişdim. Birdən özümü Həzrə Əbul Fəzl Abbasın(əleyhissalam) müqabilində gördüm. Həzrət Zeynəb(salamullahi əleyha) də orda idi. hər ikisi mənim xəstəliyimdən danışırdılar.

Həzrətin bacısı buyurdu:

Məhəmməd Həsən dünya həyatından cana doyub dəfələrlə ölüm arzulayıb, yaxşı olar ki, onu özümüzlə aparaq.

Əbul Fəzl Abbas(əleyhissalam) buyurdu:

Xeyr! Hələ məsləhət deyil. Onun qalması faydalıdır.

Burda birdən yuxudan ayıldım. Hərəmdə özümü tək gördüm. Bu barədə fikirləşirdim ki, əli uşaqlı bir ərəb qadın tələsik hərəmə daxil oldu. Uşağı zirehə söykəyib sağ əlinin baş barmağı ilə zirehdən tutub dua etməyə başladı. Bu duanı bir

neçə dəfə təkrar etdi. Birdən gördüm ki, uşaq qalxıb oturdu. Qadın uşağı götürüb çölə çıxdı.

Özümdə bir hərəkət hiss etmirdim. Sürünə-sürünə özümü zirehə çatdırdım. Baş barmağımla zirehdən tutub dua etməyə başladım. Bu işi bir neçə dəfə təkrarladım. Elə bu an hiss etdim ki, ayaq tərəfimdən bədənimə qüvvə daxil olur. Sonra bədənimin istiləşib gücləndiyini duydum. O gündən sonra bir də xəstələnmədim və özümdə xüsusi güc hiss etdim.

## YÜZ ON DÖRDÜNCÜ KƏRAMƏT

### *«SƏN AXŞMAÜSTÜ ŞƏFA ALACAQSAN!»*

***Cənab Abbas Müttəqi atasının şəfa tapmasını belə şərh edir: (Qum şəhəri)***

Rzaşahın dövründə 18 yaşım var idi. Çətin bir xəstəliyə düçar oldum. O vaxtlar çox görünmüşdü ki, 8–10 yaşlarında bu xəstəliyə tutulanlar tərləmirdilər və ölümləri qəti idi. Xəstəliyə tutulduğumdan 12 gün sonra bədənimin tükləri bütünlüklə töküldü. Ölümümə söz yox idi. Bir gün evdə oturmaqdan cana doyub hava almaqdan ötrü mənzildən çölə çıxdım. Divara söykənib dayanmışdım. Bu halda yanımda durub söhbət edən iki nəfəri gördüm. Onlardan biri mənə işarə edib dedi:

Bu kişi Cə`fərin oğlu Əlidir. Ölümünə söz yoxdur.

Bəli, xəstəlik 21 gün çəkmişdi. Mən ölümə yaxınlaşırdım. Anamın dayısı mənim xəstəliyimi eşidib bizə gəlmişdi. Yanımda oturub qulağıma ahəstə dedi: Ancaq de ki: «Ya Əbul Fəzl Abbas!»

Mən də yavaş-yavaş bu sözləri zəmzəmə etməyə başladım. Sonra dayım mənə qoyun nəzir etdi. Dərhal durub gedib bir qoyun aldı. Qoyunu kəsib qonşulara payladılar. Axırda mənə yaxınlaşıb dedi: Sən bu gün axşam üstü həzrət Əbul Fəzl Abbasdan(əleyhissalam) şəfa alacaqsan!

Maraqlı bu idi ki, qoyunu kəsən anda bədənim yavaş-yavaş tərləməyə başlamışdı. Getdikcə vəziyyətim yaxşılaşdı. Nəhayət, qısa müddətdə tamamilə sağaldım. İndi 72 yaşım var və heç bir şeydən şikayətim yoxdur.

## YÜZ ON BEŞİNCİ KƏRAMƏT

### *«BAŞINI QALDIRIB BƏDƏNƏ YAPIŞDIRDI!»*

***Höccətul-islam vəl-müslimin Hacı-şeyx Həmid Mühaciri nəql edir:***

Bəhreyndə əzadarlıq məclisi idi. Bir nəfər Həzrət Əbul Fəzl Abbasın(əleyhissalam) adından çıxış edirdi. Başqa birisi də həzrətin qatili rolunu aparırdı. Tamaşa arasında Qatil rolunu oynayan özü bilmədən qılıncını həzrətin rolunu oynayanın boynuna vurub başını bədənindən ayırır. Bu anda səhnədən bir qadın çıxıb başı bədənə yapışdırır. Ölmüş şəxs təzədən dirilir. Qadın sonradan yoxa çıxır......!

## YÜZ ON ALTINCI KƏRAMƏT

### *«XƏSTƏLƏR OTAĞI»*

***Hacı Şeyx Məhəmməd Rza Raşidi yazır:***

Həzrət Əbul Fəzl Abbasın(əleyhissalam) hərəmində idim. Bir xanımın hərəmdə oruc tutduğunu müşahidə etdim. O, xəstə idi. Böyrək, cigər və xərçəng xəstəliyi vardı. Çox giriftarçılıqlar çəkmişdi. Həkimlər əlac etməkdən əl çəkmişdilər. Hərəmdə xəstələrə aid xüsusi otaq vardı. Xanım bir neçə gün orda dua etdikdən sonra şəfa alıb getdi. Mən onun ardınca gedib adını soruşdum. Buyurdu: Adım Fatimədir. Həzrət Əbul Fəzl Abbas (əleyhissalam)mənə şəfa verdi.

## YÜZ ON YEDDİNCİ KƏRAMƏT

### *«SİZ NƏZRİNZƏ ƏMƏL EDİN!»*

***Cənab höccətül-islam vəl-müslimin hacı seyyid Cavad Musəvi Xalxali yazır:***

Mən 1995-ci ildə çətin bir müşkülə düşmüşdüm. Mənim nəzərimdə bu işin həlli yox idi. Həmin halda həzrət Əbul Fəzl Abbasa(əleyhissalam) dua etməyə başladım. 133 dəfə bu işi təkrar etdim. O müşkül mənim ailəmə də əziyyət verdiyinə görə həzrətə qardaşı Hüseyn (əleyhissalam)-a və qəlbi sınıq bacısı Zeynəbə(salamullahi əleyha) and verdirdim. Qüvvəm çatan qədər də nəzr etdim. Həmin gecə çox ağladıqdan sonra yatdıq. Yuxuda bir nəfər mənə dedi:

Nəzrinzə əməl edin!. Əlhəmdulillah, hacətiniz ağanın əli ilə qəbul oldu!

Sübh yuxudan oyandım. Bir neçə saat keçməmiş müşkülüm həll oldu. Mən də nəzrimi payladım.

## YÜZ ON SƏKKİZİNCİ KƏRAMƏT

### *«HEÇ KƏSƏ DEMƏDİM!»*

2. Yenə də xəstəm var idi. Götürüb bir başa Tehrana həkimə apardım. Lakin həkimlər dedilər ki, bu xəstənin əlacı yoxdur. Qəlbi sınıq halda evə qayıtdım. Hadisəni heç kəsə demədim. Gecə yarı yuxudan durub gözləri yaşlı dua oxumağa başladım. Səhəri yenidən həkimin yanına getdim. Bir neçə həkim yığışıb xəstəni müayinə etdikdən sonra dedilər: Sizin xəstənizin heç bir müşkülü yoxdur. Bu dəfə də nəzir-niyazla duam qəbul olmuşdu.

## YÜZ ON DOQQUZUNCU KƏRAMƏT

### *«ƏGƏR UŞAQ SAĞ QALSA ADINI ABBAS QOYACAĞAM!»*

***Höccətul-islam vəl-müslimin Hacı-şeyx Abbas Mühəqqiq Kaşani yazır:***

Mərhum atam höccətul-islam vəl-müslimin Hacı-şeyx Məhəmməd Təqi Mühəqqiq Kaşani mənə nəql edir ki, mənim oğlum sağ qalmırdı. Dörd oğlum olmuş, amma hamısı iki yaşında dünyadan gedirdi. Çox pərişan idim. Axı nəyə görə belə olurdu? Öz-özümə fikirləşirdim ki, mənim oğlum olmayacaqmı? Nəslim kəsiləcəkmi?

Həyat yoldaşım növbəti dəfə hamilə olanda Kərbəlaya ziyarətə getmişdim. Öz niyyətimlə Həzrət Əbul Fəzl Abbasın(əleyhissalam) hərəminə getdim. O həzrətə təvəssül edib dua etdim. Allahdan mənim övladlarımın sağ qalmasını istəməsini xahiş etdim. Həmçinin nəzr etdik ki, əgər uşaq oğlan olsa adını Abbas qoyacağam və ziyarətinə gətirəcəm.

Allahın lütfü ilə ziyarətdən qayıdandan bir həftə sonra uşaq dünyaya gəldi. İndiyə kimi uşaq salamatdır və bundan sonra da inşaallah salamat qalar. Ona görə də adını Abbas qoymuşam. Ondan sonra iki oğul da qismətim oldu. Nəhayət, öz nəzrimə də əməl etdim. Ailəvi şəkildə Kərbəla ziyarətində ola bildik.

## YÜZ İYİRMİNCİ KƏRAMƏT

### *«ƏGƏR RƏHM ETMƏSƏNİZ ATAMA ETDİYİNİZ KÖMƏK NAQİS OLACAQ!».*

***2. İndi də «Feyziyyə» məktəbində özümün başıma gələn hadisəni nəql edirəm:***

Adətən hər il ayətullah uzma Gülpayaqani tərəfindən imam Sadiq (əleyhissalam)-ın şəhadəti münasibəti ilə məclis təşkil olunurdu. Mən də bu məclisdə var idim. Şahın mə`murları həmişəki kimi məclisi dağıtdılar. Sonra qapıları hər tərəfdən bağlayıb içəridə qalanları dəyənəklə vurmağa başladılar. Vəziyyət çox təhlükəli idi. Hər kəsi tuturdularsa canı çıxınca vururdular. Bu halda mən həzrət Əbul Fəzl Abbası(əleyhissalam) köməyə çağırdım. Onların içindən elə şəkildə çıxdım ki, məni görmədilər. Bu hadisə üç dəfə mənim başıma gəlib və mən hər dəfə nicat tapmışam.

## YÜZ İYİRMİ BİRİNCİ KƏRAMƏT

### *«CƏSƏDİN KƏNARINDA RUH!»*

***Höccətul-islam Ağayeganə atasından belə nəql edir:***

Atam nəql edir: Cavanlığımın əvvəllərində karivanla birlikdə piyada Kərbala ziyarətinə getmişdim. Qumdan hərəkətə gələndə yolun xətərsiz və açıq olduğunu güman edirdik. Yolun vəziyyətindən heç kəsin xəbəri yox idi. Yol arasında İraq hökumət mə`murları bizə əziyyət etməyə başladılar.İstədilər ki, bizi bu səfərdən geri qaytarsınlar. Karivanbaşı özünün xüsusi tədbiri ilə bizi mə`murların əlindən qurtardı. Nəticədə öz yolumuza davam etdik. Bununla belə bə`zi yerlərdə bizi saxlayır, incidir, hətta, ölümlə hədələyirdilər. Nəhayət, müxtəlif çətinliklərdən mö`cüzə ilə keçib Kərbəlaya yetişdik. Dörd aya qədər orda qaldıq.

Kərbəlada olan vaxt günlərin birində burnumdan qan açıldı. Bu xəstəliyin sonu görünmürdü. Dostlarım çox narahat idilər. Onlardan biri təklif etdi ki, od qalayıb tüstüsünü burnuma versinlər. Bu işin mənim boğulub həlak olacağıma səbəb olduğunu duyub həzrət Əbul Fəzl Abbasın(əleyhissalam) hərəminə tərəf üz tutdum. Əllərimi qaldırıb qəlbi sınıq halda

Həzrətə dua etməyə başladım. Dərhal qan kəsildi. Dostlarım öz işlərinin dalısıyca getdilər. Onlar bildilər ki, həzrət Əbul Fəzl Abbas (əleyhissalam)mənə şəfa vermişdir.

## YÜZ İYİRMİ İKİNCİ KƏRAMƏT

### *«BİR SAATDAN SONRA HACƏTLƏRİN ALDILAR!»*

***Höccətul-islam vəl-müslimin Seyyid Mürtəza Müctehidi Sistani «Əsrari- Müvəffəqiyyət» kitabının 2-ci cildində yazır:***

1949-cu ildə bir neçə aylıq İraqda ziyarətgahlarda qalmalı oldum. Tez-tez həzrət Əbul Fəzl Abbasın(əleyhissalam) hərəmində olurdum. Xəstələrin öz hacətlərini almalarını dəfələrlə müşahidə etmişdim. Bə`zən, xəstələr özlərini zirehə bağlayır və bir saat keçməmiş şəfa alıb gedirdilər. Bu vaxt ərəb qadınları öz adətlərinə görə hacətlərini aldıqdan sonra zəvvarlara şirni-noğul paylayır və həl-hələ edirdilər. Onların e`tiqadları o qədər güclü olurdu ki, bə`zən hacətə gələndə qabaqcadan şirni-noğul gətirirdilər. Xəstə şəfa alan kimi dərhal sevinib şirni paylamağa başlayırdılar və Həzrətə təşəkkür edirdilər.

Günlərin birində cavan bir divanəni üç gün zirehə bağladılar. Qohumları onun ətrafını tutmuşdular. Təəccüblənirdilər ki, niyə görə Həzrət şəfa verməyib? Xəstənin üç günə şəfa alması və gecikməsi onlara çox təəccüblü gəlirdi. Onlar qəti yə`qinliklə hacətlərinin alacaqlarını bilirdilər. Sidq niyyətlə müraciət etdikdə tez öz hacətlərinə çatırdılar. Belə hadisələrdən mən dəfələrlə müşahidə etdim. Bütün bunlar həzrət Əbul Fəzl Abbasın(əleyhissalam) bərəkətindən idi.

## YÜZ İYİRMİ ÜÇÜNCÜ KƏRAMƏT

### *«TƏZƏ HƏYAT!»*

***Cənab höccətul-islam vəl-müslimin Hacı-şeyx Əhməd Əhmədi iki kəramət yazıb:***

1950-ci il idi. Dayı arvadı həyətdə oturub göyərti təmizləməklə məşğul idi. Biz də uşaqlarla birlikdə həyətdə oturmuşduq.İki-üç yaşlı uşaq da su hovuzunun kənarında oynayırdı. Uşaq bizim xəbərimiz olmadan hovuza düşür. Aradan yarım saatdan çox keçmiş mən işi başa düşdüm. Uşaq artıq su üzündə ölmüş halda qalmışdı. Uşağı hovuzdan çıxardıb kənara qoyub fəryad etdim:

Dayı arvadı! Tez gəl, Səid öldü!

O, tələsik gəlib fəryad etməyə başladı:

Ya Əbül Fəzl Abbas! Ya Əbul Fəzl Abbas! Mən uşağı səndən istəyirəm. Bu elə bir halətdə idi ki, uşaq çoxdan ölmüş sağalmağına da heç kimin ümidi də yox idi. Həmin halda atası gəlib uşağı üzü qibləyə çevirdi. Nalə etdi:

Ya imam Zaman! Uşağımı səndən istəyirəm!

Birdən uşaq anasının qucağında ağlamağa başladı. Uşaq həzrət Əbul Fəzl Abbas(əleyhissalam) və imam Zaman (ə.c) bərəkətindən təzədən həyata gəldi.

Hazırda Səid sağdır. İnsitutu başa vurmuşdur. Bu işin şükranəsinə o vaxt rövzəxanlıq məclisi təşkil olundu!

## YÜZ İYİRMİ DÖRDÜNCÜ KƏRAMƏT

### *«ƏL-AYAĞINI BAĞLAYIB ZİREHƏ BAĞLADILAR!*

***Cənab Hacı İsmail Ənsari Zəncani nəql edir:***

Özüm müşahidə etdiyim həzrət Əbul Fəzl Abbasın(əleyhissalam) kəramətini nəql edirəm:

1975-ci ildə yeddi nəfərlik ailə üzvlərimlə birlikdə İraqa İmamların(əleyhimussalam) ziyarətinə, o cümlədən «Ərbəin»i (40-cı gün) həzrət Seyyidüşşühəda imam Hüseyn (əleyhissalam) və Əbul Fəzl Abbasın(əleyhissalam) ziyarətində olduq. Cümə gecələrindən biri idi. Bir dəstə Bağdaddan gələn qadınlar divanə bir qızı əl-ayağı bağlı halda həzrət Əbul Fəzl Abbasın(əleyhissalam) hərəminə gətirdilər. Canlı olduğuna görə qız hərdən qadınların əlindən çıxıb səs-küy salırdı. Hətta, çadırını və üz-gözünü açırdı. Nəhayət, qızı içəri gətirib zirehə bağladılar ki, həzrət qıza şəfa versin. Zəvvarlar və xidmətçilər da kənardan pərişan halda tamaşa edirdilər. Birdən qız yerindən qalxıb oturdu. Bir azdan gördülər ki, qız yavaş-yavaş sakitləşir. Beləliklə, qız həzrət Əbul Fəzl Abbasın(əleyhissalam) şəfaətinə görə Allahdan tamamilə sağlamlığını geri aldı. Əhali tökülüb onun libasına təbərrük üçün əl vurmaq istədilər, lakin xidmətçilər bu işə mane oldular. Onu qonşu otağa apardılar. Qızın qohum-əqrabası onun şəfa tapmasından çox şad idilər.

## YÜZ İYİRMİ BEŞİNCİ KƏRAMƏT

### *«SƏN BİZİM ƏSGƏRİMİZSƏN, BİZ SƏNƏ KÖMƏK EDƏCƏYİK!»*

Qafqaz zabitlərindən Əli Mollayev adlı birisi 1979-cu ildə Sovet hökumətinin Əfqanıstanı işğal etdiyi dövrlərdə əfqan mücahid müsəlmanlarına həmlə etməkdən ötrü mə`muriyyət alır

Amma, özü müsəlman və müsəlman oğlu olduğundan müsəlmanla döyüşmək istəmirdi. Başqa tərəfdən amansız Sovet dövlətinin əmrini icra etməliydi. Müsəlmanlara həmlə etməkdən bşqa bir çarə görmür. Lakin bütün həmlələrdə

əvvəlcədən həzrət Əbul Fəzl Abbasa(əleyhissalam) dua edir ki, mən bu döyüşdə iştirak edə bilməyim.

Əfqanlılara hücuma keçməmişdən bir gecə əvvəl yuxuda görür ki, həzrə Əbul Fəzl Abbasın (əleyhissalam)hərəmindədir. Həzrət özü onu qarşılayıb buyurur:

«Sən bizim əsgərimizsən, sənə kömək edəcəyik!»

Bu vaxt Əhməd Rəhman Quliyev adlı bir şəxsi də çağırıb hər ikisinə buyurdu:

Bir-birinizə inanıb birlikdə iş görün. Müsəlman Əfqanıstanın nicatı üçün cihad edin!

Əli Mollayev yuxudan ayılıb səhərə kimi yata bilmir. Səhərisi sübh yuxudan durub öz dəstəsinə gedir. Təəccüblü hadisə ilə rastlaşır. Birdən yalnız yuxuda gördüyü zabitlə öz dəstəsində rastlaşır. İxtiyarsız halda çağırır:

Cənab Rəhman Quliyev sənsən?

Bu zabit dəhşətə gəlmiş halda cavab verməyib susur. O da indiyə qədər görmədiyi bir zabitdən bu sözə təəccüblənirdi. Onlar bir-birinə gizlində baxdıqdan sonra zabit, Əli Mollayev özünə gəlib dedi:

Cənab Əhməd Rəhman Quliyev! Mən hələ səhər yeməyi yeməmişəm. Onlar hər ikisi yeməkxanaya gedirlər. Mə`lum olur ki, hər ikisi eyni yuxunu görüblər. Onları yuxuda həzrət Əbul Fəzl Abbas(əleyhissalam) tanış etmişdir. Fərq bunda idi ki, zabit Əhməd Rəhman quliyev Əli Mollayevin üzünü görməmiş amma, onun planından xəbəri vardı!

Bəli! Bu iki zabit həzrət Əbul Fəzl Abbas(əleyhissalam) vasitəsi ilə bir-birlərini tanıdıqdan sonra köməkli şəkildə Əfqanıstan mücahidlərinə silah-sursat verməyə başlayırlar və başqa yerlərdə də köməklərinə çatırlar. Sonradan hər iki zabit Pakistana gedir. Sənd şəhərində çıxan qəzet bu iki zabitin başına gələn hadisəni dərc etməklə özünü iftixarlı qəzet hesab edir. Bu iki mö`min zabit hazırda Həzrət Əbul Fəzl Abbasın(əleyhissalam) kəramətindən Pakistanın universitetində tədris edirlər.

## YÜZ İYİRMİ ALTINCI KƏRAMƏT

### *«UŞAQLARI DOĞULDUQDAN SONRA ÖLÜRDÜ.»*

Hindistanlı dostlarımdan birinin övladı qalmırdı. 1964-cü ildə oğlu olub öldü. Mən onun yanına getdim. Məndən xahiş etdi ki, namaz üstündə onlara dua edim. Mən ona dedim ki, bu dəfə uşaq dünyaya gələndə mənə xəbər verərsən.

Növbəti uşaq dünyaya gələndə birlikdə onun övladının sağ qalmasından ötrü həzrət Əbul Fəzl Abbasa(əleyhissalam) nəzr edib dua etdik. O gündən sonra onun uşaqları sağ qaldı və indi oğlu evlənmək həddindədir. Bu da Həzrətin kəramətlərindən biridir.

## YÜZ İYİRMİ YEDDİNCİ KƏRAMƏT

### *«HİNDİSTANIN ŞAHI ŞƏFA TAPIR.»*

***Hüseyn Hali Hindistanlı yazır***:

Bahadur şah Zəfər Dehlidə xəstələnir. Müxtəlif müalicələr edir, amma faydası olmur. Mirzə Sədr Şükuh nəql edir ki, əgər padşah sağalsa Lekenho şəhərində olan «Əbul Fəzl Abbas (əleyhissalam) dərgahı» adlı ziyarətə gedib oraya ələm təqdim edəcəkdir.

Şah şəfa tapdıqdan sonra həmin ziyarətgaha qızıldan bir ələm bağlatdırır.

## *HƏZRƏT ƏBUL FƏZL ABBASIN (Ə) ƏHLİ-SÜNNÜLƏRƏ KƏRAMƏTİ.»*

*(Səkkiz kəramət)*

### YÜZ İYİRMİ SƏKKİZİNCİ KƏRAMƏT

### *«NƏYƏ GÖRƏ ƏBUL FƏZL ABBAS (Ə) ADINA EHSAN SÜFRƏSİ AÇMISAN?*

***Cənab höccətul-islam vəl-müslimin Şeyx Ruhullah Qasimpur yazır:***

1995-ci ildə İranın Kürdüstan əyalətində tədrislə məşğul idim. Sünni qardaşlardan biri bizi də`vət etdi ki, həzrət Əbul Fəzl Abbas(əleyhissalam) adına ehsan süfrəsi açmışam. Çox təəccübləndik. Hər halda qəbul etdik. Cümə günü idi. Bu sünni qardaşın evinə getdik. İki otaq ağzına kimi sünni qardaşlarla dolu idi. İki otağın ortasında mənim söhbət etməyimdən ötrü xırda mənbər düzəltmişdilər. Məni də`vət edən sünni qardaş da yanımda idi. Söhbətimin əvvəlindən axırına qədər çox

xohşal idi. Sünni xanımlardan söhbət arasında tez-tez əlimə pul qoyurdular və deyirdilər:

Bu həzrət Əli Əkbər(əleyhissalam) nəzridir! Bu həzrət Əli(əleyhissalam) Əsğər(əleyhissalam) nəzridir!

Mənbərdən sonra məni nahara də`vət etdilər. Nahardan sonra vidalaşanda mənə zəhmət haqqı vermək istədilər. Mən qəbul etməyib dedim: Sizin mənə öz evinizdə Kərbəla Ələmdarı barədə söz deməyə icazə verməyiniz kifayətdir. O, qəbul etmədi. Mən pulu qəbul etmək məcburiyyətində qaldığım üçün onun qarşısına bir şərt qoydum. Soruşdum ki, siz nəyə görə həzrət Əbul Fəzl Abbasın(əleyhissalam) adına süfrə açmısınız. Cavab verdi ki, indi söyləyərəm:

Mənim ürək xəstəliyim var idi. Nə qədər həkimə müraciət etdimsə faydası olmadı. Hətta, Təbrizli məşhur həkimə də müraciət etdim. Lakin heç bir nəticə vermədi. Bütün həkimlərdən əlimi üzüb evə gəldim. Hər tərəfdən naümid olmuşdum. Anam bizə gəlib dedi:

Oğlum halın necədir?

Dedim: Nə hal soruşursan?

Dedi: Həkimə getmək istəmirsənmi?

Dedim: Hansı həkimə getdimsə faydası olmadı.

Dedi: Mən bir həkim tanıyıram ki, bir nüsxə yazmaqla şəfa tapırsan.

Dedim: Bu həkim kimdir? Adı nədir? Evi haradadır?

Dedi: Onun xəstəxanası və növbəsi yoxdur.

Dedim: Anacan, bu həkim kimdir? Mən dərddən ölürəm.

Dedi: Həkimin adı həzrət Əbul Fəzl Abbas (əleyhissalam) həzrət Əli (əleyhissalam) oğlu!.

Dedim: Bizim ki, onlarla əlaqəmiz yoxdur və onlarla aramız yaxşı deyil.

Anam dedi: Onlar böyük şəxsiyyətlərdir. Bəxşiş və şəfa onların əlindədir.

Bu sözlərdən sonra qəlbim rahatlaşdı. Anam məndən ayrılıb nəvəsinin yanına getdi. Yavaş-yavaş dua etmək halı tapdım. Dedim:

Ya həzrət Əbul Fəzl Abbas (əleyhissalam) sənin tə`rifini çox eşitmişəm! Mənə bu dərddən nicat ver! Ey ağa! Əgər ata-anan haqq olublarsa mənə şəfa ver!

Çoxlu ağladıqdan sonra yuxuya getdim. Yuxuda gördüm ki, bir parça nur evimizə daxil oldu. Başımın üstə gəlib dedi: Qalx!

Dedim: Bir dayan. İndi bir az özümə gəlmişəm, qoy yatım.

İkinci dəfə buyurdu: Sənə deyirəm ki, qalx!

Dedim: Qoysana istirahət edəm. Sən kimsən axı?

Dedi: Sən kimisə çağırmısan?

Tez duam yadıma düşdü. Buyurdu:

Mən Əbul Fəzl Abbasam! Nə istəyirsən?

Ərz etdim: Qəlbim xəstədir. Daha taqətim yoxdur. Mənim qəlbimə bir əlac et! Bu anda Həzrət yoxa çıxdı!

O halda yuxudan oyandım. Anamın və uşaqlarımın yanına getdim. Onlar mənim özümün yuxudan durduğumu görəndə təəccübləndilər. Dedilər:

Nə olub? Niyə yerindən qalxmısan?

Dedim:

Anacan! Sənin xəstəxanasız həkimin gəlib şəfa verib getdi!

## YÜZ İYİRMİ DOQQUZUNCU KƏRAMƏT

### *«ON İL İDİ Kİ, UŞAĞI OLMURDU!»*

***Kuveytdən Məhəmməd Murad adlı bir nəfər şiyə yazır:***

Köçəri sünnü ərəblərdən birinin övladı olmurdu. 10 il olardı ki, evlənmişdi. Hətta, İngiltərə və Amerika həkimləri ona rədd cavabı vermişdilər. Nəhayət, bir gün bu sünnü mənimlə məsələni araya qoydu. Mən ona dedim: Sənə bir həkim tanıtdıraram ki, işin həll olar.

Kuveytdən İraqa, Kazimeynə tərəf hərəkət etdik. İmam Kazim və Cavad (əleyhimussalam)-ı ziyarət etdik. On gün orada qalıb Samerraya tərəf getdik. İmam Əliyyən Nəqi və

Həsən Əskəri(əleyhissalam)-ın ziyarətində olduq. Sonra Nəcəfə gəlib Əli (əleyhissalam)-ı ziyarət edib Kərbəlaya gəldik. İmam Hüseyn (əleyhissalam) və Həzrət Əbul Fəzl Abbas (əleyhissalam)-ın on gün ziyarətinə nail olub Kuveytə qayıtdıq.

Qırx gündən sonra həyat yoldaşında hamiləlik əlaməti görünməyə başladı. Mənə:

«Müjdə! Müjdə!» deyə müraciət etdi.

Sünnü kişinin sonradan on bir oğlu oldu. Onların hər birinə Əli (əleyhissalam) və onun övladlarının adlarını qoydu.

## YÜZ OTUZUNCU KƏRAMƏT

### *«HƏKİM PULSUZ MÜALİCƏ EDİR!»*

***Qətər ölkəsindən Hacı Əbdül Həmid Əbu Əmir nəql edir:***

Sünni bir kişi ilə dost idim. On üç ildən çox idi ki, evlənmişdi. Amma bu müddətdə övladları olmamışdı. Bir gün ona dedim ki, sənə pulsuz müalicə edən həkim sorağı deyimmi? Bu sözləri eşidəndə xoşhal oldu. Allah ata-anana rəhmət eləsin, məni onun yanına apar.

Dedim: Bu gün bizim evdə Həzrət Əbul Fəzl Abbas (əleyhissalam) məclisi var. Sənin əqidənlə işin olmasın, bu gecə bizə gəl.

Hacı Əbu Əmir deyir: O gecə sünni bizim evimizə gəldi və həzrət Əbul Fəzl Abbas (əleyhissalam) adına olan rövzə məclisində iştirak etdi. Yeməkdən sonra bir boşqab da ailə-uşağından ötrü apardı. Həyat yoldaşı da həzrət Əbul Fəzl Abbas (əleyhissalam)-ın süfrəsindən yedi. Bir müddət sonra bu kişi həzrət Əbul Fəzl Abbas (əleyhissalam)-ın bərəkətindən övlad sahibi oldular.

## YÜZ OTUZ BİRİNCİ KƏRAMƏT

### *«ALLAH SİZİN ƏBUL FƏZL ABBASIN (Ə) BƏRƏKƏTİNDƏN MƏNƏ OĞLAN UŞAĞI VERDİ!»*

***Höccətul-islam vəl-müslimin hacı seyyid Həsən Nəqibi yazır:***

1960-cı ildə ilk dəfə olaraq Nəcəfül-Əşrəfdən İraqın şimalında yerləşən Kərkük şəhərinə müsafirət etdim. Oranın əhalisi ilə tanış olub İmamı təbliğ etmək fikrindəydim.

«Tis`in» adlı məntəqədə ruhani dostumla məscidlərdən birinə getdik. Məscidin adı türkcə «Zülfünün cami» idi. Bu məscidi hacı Cəlal Əfəndi və hacı Cə`fər tikdirmişdilər. Həyətdəki oturacağın üstündə oturub söhbət etdiyimiz halda təxminən 40 yaşlı bir nəfər kişi məscidin həyətinə daxil oldu. Məscidə bir kisə şəkər verdi. Onu söhbətimizə və çaya də`vət etdik. O da bizimlə oturdu. Hal-əhvaldan sonra ondan adını soruşdum. Təbəssümlə cavab verdi:

Bağışlayın, adım Osmandır.

«Osman» adını eşitdikdə düşündüm ki, mənimlə zarafat edir. İstəyir ki, məni sünni məntəqəsində olduğuma görə imtahan etsin. Gülərüzlə dedim:

Mənimlə zarafat edirsiniz?

Cavab verdi: Xeyr! Mənim adım doğurdan da Osmandır.

Dedim: Əvvəl sünni olmusan, sonra şiəliyi qəbul etmisən?

Dedi: Xeyr!

Dedim: Qardaş, axı şiə Osman adını qoymur. Əgər şiəsənsə nəyə görə adın Osmandır. Əgər sünnisənsə bizim əzadarlığa nəzir gətirməyin nədir?

Cavab verdi: Mən sünni idim. İndi də sünniyəm. Əlavə etdi: Mənim övladım olmurdu. Çox həkimlərə getmişdim. Çoxlu müalicələr və analizlər vermişdim, hətta bə`zi yerlərdə dedilər ki, sən sonsuzsan. Ümidsizlik bütün vücudumu bürümüşdü. Şiə dostlarımdan biri mənə dedi: İstəyirsən ki,

sənə elə bir həkim tanıtdırım ki, yanına gedən kimi övladın olsun? Dedim: Bəli! O həkim hardadır?

Buyurdu: Həzrət Əli (əleyhissalam)-ın övladı, Kərbəla Ələmdarı həzrət Əbul Fəzl Abbas (əleyhissalam)-dır. Amma, nəzr edib xalis niyyət və e`tiqadla qapısına getməlisən. Biz şiələr onu «Babul-həvaic» kimi tanıyıb müşkillərimizi onun əli ilə həll edirik.

Mən çox həsrətlə övld arzusundaydım. Nəzr edib dedim:

Ya Əbul Fəzl Abbas! Əgər sənin «Babul-həvaic» olmağın doğrudursa və giriftarçılıqda dadə yetirsənsə sənin qapına gəlmişəm. Mənə övlad! Allahdan məndən ötrü övlad istə. Nə qədər ki, sağam əzadarlıq vaxtı bir kisə şəkər süfrənə nəzr verərəm!

Allaha şükür. Neçə ildir ki, həzrət Əbul Fəzl Abbas (əleyhissalam)-ın bərəkətindən bir oğlum var və mən hər il nəzrimə əməl edirəm. Siz hesab edirsiniz ki, «Babul-həvaic» yalnız siz şiələr üçündür?

Dedim: Niyə görə bu kəraməti görüb şiə olmursan?

Cavab verdi: Bütün qohum-əqrabam mənimlə düşmən olacaq. Şiə olmaqlıq cür`ət istəyir, o da məndə yoxdur.

## YÜZ OTUZ İKİNCİ KƏRAMƏT

### *«MƏNİ ŞİƏLƏRİN ƏBUL FƏZL ABBASA TUTDUQLARI ƏZA MƏCLİSİNƏ APARIN!»*

***Höccətul-islam vəl-müslimin Oman ölkəsindən olan Şeyx Səid Səidi üç kəramət yazır:***

1. Qadınlardan birinin bütün uşaqları, qohum-əqrabası və əri sünni idilər. Bu xanım şil xəstəliyinə tutulmuşdur. Əri sağalmasından ötrü çox xərc çəkmişdi, amma onun şəfa tapmasından mə`yus olub onu uşaqları ilə birlikdə atası evinə göndərmişdi. Ola bilsin onu boşayıb təzə arvad almaq fikrindəymiş. Xanım pərişan halda bacılarına deyir:

Sabah Məhərrəmin yeddinci günü və şiələrin yanında həzrə Əbul Fəzl Abbas (əleyhissalam) günüdür, ora gedin. Xahiş edirəm məni də şiələrin «Abbas» matəmi məclisinə aparın. «Abbas ələminə» bağlayın, bəlkə onun əli ilə şəfa tapam.

Səhəri gün bacıları xanımın qoltuğuna girib ayaqları yerlə sürünə-sürünə onu Əbul Fəzl Abbas (əleyhissalam) məclisinin qadınlar olan qismətinə gətirdilər. Həzrətin adına olan «Ələmin» yanında otuzdurdular. Bu vaxt sübh mərasimi qurtarmışdı. Hər halda sinə vurmaqlıq mərasimi başladı. Qadınların mərasiminin məs`ulu ona yaxınlaşıb dedi:

Qalx! Əzadarlıqda sən də iştirak et!

Xəstə qadın cavab verdi:

Sən ki, bilirsən mən şiləm, qalxmağa qüdrətim yoxdur.

Buyurdu: Heç narahat olma «Ya Əbul Fəzl Abbs!» deyib yerindən qalx! Xəstə qadın uca səslə və xalis niyyətlə:

«Ya Əbul Fəzl Abbas!» deyəndə, birdən yerindən qalxdı.

O vaxt qadın özü ayaqlarına əlini vurub hiss edir ki, şillikdən qıçlarında əsər-əlamət yoxdur. Ona görə də ixtiyarsız halda baş-gözünə vurub, fəryad çəkib əzadarlıq etməyə başlayır. Kişilər bu səsi eşidib pərdənin dalında onlar da əzadarlığa başlayırlar. Məclis xüsusi şur və həyəcanla davam edir.

Onu da qeyd edək ki, bu xanım Məhərrəmin yeddisindən Səfər ayının axırına qədər bütün əzadarlıq məclisində iştirak eməkdən əlavə orada köməklik də göstərimşdir. Əri də qadının şəfa tapmasını eşidib onu evinə qaytarır və öz müştərək həyatlarına təzədən başlayırlar.

Xatırladaq ki, bu qadının qardaşı vəhhabi olub şiələrin belə məclislərini bid`ət və xurafat kimi qələmə verirdi. Belə məclislərə qarşı mübarizə aparanlardan idi. Amma bacısının həzrət Əbul Fəzl Abbasın (əleyhissalam) əli ilə şəfaət tapmasını qəbul edib müqabilində təslim olmuşdur!

## YÜZ OTUZ ÜÇÜNCÜ KƏRAMƏT

### *«HƏZRƏT ƏBUL FƏZL ABBASDAN (Ə) ŞƏFASIN ALDI.»*

2. Sünnilərdən 12 yaşlı bir oğlan uşağı var idi. Xüsusi xəstəliyə tutulmuşdu. Hər gün səhər saat 11-dən sonra halı dönür, bədəninin rəngi tamam göy rəngə çevrilirdi. Atası iddia edirdi ki, çox həkimlərə aparmışam, hətta bu yolda 1000 dollara yaxın xərc çəkmişəm. Amma, faydası olmayıb.

Uşağın anası aşura günü onu «Əbul Fəzl Abbas (əleyhissalam)-ın» matəminə aparır və özü ilə qadınlar olan yerdə otuzdurur. Adətə görə o gün xətib imam Hüseyn (əleyhissalam)-ın rövzəsini oxuyur, sonradan günortadan keçənə qədər sinə vurmaqlıq davam edir. Bu qadın da məclisdə iştirak edir. Birdən yadına düşür ki, uşağın xəstəliyi var. Tez onun bədəninə baxır. Qəribədir, neçə illər idi ki, hər gün bu xəstəlik uşağda bilinirdi. İndi uşağın bədəni sağlam idi. Birdən başa düşür ki, uşaq şəfasın almışdır. Səs-küy salıb ağlamağa başlayır. Hamı bilir ki, nə isə kəramət olub.

O gündən sonra uşaqda bir daha belə xəstəlik baş verməyib. Əslində uşaq həzrət Əbul Fəzl Abbasdan(əleyhissalam) şəfasın almışdı.

## YÜZ OTUZ DÖRDÜNCÜ KƏRAMƏT

### *«BÜTÜN HƏYƏT VƏ KÜÇƏNİ CAMAATLA DOLDURMUŞDU»*

***Həzrət ayətullah üzma Hacı seyyid Məhəmməd Hüseyni Şirazı dükançı bir dostunun dilindən nəql edir:***

Kürdlərin sünni qadınlarından biri Novruz bayramı günü Kərbəlaya gəldi. Mənim yanıma gəlib bir miqdar mal aldı.

Soruşdu: Mənim heç kəsim yoxdur, sizdə bir günlüyə yer tapılarmı? Dedim: Mane yoxdur.

Evdə həyat yoldaşıma nəql edir ki, on ilə yaxındır ki, ailə həyatı qurmuşam amma, uşağım olmur. Zövcəm ona deyir:

Siz həzrət Əbul Fəzl Abbasa (əleyhissalam) dua və nəzir edin ki, əgər gələn il Novruz bayramına kimi övladım olarsa, boynumda və əlimdə nə qədər qızıl varsa Həzrətin hərəminə atacağam!.

Gələn ilin Novruz bayramı günü Kərbəlada zəvvar həddən çox idi. Mənim də başım qarışıq idi. Günortadan iki saat sonra evə getdim. Gördüm ki, həyət-bağçanın hamısı kürdlərlə doludur. Çox nigarançılıqla özümü evə çatdırdım. Zövcəmi səslədim ki, bu nə vəziyyətdir? Gülərək dedi: Bir şey deyil! Çıx yuxarı. O keçən ilki qadın övladı ilə gəlib ki, qızıllarını həzrət Əbul Fəzl Abbasın(əleyhissalam) hərəminə təqdim etsin. Bunlar da hamısı uşağı olmayan qadınlardır. Gəliblər ki, həzrət Əbul Fəzl Abbasa(əleyhissalam) dua edib övlad istəsinlər. Sonra öz qızıllarını həzrətə təqdim etsinlər.

## YÜZ OTUZ BEŞİNCİ KƏRAMƏT

### *«HƏZRƏTƏ AND VERDİYİNƏ GÖRƏ HAQQIN ALIR!»*

***Höccətul-islam vəl-müslimin hacı şeyx İbrahim Siddiqi yazır:***

Kuveytdə olduğum vaxt bir hadisə baş verdi, anladım ki, bu sünni ərəblərin həm Həzrət Əbul Fəzl Abbasa (əleyhissalam) e`tiqadları var, həm də onu kəramət sahibi kimi tanıyırlar. Hadisə bu idi:

Sünni ərəblərdən birinin mal-qarası çox olduğuna görə şiələrdən biri ilə yağ alveri edirmiş. Köçəri sünni ərəb bir dəfə şiyə üçün yağ gətirəndə şiyə istəyir ki, onun haqqını kəssin (Tamah güc gəlir). Sünni bilir ki, yağ on kiloqramdır. Şiyə

yağı səkkiz kiloqram adına almaq istəyir. Bu vaxt sünni ərəb hirslənir, əlindəki əsa ilə şiyənin durduğu yeri dövrəyə alır (yeri çızır) və deyir:

Bu həzrət Əbul Fəzl Abbasın(əleyhissalam) dairəsidir. Əgər sözündə sadiqsənsə bu dairədən kənara çıx!

Şiyə tacir görür ki, yerindən hərəkət etməyə qüdrəti yoxdur. İradəsi sözünə baxmır. Ona görə də dediyi yalana iqrar edir və yağı on kiloqram adı ilə sünnidən alır.

## *HƏZRƏT ƏBUL FƏZL ABBASIN (Ə) QAFİLLƏRƏ VƏ MÜTƏKƏBBİRLƏRƏ QÜDRƏTİNİ GÖSTƏRMƏSİ*

## *(ON SƏKKİZ TƏNBEH)*

## *BİRİNCİ TƏNBEH*

## *«HƏZRƏT DƏ SƏNİNLƏ ZARAFAT EDİB!»*

***Mərhum Hacı-şeyx Müctəba Lənkərani nəql edir:***

Bir dstə dostlarla birlikdə Nəcəfül-Əşrəfdən Kərbəlaya ziyarətə getdik. Kərbəlaya çatmamışdan dostlar ixtilaf etdilər ki, əvvəl imam Hüseyn (əleyhissalam)-ın ziyarətinə gedək, yoxsa, həzrət Əbul Fəzl Abbasın (əleyhissalam) ziyarətinə gedək. Dostlardan biri dedi:

Xeyr! İmam Hüseyn (əleyhissalam)-ın ziyarətinə gedəyin. Sonra əlavə etdi: Həzrət Əbul Fəzl Abbasın (əleyhissalam) ziyarəti çox da mühüm deyil. Getsək gedərik, getməsək də eybi yoxdur.

O, bizimlə imam Hüseyn (əleyhissalam)-ın ziyarətinə getməkdən ötrü dəstəmaz alır. Dəstəmazxanada birdən ayağı ilişib ayaqyoluna düşür. Başdan-ayağa nəcasətə bulanır. Dostlar onu ayaqyolundan çaxartdıqdan sonra ona dedilər:

Bu pis niyyətindən sonra tövbə et!

O, dedi: Mən Həzrətlə zarafat edirdim!

Dostlardan biri onun cavabında buyurdu:

Həzrət Əbul Fəzl Abbas(əleyhissalam) da səninlə zarafat edirmiş. Yoxsa ayaqyolu qəbrin olacaqdı!

## *İKİNCİ TƏNBEH*

## *«YALAN ANDIN CƏZASI!»*

***Hacı Rza Nəzəri nəql edir:***

Təxminən 1255-ci hicri qəməri ilində həzrət Əbul Fəzl Abbasın(əleyhissalam) pak hərəmində idim. Bir nəfəri düyü oğurluğu ittihamı ilə həzrət Əbul Fəzl Abbasın(əleyhissalam) zirehinin yanına gətirdilər. Ona and verdirmək istəyirdilər. Öz gözlərimlə müşahidə etdim ki, ağzın açıb and içmək istədikdə birdən qorxulu bir səs eşidildi. Belə ki, hamı qorxuya düşdü.

